Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
İctimai Səhiyyə və İslahatlar Mərkəzi

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜVAFİQ QANUNVERİCİLİYİNİN "TÜTÜNƏ QARŞI MÜBARİZƏ HAQQINDA" ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ ÇƏRÇİVƏ KONVENSİYASINA UYĞUNLUĞUNUN

# MÜQAYİSƏLİ TƏHLİLİ

**(3-cü nəşr, yeniləşdirlimiş)**

FCTC
WHO FRAMEWORK CONVENTION ON TOBACCO CONTROL

Bakı - 2021

Təhlil Azərbaycan Respublikasının 2005-ci ildə qoşulduğu Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyasının 5-ci Maddəsinin (Ümumi öhdəliklər) 1-ci bəndin (Tərəflərdən hər biri bu Konvensiya və Tərəfi olduğu protokollara uyğun olaraq, tütünə qarşı mübarizə üzrə hərtərəfli çoxsektorlu milli strategiyaları, planları və proqramları hazırlayır, həyata keçirir, vaxtaşırı olaraq təzələyir və yenidən nəzərdən keçirir) tələblərini nəzərə alaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən 2021-ci ildə aparılmışdır.

2017-ci ildən başlayaraq Azərbaycan Respublikasının bir sıra qanunvericilik sənədlərində tütünlə bağlı müddəalara müəyyən dəyişikliklərin edilməsi ve yeni qanunvericilik aktlarının qəbul edilməsini nəzərə alınaraq 2021-cı ildə Təhlilin 3-cü, yeniləşdirilmiş nəşri hazırlanmışdır.

Ekspert: İSİM-in İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev.

# MÜNDƏRİCAT


**Ön söz**..........................................................................................................4

**Giriş**..........................................................................................................6

1. **Tütünə tələbatın azaldılması ilə bağlı qiymət tədbirləri**..........................................9
   *1.1. Qiymət və vergi tədbirləri* ........................................................................10
2. **Tütünə tələbatın azaldılması üçün qeyri-qiymət tədbirləri**....................................17
   *2.1. Tütün tüstüsünün təsirindən qorunma*...........................................................18
   *2.2. Tütün məmulatlarının tərkibi*.......................................................................24
   *2.3. Tütün məmulatının tərkibinin açıqlanması*....................................................26
   *2.4. Tütün məmulatının qablaşdırılması və markalanması*....................................28
   *2.5. Tütün sənayesinə dair informasiyanın əlçatanlığı və ictimai iştirakçılıq* .......35
   *2.6. Reklam, satışın stimullaşdırılması və sponsorluq*..........................................43
3. **Tütündən asılılıq və tütündən istifadənin dayandırılması**.......................................50
4. **Tütün təchizatının azaldılması ilə bağlı tədbirlər**..................................................52
   *4.1. Tütün məmulatının qeyri-qanuni ticarəti*.......................................................52
   *4.2. Yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış*................................58
   4.3. *Alternativ növlərin dəstəklənməsi və ətraf mühitin qorunması*.......................62
5. **Məsuliyyətlə bağlı məsələlər**.................................................................................64
6. **Dövlətlərin Konvensiya üzrə ümumi öhdəlikləri**....................................................71
   *6.1. Tütün sənayesinin inkişafını stimullaşdırmamaq*............................................74
   *6.2. Preferensial rejimin tətbiq olunmaması*..........................................................75
   *6.3. Korporativ sosial məsuliyyət*..........................................................................75
   *6.4. Maraqların münaqişəsinə yol verilməməsi*......................................................76
   *6.5. Milli koordinasiya mexanizmi*........................................................................77
7. **Elmi-texniki əməkdaşlıq və məlumatın çatdırılması**...............................................77

**Xülasə** (azərbaycan, ingilis və rus dillərində)...........................................................83

**İstifadə olunmuş sənədlərin siyahısı**......................................................................89

**Ön söz**

Qlobal tütün epidemiyası 21-ci əsrdə bir milyard kişi, qadın və uşaqlara təhlükə yaradan problemdir. Bu dağıdıcı epidemiyanı dayandırmaq üçün dərman və vaksinlər deyil, hökumətlərin və vətəndaş cəmiyyətlərinin razılaşdırılmış fəaliyyəti zəruridir. Bizim dövr – ictimai səhiyyənin tarixində olan nadir məqamdır ki, siyasi iradə ilə əsrin ortalarınadək tütün istehlakının kəskin azalması və milyonlarla həyatın xilas olması üçün potesial yaradır. Hazırda, tütün epidemiyası BMT-nin 2030-cu ilədək qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinin əksəriyyətinə birbaşa və ya dolayı təsir göstərir və digər risk amillərlə yanaşı qeyri-infeksion xəstəliklər yükünü artırır.

Tütün vaxtından əvvəl ölüm, xəstəlik və əlillik hallarının qarşısı alına bilən əsas səbəbidir. Bu gün tütün dünyada böyüklər arasında on nəfərdən birinin ölümünə səbəb olur və səkkiz aparıcı ölüm səbəbinin altısı üçün risk amilidir. Hər il 8 milyondan çox insan tütün tüstüsünün təsiri nəticəsində yaranan xəstəliklərdən ölür, onlardan 1 milyonu ətrafa yayılan ikincili tüstü ilə nəfəs alan tütünçəkməyən insandır.

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası bəşəriyyətin tütün məmulatlarının istehsalını, satışını və istifadəsini tənzimləyən ilk beynəlxalq razılaşmasıdır. O, Ümumdünya Səhiyyə Assambleyası tərəfindən 21 may 2003-cü il tarixdə qəbul edildi və 27 fevral 2005-ci il tarixdə qüvvəyə mindi. Həmin dövrdən başlayaraq Konvensiya Birləşmiş Millətlər Təşkilatının tarixində ən geniş tanınmış sazişlərdən biri oldu. 2021-ci ilin 26 may tarixinə olan vəziyyətə görə onun 182 Tərəfi vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 20 sentyabr 2005-ci il tarixdə Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanununu imzalamışdır.

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası tütün epidemiyasına qarşı qlobal mübarizədə ilk addım oldu. Çərçivə Konvensiyasının Tərəfləri tütün epidemiyasına qarşı mübarizəyə qoşularaq öz əhalisinin sağlamlığının qorunmasını öhdələrinə götürmüşlər. Bu müqavilə tütün məhsullarına olan təklif və eləcə də tələblərin azaldılması modelini ölkələrə təklif edir. Burada tütün epidemiyasının qarşısını ala biləcək ən effektli yanaşmalar əks olunub ki, bunlardan tütündən istifadənin monitorinqi, insanların tütün tüstüsündən qorunması, tütündən imtina olunması məqsədilə tədbirlər, tütünlə bağlı təhlükələr barədə xəbərdarlıqlar, tütün məmulatlarının reklamı, satışının stimullaşdırılması və sponsorluğuna qadağaların qoyulması, tütün məmulatlarına qoyulan vergilərin artırılması və tütün məmulatlarının qablaşdırılması məsələlərini vurğulamaq olar. Beləliklə, Çərçivə Konvensiyası tütünə qarşı mübarizə üzrə ən əhəmiyyətli və səmərəli tədbirlər kompleksidir.

Eyni zamanda Çərçivə Konvensiyasının hər bir maddəsinin səmərəli işləməsi üçün ölkənin müvafiq tələblərə cavab verən tütünlə mübarizə üzrə qanunvericilik bazası, cəmiyyətin tütünlə mübarizədə həmrəy olması vacibdir. Bütün tütünlə mübarizə tədbirləri çoxsektorlu yanaşma və siyasi iradə tələb edir.

Azərbaycanda tütünlə mübarizə sahəsində, xüsusilə də son illərdə bir çox işlər görülüb, lakin hələ də bəzi çatışmazlıqların aradan qaldırılması və bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan Azərbaycan qanunvericiliyinin Çərçivə Konvensiyasına uyğunluğunun müqayisəli təhlili xüsusi diqqət cəlb edir. Hazırkı təhlilin məqsəd və vəzifələri tütünlə mübarizə sahəsində Azərbaycan qanunvericiliyinin Çərçivə Konvensiyasına uyğunluğunun araşdırılması, çatışmazlıqların aradan qaldırılması üçün məqsədyönlü rəy və tövsiyələrin hazırlanması və yekun nəticələrin ilk növbədə Azərbaycanda tütünlə mübarizə sahəsində çalışan təşkilat və şəxslərə çatdırılmasıdır.

Təhlilin nəticələri Azərbaycanda qanunvericiliyin formalaşması və tütünə qarşı nəzarət və mübarizə işinin təşkili ilə məşğul olan qərar qəbul edən şəxslər, millət vəkilləri, siyasətçilər, aidiyyəti dövlət və ictimai təşkilatlar və fəallar, ictimai səhiyyə mütəxəssisləri, digər təşkilat və fərdlərin fəaliyyətlərində nəzərə alına bilər. Aparılmış təhlilin başlıca məqsədi ÜST tərəfindən epidemiya elan edilmiş və müasir dövrdə əhalinin sağlamlığının qorunması sahəsində təhlükəli problemə çevrilmiş tütünə qarşı mübarizədə hökumət, qeyri-hökumət və beynəlxalq təşkilatların, ayrı-ayrı vətəndaşların, bütövlükdə Azərbaycan cəmiyyətinin səylərinin birləşdirilməsinə və bu istiqamətdə siyasi və ictimai dəstəyin təşkil olunmasına nail olmaqdır.

Tütün epidemiyası təhlükəsi hələ də mövcuddur. Lakin bu epidemiyanı geri döndərmək mümkündur. Bunun üçün Çərçivə Konvensiyasına qoşulan hər bir ölkələrin öhdəlikləri tam həyata keçirilməlidir.

**Qəhrəman Haqverdiyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru

**Giriş**

Tütündən istifadənin geniş yayılmış asılılığa çevrilərək hər il milyonlarla insanın həyatını əlindən alan və sağlamlığına zərər vuran qlobal epidemiya səviyyəsinə çatdığı bir dövrdə tütünə qarşı mübarizə beynəlxalq ictimaiyyətin qarşısında duran vacib vəzifələrdən biridir. Ümumdünya Səhiyyə Təşkilatı (daha sonra ÜST) tərəfindən qəbul edilmiş Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyası (daha sonra Çərçivə Konvensiyası və ya Konvensiya) bu istiqamətdə atılmış ən vacib addımlardan biridir. Çərçivə Konvensiyası tütünlə mübarizə sahəsində qəbul edilmiş ilk beynəlxalq müqavilədir və dövlətlər üçün tütünə tələbatın və tütün təchizatının azaldılmasına yönəldilmiş məcburi hüquqi öhdəliklər müəyyənləşdirir. Bu Konvensiyaya Tərəf olaraq dövlətlər tütünsüz bir dünyaya nail olmaq yoluna qədəm qoyurlar ki, bu da milyonlarla insanın sağlamlığının qorunması baxımından çox əhəmiyyətlidir. Çərçivə Konvensiyası Tərəflər üçün elə öhdəliklər müəyyən edir ki, onları həyata keçirməklə dövlətlər yalnız tütündən istifadə etməyən şəxslərin həyat və sağlamlığını qorumur, həm də tütün istehlakçılarını tütündən istifadəni azaltmağa və ondan imtina etməyə sövq edir.

Dövlətlərə həmin öhdəlikləri yerinə yetirməkdə kömək etmək məqsədi ilə ÜST 2008-ci ildə aşağıdakı 6 əsas strategiyanı müəyyən edən MPOWER[1] paketini hazırlamışdır:

- Tütündən istifadənin və onun qarşısının alınmasının monitorinqi;
- İnsanları tütün tüstüsündən qorumaq;
- Tütünçəkmədən imtina etmək üçün yardım təklifi;
- Tütünün törətdiyi təhlükələrə dair xəbərdarlıq;
- Tütünün reklamının, satışının stimullaşdırılması və sponsorluğunun qadağan olunması;
- Tütünə tətbiq olunan verginin artırılması.

Eləcə də Çərçivə Konvensiyasının 23-cü maddəsi əsasında təsis edilmiş Tərəflərin Konfransı[2] öz sessiyalarında Çərçivə Konvensiyasının ayrı-ayrı maddələrinin həyata keçirilməsinin Rəhbər Prinsiplərini (daha sonra Rəhbər Prinsiplər) qəbul etmişdir ki, həmin prinsiplər Çərçivə Konvensiyasının ayrı-ayrı maddələrinə aydınlıq gətirir və onların dövlətlər tərəfindən düzgün həyata keçirilməsinə şərait yaradır.

[1] Paket müəyyən edilmiş altı strategiyanın ingiliscə başlıq hərflərini birləşdirərək MPOWER adlandırılmışdır: **M**onitor tobacco use and prevention policies; **P**rotect people from tobacco smoke; **O**ffer help to quit tobacco use; **W**arn about the dangers of tobacco; **E**nforce bans on tobacco advertising, promotion and sponsorship; and **R**aise taxes on tobacco.

[2] Tərəflərin Konfransı Konvensiyanın rəhbər orqanıdır; Konvensiyanın həyata keçirilməsinin gedişini müntəzəm olaraq nəzərdən keçirir və onun səmərəli tətbiq edilməsinə yardım üçün lazım olan qərarları qəbul edir.

Azərbaycan Respublikası 20 sentyabr 2005-ci il tarixli Qanunu[3] ilə ÜST-nin Çərçivə Konvensiyasına qoşulmuş və 1 noyabr 2005-ci il tarixində Konvensiyanı ratifikasiya etmişdir. Əhəmiyyətlidir ki, 2017-ci ildə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunun [4] qəbul edilməsi Azərbaycanda qlobal tütün epidemiyasının artan təhlükələrinə qarşı daha məqsədyönlü və səmərəli cavab tədbirləri baxımından vaxtında atılan addım oldu. Bu Qanun Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması istiqamətində fəaliyyətin hüquqi əsaslarını müəyyən edir.

Təqdim olunan tədqiqat Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin ÜST-nin Çərçivə Konvensiyasının müddəalarına uyğunluğunu araşdırır. Onu da qeyd edək ki, tədqiqatda müqayisəli təhlil aparılarkən Çərçivə Konvensiyası ilə yanaşı MPOWER paketi və Rəhbər Prinsiplər də nəzərə alınır.

Azərbaycan Respublikasının Konstitusiyasında[5] (daha sonra Konstitusiya) yaşamaq hüququ (maddə 27), sağlam ətraf mühitdə yaşamaq hüququ (maddə 39), sağlamlığın qorunması hüququ (maddə 41) kimi əsas insan hüquqları öz əksini tapır. Eləcə də Konstitusiyanın 148-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Əhəmiyyətlidir ki, Konstitusiyaya əsasən, Azərbaycan Respublikasının daxili qanunvericiliyi ilə (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) onun tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yarandıqda, həmin beynəlxalq müqavilələr tətbiq olunur. [6] Beləliklə, Konstitusiya ÜST-nin Çərçivə Konvensiyasını Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olaraq qəbul edir və Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla daxili qanunvericiliklə Çərçivə Konvensiyası arasında ziddiyyət yarandıqda Çərçivə Konvensiyasının tətbiq olunacağını təsbit edir. Eləcə də "Tütün və tütün məlumatı haqqında" Azərbaycan Respublikasının Qanununda[7] (daha sonra, "Tütün və tütün məmulatı haqqında" Qanun) göstərilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə tütün və tütün məmulatına dair münasibətlərin tənzimlənməsi və keyfiyyətinin idarə edilməsi

[3] "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu, №989-İİQ, 20 sentyabr 2005-ci il. Qanun 16 oktyabr 2005-ci il tarixində "Azərbaycan" qəzetində dərc edilmişdir.

[4] "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu 1 dekabr 2017-ci ildə qəbul edilmişdir, № 887-VQ.
"Azərbaycan" qəzetində dərc edilmişdir.

[5] Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995.

[6] Maddə 151, Konstitusiya.

[7] "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu 8 iyun 2001-ci ildə qəbul edilmişdir, №138-IIQ.

barədə müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.[8]

Tədqiqat işində Çərçivə Konvensiyasının Tərəflərdən daxili qanunvericilikdə konkret müddəaları əks etdirməsini tələb edən maddələrinə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin uyğun (tam və ya qismən) gəlib-gəlməməsi Rəhbər Prinsiplər (eləcə də onların layihələri[9]) də nəzərə alınmaqla müəyyənləşdirilir və izah olunur. Yəni təhlil Çərçivə Konvensiyasının bilavasitə qanunvericilikdə təsbit edilməli olan öhdəliklər müəyyən edən maddələri əsasında aparılır. Həmin maddələr aşağıdakı mövzuları əhatə edir:

- Tütünə tələbatın azaldılması üçün qiymət və vergi tədbirləri (maddə 6)
- Tütünə tələbatın azaldılması üçün qeyri-qiymət tədbirləri (maddə 7)
  - Tütün tüstüsünün təsirindən qorunma (maddə 8)
  - Tütün məmulatının tərkibinin nizamlanması (maddə 9)
  - Tütün məmulatının tərkibinin açıqlanması işinin nizamlanması (maddə 10)
  - Tütün məmulatının qablaşdırılması və markalanması (maddə 11)
  - Maarifləndirmə, informasiyanın ötürülməsi, əhalinin hazırlanması və məlumatlandırılması (maddə 12)
  - Tütün məmulatının reklamı, satışının stimullaşdırılması və sponsorluğu (maddə 13)
- Tütün məmulatının qeyri-qanuni ticarəti (maddə 15)
- Yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış (maddə 16)
- Məsuliyyət (maddə 19)

Eləcə də Çərçivə Konvensiyasının tütünə qarşı mübarizə sahəsində dövlətlər üçün ümumi öhdəliklər müəyyənləşdirən, konkret proqramların, planların və strategiyaların qəbul edilməsini nəzərdə tutan aşağıdakı maddələri də nəzərdən keçirilir:

- Ümumi öhdəliklər (maddə 5)
- Tütündən asılılıq və tütündən istifadənin dayandırılması ilə bağlı tələbatın azaldılması tədbirləri (maddə 14)
- İqtisadi cəhətdən həyat qabiliyyətli fəaliyyətin alternativ növlərinin dəstəklənməsi (maddə 17)
- Ətraf mühitin və insan sağlamlığının qorunması (maddə 18)
- Elmi tədqiqatlar, epidemioloji nəzarət və məlumat mübadiləsi (maddə 20)
- Hesabat verilməsi və məlumat mübadiləsi (maddə 21)
- Elmi-texniki və hüquqi sahələrdə əməkdaşlıq və müvafiq təcrübənin təqdim edilməsi (maddə 22)

---

[8] Maddə 2.2, "Tütün və tütün məmulatı haqqında" Qanun.
[9] ÜST tərəfindən Çərçivə Konvensiyasının bəzi maddələrinə dair Rəhbər Prinsiplərin layihələri hazır olsa da, hələ qəbul olunmamışdır.

Qeyd edək ki, Çərçivə Konvensiyasının bütün maddələri bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və bir-birini tamamlayır. Maddələrdən birinin həyata keçirilməsi öz növbəsində digərinin də tətbiqi üçün şərait yaradır, eləcə də bir maddənin düzgün həyata keçirilməməsi digərlərinin də tətbiqini əngəlləyir.

Təqdim olunan tədqiqat işi Çərçivə Konvensiyasının hüquqi öhdəliklərlə bağlı əhatə etdiyi mövzuları əks etdirən 7 bölmədən ibarətdir. Bəzi bölmələrin mövzusu çox geniş və hərtərəfli olduğu üçün altbölmələrə bölünmüşdür. Hər bölmənin və altbölmənin əvvəlində Konvensiyanın həmin mövzuya dair maddəsi və Azərbaycan Respublikasının müvafiq qanunvericilik sənədinin konkret maddəsi və ya maddələri təqdim olunur. Daxili qanunvericilikdən olan hər maddənin yanında onun Konvensiyanın müvafiq maddəsinə uyğun gəlib-gəlməməsi *(uyğun gəlir; qismən uyğun gəlir; uyğun gəlmir)* göstərilir və şərh hissədə müqayisəli təhlil əsasında bu qənaətin izahı verilir. Hər bölmənin və altbölmənin sonunda Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin Çərçivə Konvensiyasının tələblərinə tam uyğunluğunun təmin edilməsi üçün konkret tövsiyələr təqdim olunur. Tədqiqat işi aparılarkən Azərbaycan Respublikasının tütün və tütün məmulatı üzrə məsələlərin tənzimlənməsini həyata keçirən bütün müvafiq qanunvericiliyi (Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu, "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu və s.) nəzərə alınmışdır.[10]

## 1. Tütünə tələbatın azaldılması ilə bağlı qiymət tədbirləri

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyasının tütünə tələbatın azaldılması istiqamətində əsas müddəaları 6-14-cü maddələrdə öz əksini tapmışdır. Çərçivə Konvensiyası bu istiqamətdə tədbirləri qiymət və vergi tədbirləri və qeyri-qiymət tədbirləri olaraq fərqləndirir. Qiymət və vergi tədbirləri dedikdə tütün məmulatlarının vergitutma dərəcələrinin və qiymətinin artırılması vasitəsi ilə ondan istifadənin azaldılması nəzərdə tutulur. Qeyri-qiymət tədbirləri dedikdə isə tütün məmulatlarından istifadənin azaldılmasına tütün məmulatının xüsusi tələblərə uyğun şəkildə qablaşdırılması və markalanması, onun reklamının qadağan olunması və s. kimi vasitələrlə nail olunması nəzərdə tutulur.

[10] Bax aşağıda: İstifadə olunmuş sənədlərin siyahısı.

## 1.1. Qiymət və vergi tədbirləri

***Çərçivə Konvensiyası***
***Maddə 6. Tütünə tələbatın azaldılması üçün qiymət və vergi tədbirləri***

*1. Tərəflər təsdiq edirlər ki, qiymət və vergi tədbirləri əhalinin müxtəlif qrupları, xüsusən də gənclər tərəfindən tütünün istifadəsinin azaldılması yolunda effektiv və mühüm vasitədir.*

*2. Tərəflərin vergitutma siyasətini müəyyənləşdirmək və təyin etmək sahəsində suveren hüququna xələl gətirmədən Tərəflərdən hər biri tütünə qarşı mübarizə ilə bağlı özünün milli səhiyyə məqsədlərini nəzərə almalı və müvafiq hallarda aşağıdakıları əhatə edə biləcək tədbirləri tətbiq etməli və ya qüvvədə saxlamalıdır:*

*(a) səhiyyə sahəsində tütündən istifadənin azaldılmasına istiqamətlənmiş məqsədlərə nail olunmasına kömək etmək üçün vergi siyasətinin və məqsədəuyğun olduqda, qiymət siyasətinin həyata keçirilməsi; və*

*(b) beynəlxalq səfərlər edən şəxslərə vergidən və rüsumdan azad tütün məmulatı satışının və/və ya onlar tərəfindən gətirilməsinin qadağan olunması və ya məhdudlaşdırılması.*

*3. Tərəflər 21-ci Maddəyə uyğun olaraq Tərəflərin Konfransına təqdim etdikləri dövri məruzələrində tütün məmulatından vergitutma dərəcələri və tütündən istifadə sahəsində tendensiyalar barədə məlumat verirlər.*

***Azərbaycan Respublikasının Vergi Məcəlləsi***
***Maddə 188. Azadolmalar***

*188.1. Aşağıdakılar aksizdən azad edilir:*

*188.1.1. fiziki şəxsin fərdi istehlakı üçün ... 200 ədəd siqaretin idxalı ...* - ***(qismən uyğun gəlir)***

***Maddə 190. Aksizli malların siyahısı və vergi dərəcələri (çıxarış)***

*190.1. Aşağıdakı mallar aksizli mallara aid edilir:*

*- tütün məmulatları;*

*- elektron siqaretlər üçün maye;*

*- istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər;*

*- qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları.*

*190.3. Azərbaycan Respublikasında istehsal olunan ... tütün məmulatlarına, ... istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlərə, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlərə, çeynənilən və ya buruna çəkilən tütünlərə, qəlyan üçün tütünlərə, habelə qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarına və elektron siqaretlər üçün mayeyə aşağıdakı aksiz dərəcələri tətbiq edilir:...*

*190.3.7. siqarilla (nazik siqarlar) - 1000 ədədinə 43,0 manat;*

*190.3.8. tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri - 1000 ədədinə 35,0 manat;*

*190.3.11. siqarlar, o cümlədən ucları kəsilən siqarlar – hər bir ədədinə 1,0 manat;*

*190.3.12. elektron siqaretlər üçün maye – hər litrinə 100,0 manat;*

*190.3.14. istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər – hər kiloqramına 30,0 manat;*

*190.3.15. qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları – 1000 ədədinə 12,9 manat.*

*190.3-1. Bu Məcəllənin 190.3.1-ci – 190.3.8-ci, 190.3.10-cu, 190.3.12-ci və 190.3.13-cü maddələrində qeyd olunan mallara görə aksizin məbləği aksiz dərəcəsi ilə həmin malların faktiki həcminin (miqdarının) hasilinə tətbiq edilməklə hesablanır.*

***(bu maddə aksiz vergisinin tətbiqi tələbi baxımından qismən uyğun gəlir; vergilərin bütün tütün məmulatları üçün eyni olması tələbi baxımından isə uyğun gəlmir).***

***Maddə 194. Aksizli mallar üzərində vergi nəzarəti (çıxarış)***

*194.1. Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı malların siyahısı, həmin mallara aksiz markalarının tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Aksiz markalarının hazırlanmasına dair sifarişin verilməsi, onların satışı və uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və həmin markaların hazırlanmasına dair sifarişin verilməsi, onların satışı və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir. Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır və qanunvericilikdə müəyyən edilmiş məsuliyyətə səbəb olur -* ***(uyğun gəlir).***

***"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu***

***Maddə14. Tütünün və tütün məmulatının idxalı və ixracı (çıxarış)***

*14.1. Xarici dövlətlərdən Azərbaycan Respublikasına dövlət reyestrində qeydiyyata alınmış, müəyyən edilmiş qaydada verilmiş uyğunluq sertifikatı və ya onun tanınması barədə şəhadətnaməsi olan və bu Qanunla müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən tütün və tütün məmulatı idxal oluna bilər.*

*14.4. Tütünün və tütün məmulatın ixracı Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçirilir.-* ***(uyğun gəlir)***

***Maddə 15. Tütünün və tütün məmulatının ticarəti (çıxarış)***

*15.1. Azərbaycan Respublikasında keyfiyyət göstəriciləri normativ sənədlərin tələblərinə və gigiyenik normativlərə cavab verən, müvafiq sertifikatları olan tütün və tütün məmulatı ticarət dövriyyəsinə daxil edilə bilər.-* ***(uyğun gəlir)***

***Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Qanunu***

***Maddə 9. Tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin təşkili***

*9.1.2. tütün məmulatlarına tələbatın azaldılmasına yönəlmiş qiymət, vergi və (və ya) rüsum tədbirləri. -* ***(uyğun gəlir)***

***"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu***

***Maddə 15-10. İcbari tibbi sığorta üzrə sığorta haqları (çıxarış)***

*15-10.1.7. vergi ödəyiciləri tərəfindən ... siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsinin 1,5 manatı .... -* ***(uyğun gəlir)***

**Şərh:**

Çərçivə Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində tütünə tələbatın azaldılması istiqamətində qiymət və vergi tədbirlərinin vacib və səmərəli vasitə olması xüsusi vurğulanır. Həmin maddənin 2-ci bəndində vergitutma siyasətinin müəyyənləşdirilməsi və təyin olunması istiqamətində hər bir dövlətin suveren hüquqa malik olması qeyd olunur. Çərçivə Konvensiyası Tərəflərin üzərinə onların suveren hüququna xələl gətirmədən vergitutma siyasətini müəyyənləşdirərkən tütünlə mübarizə məqsədlərini nəzərə almaq öhdəlik qoyur. Çərçivə Konvensiyasının 6-cı maddəsi və 6-cı maddənin həyata keçirilməsinin Rəhbər Prinsipləri[11] həmin öhdəliyi reallaşdıra bilmək üçün dövlətlərin aşağıdakı bir sıra tədbirləri həyata keçirməli olmasını müəyyənləşdirir:

- Müvafiq vergi və qiymət siyasətinin həyata keçirilməsi;
- Vergilərin bütün tütün məmulatları üçün eyni olması;
- Tütün məhsullarının istehsalı üçün lisenziya verilməsi;
- Tütün məmulatlarının fiskal markalanması;
- Vergidən və rüsumdan azad tütün məmulatı satışının və onun ölkəyə gətirilməsinin qadağan olunması və ya məhdudlaşdırılması.

*Müvafiq vergi və qiymət siyasətinin həyata keçirilməsi*

Tütün məmulatlarının qiymətinin bahalaşdırılması dövlət tərəfindən tütündən istifadənin azaldılmasına təsir göstərə biləcək ən səmərəli müdaxilədir. Öz növbəsində vergi tütün məmulatlarının qiymətinə təsir etmək baxımından dövlətin əlində olan ən güclü vasitədir. Yüksək tütün vergiləri gənc və yeniyetmələri tütündən uzaq tutmağa imkan verir, eləcə də əhalinin az təminatlı təbəqəsinin tütündən istifadəsini azaldır. Çərçivə Konvensiyasının 6-cı maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsipləri tütün məmulatlarına aksiz vergisinin[12]

[11] Guidelines for implementation of Article 6 of the WHO FCTC. FCTC/COP/6/7, 27 March 2014.

[12] Aksiz dolayı vergi olub, aksizli malların satış qiymətinə daxil edilir. Çoxmərhələli ƏDV-dən fərqli olaraq, aksiz aksizli malın istehsalçısı və ya aksizli malı respublikaya idxal edən şəxs tərəfindən büdcəyə bir dəfə ödənilir və faktiki olaraq aksiz istehlakçısının üzərinə düşür. Daha ətraflı bax: Vəliyev D.Ə., Balakişiyeva Y.N., Rəbibəyli İ.R., İmanov E.E., Qarabalov E.M. Vergi Hüququ. Bakı, 2003, səh. 285.

tətbiq olunmasını dəstəkləyir və aksiz vergisini tütün məmulatlarının satış qiymətlərinin artmasına təsir edəcək ən əsas vasitə olaraq göstərir. Həqiqətən də aksiz vergisi dövlətin öz ərazisində tütün məmulatlarının satış qiymətinin yüksəldilməsinə təsir edə bilmək üçün sahib olduğu ən səmərəli üsuldur. Rəhbər Prinsiplərdə də qeyd olunduğu kimi tətbiq oluna biləcək digər vergilər tütün məmulatlarının satış qiymətinin artmasına təsir etsə də, məsələn, gəlir üzərində qoyulan vergi tütündən başqa digər mallara və xidmətlərə də tətbiq olunduğuna görə, onların satış qiyməti ilə müqayisədə tütün məmulatının satış qiymətinə heç bir təsir göstərmir. Bu baxımdan aksiz vergisi tütün məmulatlarına tətbiq olunacaq ən yararlı vergi növü hesab olunur ki, aksiz vergisi spesifik olaraq tütün məmulatlarına qarşı yönəldilərək tütün məmulatlarının satış qiymətinin nəzərə çarpacaq dərəcədə artmasına təsir göstərir.

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara aksizlərin tətbiqi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə[13] (daha sonra Gömrük Məcəlləsi) və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə[14] (daha sonra Vergi Məcəlləsi) uyğun həyata keçirilir. Öz növbəsində tütündən tutulan vergi dövlət büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir.[15] Azərbaycan Respublikasında gömrük orqanları tərəfindən alınan gömrük rüsumlarından, əlavə dəyər vergisindən və aksizlərdən əldə edilən vəsait dövlət büdcəsinə köçürülür.[16]

Vergi Məcəlləsinə əsasən aksiz – aksizli malların satış qiymətinə daxil edilən vergidir.[17] Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan vergi tutulur.[18] Vergi Məcəlləsinin 190.1-ci maddəsi tütün məmulatlarını aksizli mallar siyahısına daxil edir.[19]
Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 10 yanvar 2015-ci il tarixində qüvvəyə minənə qədər Azərbaycan Respublikasında istehsal olunan bütün növ tütün məmulatlarına tətbiq edilən aksiz dərəcəsi 12,5 faiz idi. 23 fevral 2021-ci il tarixdə təsdiq edilmiş əlavə və dəyişikliklərlə[20] əsasən müxtəlif növ tütün məmulatlarına fərqli aksiz dərəcələri tətbiq edilir. ÜST-nin Azərbaycan üzrə 2020-ci il hesablamalarına görə aksiz dərəcələri siqaretlər üçün 34.4%, siqarlar üçün 4.1%, qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları üçün 22.3%, elektron siqaretlərin mayesi üçün 1.1-6.7% təşkil edir. Qeyd edək ki, ÜST-nin Tütündən Vergitutma haqqında Texniki Bələdçisi tütün məmulatları üzərində aksiz vergisinin tütün

---

[13] Azərbaycan Respublikasında Gömrük Məcəlləsinin təsdiq olunması haqqında Azərbaycan Respublikasının Qanunu. № 164-IVQ, 24 iyun 2011-ci il.
[14] 11 iyul 2000-ci il tarixli 905-IQ nömrəli "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.
[15] Guidelines for implementation of Article 6 of the WHO FCTC. FCTC/COP/6/7, 27 March 2014, page 2.
[16] Maddə 333, Gömrük Məcəlləsi.
[17] Maddə 182.1, Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
[18] Maddə 182.2, yenə orada.
[19] Maddə 190.1, yenə orada.
[20] Maddə 190.3, Vergi Məcəlləsi.

məmulatlarının pərakəndə qiymətinin ən azı 70 faizi qədər olmasını tövsiyə edir.[21] Vergi Məcəlləsində daha əvvəl nəzərdə tutulan 12,5 faiz aksiz dərəcəsi ilə müqayisədə yeni tətbiq olunan dərəcələr tütün məmulatlarının qiymətinin daha da artmasına təsir etsə də yeni aksiz dərəcələri də Texniki Bələdçinin tövsiyəsini tam əks etdirmir. Bu baxımdan hesab edirik ki, Azərbaycan Respublikasının tütün məmulatlarına aksiz vergisinin tətbiq edilməsinə dair müddəaları Çərçivə Konvensiyasının tələblərinə *qismən uyğun gəlir* ***(Eləcə də aşağıda bax:*** *"Vergilərin bütün tütün məmulatları üçün eyni olması").*

Nazirlər Kabinetinin 5 aprel 2021-ci il tarixli 87 nömrəli Qərarı ilə Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələrinə dəyişikliklər edilənədək siqarlar, ucları kəsilən siqarlar, siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri üçün 1000 ədədə (50 qutu) 1,8 ABŞ dolları aksiz dərəcəsi müəyyən edilmişdir. Burada əsas məqsəd aksizli malın gömrük dəyərindən asılı olmayaraq malın miqdarına müvafiq olaraq vergiyə cəlb olunmasıdır. Dəyişikliklər qüvvəyə mindikdən sonra tərkibində tütün və tütün əvəzləyicisi olan siqarlar, o cümlədən ucları kəsilmiş siqarların 1 ədədi üçün 1 manat, tərkibində tütün və tütün əvəzləyicisi olan siqaretlər və siqarillaların 1000 ədədi üçün 43 manat, eləcə də yenilik olaraq elektron siqaretlər üçün mayenin 1 litri üçün 100 manat, qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarının 1000 ədədi üçün 12,9 manat aksiz dərəcəsi müəyyən edilmişdir. Hesab edirik ki, Çərçivə Konvensiyası və Texniki Bələdçinin tövsiyəsinə uyğunluğun tam təmin edilməsi üçün bu aksiz dərəcələrinin daha da artırılması məqsədəmüvafiqdir. ***(Eləcə də aşağıda bax:*** *"Vergilərin bütün tütün məmulatları üçün eyni olması").*

Onu da qeyd edək ki, hazırda istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlərin idxal rüsumu 1 kq üçün 30 manatdır, tütün xammalı və tütün tullantıları üçün isə rüsum gömrük dəyərinin 15%-ni təşkil edir.[22] Vergi tutulan əməliyyat vaxtı - Azərbaycan Respublikası ərazisində istehsal olunan mallar üçün malların istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt, malların idxalı üçün isə aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt hesab olunur.[23] Azərbaycan Respublikasında aksizli mallar idxal edildikdə aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.[24]

*Vergilərin bütün tütün məmulatları üçün eyni olması*

---

[21] WHO Technical Manual on Tobacco Tax Administration. WHO, 2010, P. 53. http://whqlibdoc.who.int/publications/2010/9789241563994_eng.pdf?ua=1

[22] "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin 5 aprel 2021-ci il tarixli 87 nömrəli Qərarı.

[23] Maddə 186, Vergi Məcəlləsi.

[24] Maddə 191.3, Vergi Məcəlləsi.

Çərçivə Konvensiyasının 6-cı maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsipləri vergilərin bütün tütün məmulatları üçün eyni olmasını tövsiyə edir. Qeyd etmək maraqlıdır ki, Tütün məmulatlarının aksiz dərəcələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 iyun 1998-ci il tarixli qərarı ilə müxtəlif tütün məmulatları üçün fərqli aksiz dərəcələrinin tətbiq olunmasını aradan qaldırılmışdır. Növbəti illərdə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində baş vermiş əlavə və dəyişikliklərlə əsasən Azərbaycan Respublikasında istehsal olunan və ölkə ərazisinə gətirilən tütün məmulatlarına tətbiq edilən aksiz vergi dərəcələri artırımış, eləcə də yeni növ tütün məhsullarına aksiz vergiləri tətbiq edilmişdir. Fərqli aksiz dərəcələrinin nəzərdə tutulması Çərçivə Konvensiyasının tələblərinə uyğun gəlmir. Siqaretlərin dərəcələrinə görə fərqli aksiz tətbiq olunması aşağı keyfiyyətli siqaretlərin daha ucuz olmasına və bununla da həssas qruplar üçün onların daha əlçatan olmasına şərait yaradır. Rəhbər Prinsiplərin layihəsinə əsasən vergi sistemləri elə qurulmalıdır ki, tütün məmulatlarından istifadə edənlərin qiymətdən asılı olaraq eyni kateqoriyadan daha ucuz məmulatlardan istifadəyə keçməsini stimullaşdırmağı minimuma endirsinlər.[25] Məhz bu baxımdan Vergi Məcəlləsinin 190.3-cü maddənin, eləcə də Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri (Qrup 24. Tütün və tütünün sənaye əvəzediciləri) barədə Nazirlər Kabinetinin Qərarının müvafiq bəndləri Çərçivə Konvensiyasının vergilərin bütün tütün məmulatları üçün eyni olması tələbinə ***uyğun gəlmir***.

*Tütün məhsullarının istehsalı üçün lisenziya verilməsi*

Çərçivə Konvensiyasının 6-cı maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərinin layihəsində tütünə vergi tətbiqinin səmərəli həyata keçirilməsi və tütün məmulatlarının qanunsuz satışının aradan qaldırılması üçün lisenziya verilməsi sisteminin tətbiqinin əhəmiyyəti qeyd olunur.[26] “Tütün və tütün məmulatı haqqında” Qanunun yuxarıda qeyd olunmuş 14 və 15-ci maddələri, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 22 mart tarixli 24 nömrəli qərarı ilə təsdiq olunmuş Azərbaycan Respublikası ərazisində bütün növ etil (yeyinti) spirtinin istehsalı, saxlanması, alkoqollu içkilərin və tütün məmulatının istehsalı üçün lisenziya verilməsi Qaydaları bu tələbə ***uyğun gəlir.***

*Tütün məmulatlarının fiskal markalanması*

Çərçivə Konvensiyasının 6-cı maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərində tütün məmulatlarının fiskal markalanması vergi qanunlarının təmin olunmasının möhkəmləndirilməsinin və tütün məmulatlarının qanunsuz ticarətinə nəzarətin həyata keçirilməsinin uyğun vasitəsi kimi qeyd olunur. Azərbaycan Respublikasında tütün məmulatlarını markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər istisna olmaqla) və ya

---

[25] Guidelines for implementation of Article 6 of the WHO FCTC. FCTC/COP/6/7, 27 March 2014, page 1.

[26] Səh. 12, yenə orada.

satmaq qadağandır və qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.[27] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2001-ci il tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydalarına (daha sonra Aksiz markalarının tətbiqi Qaydaları) əsasən tütün məmulatları aksiz markaları ilə markalanmalıdır.[28] Aksiz markalarının üzərində Azərbaycan Respublikasının simvolları, seriya, sıra nömrəsi, təyinatı ("daxili istehsal", "idxal" və yaxud "müsadirə") və növü ("tütün məmulatı") göstərilməlidir.[29] Eyni seriyaya malik olan aksiz markalarının sıra nömrələri təkrarlanmamalı, "daxili istehsal", "idxal" və "müsadirə" üçün nəzərdə tutulmuş aksiz markalarının rəngləri bir-birindən fərqlənməlidir.[30] Tütün məmulatlarına - "tütün məmulatı" aksiz markası tətbiq olunur.[31] Aksiz markaları markalanmalı malların şəffaf selofan örtüyünün (istehsalda nəzərdə tutulubsa) altında (müvafiq dövlət orqanları tərəfindən müsadirə olunmuş markalanmalı mallar istisna olmaqla) yapışdırılır. Məhsul istifadə üçün açıldıqda, həmin markalar təkrar istifadə üçün yararsız hala düşməlidir.[32] Tütün məmulatının qutusu bərk olduqda, aksiz markası onun arxa tərəfinə yapışdırılmalı və qapağın bir hissəsini yan tərəfindən əhatə etməlidir. Tütün məmulatının qutusu yumşaq olduqda, aksiz markası onun üst tərəfinin mərkəz hissəsinə və hər iki tərəfin hissələrinə yapışdırılmalıdır.[33] Tütünün və tütün məmulatının satışı tütün məmulatı aksiz markası ilə markalanmadıqda qadağan olunur.[34] Eləcə də, tütün məmulatı aksiz markası ilə markalanmadıqda onun hüquqi və fiziki şəxslər tərəfindən idxalına yol verilmir.[35] Aksiz markalarını digər şəxslərə ötürən, qanunsuz əldə edən və onları istifadə edən, saxtalaşdıran, saxta aksiz markalarını istifadə edən və bu Qaydalara riayət etməyən şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.[36] İdxalçılara aksiz markaları, onların fəaliyyət göstərdikləri ərazilərdə yerləşən gömrük orqanları tərəfindən satılır[37]. Hesab edirik ki, Azərbaycan Respublikasının qanunvericiliyi tütün məmulatlarının markalanması ilə bağlı Çərçivə Konvensiyasının tələblərinə ***uyğun gəlir.***

*Vergidən və rüsumdan azad tütün məmulatı satışının və onun ölkəyə gətirilməsinin qadağan olunması və ya məhdudlaşdırılması*

Çərçivə Konvensiyasının 8.2-ci maddəsinin (b) bəndi dövlətlərin üzərinə beynəlxalq səfərlər edən şəxslərə vergidən və rüsumdan azad tütün məmulatı satışını qadağan etmək və ya

---

[27] Maddə 194.1, Vergi Məcəlləsi.
[28] Bənd 2.1.4, Aksiz markalarının tətbiqi Qaydaları.
[29] Bənd 3.1, yenə orada.
[30] Bənd 3.2, yenə orada.
[31] Bənd 4.2.4, yenə orada.
[32] Bənd 4.7, yenə orada.
[33] Bənd 4.10, yenə orada.
[34] Maddə 15.3.2, "Tütün və tütün məmulatı haqqında" Qanun.
[35] Maddə 14.3, yenə orada.
[36] Bənd 5.2, Aksiz markalarının tətbiqi Qaydaları.
[37] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 22 mart tarixli, 24 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası ərazisinə idxal olunan alkoqollu içkilərə, etil (yeyinti) spirtinə və tütün məmulatına aksiz markalarının tətbiq olunması Qaydaları.

məhdudlaşdırmaq öhdəliyi qoyur. Bu müddəa aeroportlarda rüsumsuz *(duty free)* dükanlarda tütün məmulatlarının bir qayda olaraq vergidən və rüsumdan azad satılmasının qarşısını almağa xidmət edir. Bu müddəa Azərbaycan Respublikasının qanunvericiliyində öz əksini tapmamışdır, yəni mövcud qanunvericilik bu tələbi əks etdirməyərək Çərçivə Konvensiyasına ***uyğun gəlmir***.

Eyni zamanda 8.2-ci maddənin (b) bəndi dövlətlərin üzərinə beynəlxalq səfərlər edən şəxslər tərəfindən vergidən və rüsumdan azad tütün məmulatlarının gətirilməsini qadağan etmək və ya məhdudlaşdırmaq öhdəliyi qoyur. Vergi Məcəlləsində 23 fevral 2021-ci il tarixli dəyişikliklərə əsasən Azərbaycan Respublikasında fiziki şəxsin fərdi istehlakı üçün 200 ədəd (10 qutu) siqaretin idxalı aksizdən azaddır (əvvəllər 600 ədəd idi).[38] Vergi Məcəlləsinin bu müddəası Çərçivə Konvensiyanın tələblərini tam əks etdirmək üçün ya beynəlxalq səfərlər edən şəxslər tərəfindən vergidən və rüsumdan azad tütün məmulatlarının gətirilməsini tamamilə qadağan etməli, ya da fərdi istehlak üçün aksizdən azad siqaretin idxalının həcminin azaldaraq məhdudlaşdırmanı daha da gücləndirməlidir. Bu baxımdan hesab edirik ki, bu müddəa Çərçivə Konvensiyasının tələblərini tam əks etdirməyərək ona ***qismən uyğun gəlir***.

***Tövsiyələr:***

- *Tütün məmulatları üçün nəzərdə tutulan aksiz dərəcələri daha da artırılmalıdır;*
- *Bütün növ tütün məmulatları üçün eyni aksiz dərəcələri tətbiq olunmalıdır;*
- *Qanunvericilik rüsumsuz dükanlarda (duty free) tütün məmulatlarının vergidən və rüsumdan azad satışını qadağan etməlidir;*
- *Qanunvericilik beynəlxalq səfərlər edən şəxslər tərəfindən vergidən və rüsumdan azad tütün məmulatlarının gətirilməsini qadağan etməli və ya daha da məhdudlaşdırmalıdır.*

## 2. Tütünə tələbatın azaldılması üçün qeyri-qiymət tədbirləri

Çərçivə Konvensiyasının 7-ci maddəsi ümumi şəkildə tütündən istifadənin azaldılması istiqamətində hərtərəfli qeyri-qiymət tədbirlərinin səmərəli və mühüm vasitə olduğunu vurğulayır. Tütünlə mübarizə sahəsində qeyri-qiymət tədbirləri ayrı-ayrılıqda Çərçivə Konvensiyasının 8-13-cü maddələrində öz əksini tapmışdır. 7-ci maddə 8-13-cü maddələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün dövlətlərin zəruri olan qanunverici, icra, inzibati və ya digər tədbirlər həyata keçirdiyini qeyd edir.

[38] Maddə 188.1.1, Vergi Məcəlləsi.

## 2.1. Tütün tüstüsünün təsirindən qorunma

***Çərçivə Konvensiyası***
***Maddə 8. Tütün tüstüsünün təsirindən qorunma***

*1. Tərəflər etiraf edirlər ki, elmi məlumatlar tütün tüstüsünün təsirinin ölüm, xəstəliklər və əlilliyə səbəb olduğunu birmənalı şəkildə təsdiqləyir.*

*2. Tərəflərdən hər biri milli qanunvericiliklə müəyyən edilmiş mövcud milli yurisdiksiya sahələrində binadaxili iş yerlərində, ictimai nəqliyyatda, qapalı ictimai yerlərdə və müvafiq hallarda digər ictimai yerlərdə tütün tüstüsünün təsirindən qorunmanı təmin edən səmərəli qanunverici, icra, inzibati və/və ya digər tədbirlər görür və həyata keçirir, həmçinin bunların digər yurisdiksiya səviyyələrində görülməsinə və həyata keçirilməsinə fəal kömək edir.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***
***Maddə 21. Tütün məmulatının istehlakına dair məhdudiyyətlər***

*21.1. Azərbaycan Respublikasında aşağıda göstərilən yerlərdə siqaret çəkmək qadağandır:*

*21.1.1. tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda;*

*21.1.2. inzibati binalarda fərdi iş otaqları və siqaret çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində;*

*21.1.3. yüksək kateqoriyalı restoranlar, kafelər, barlar istisna olmaqla, ticarət, ictimai-iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə;*

*21.1.4. uzaq mənzilli sərnişin nəqliyyatında xüsusi ayrılmış yerlər istisna olmaqla, bütün ictimai nəqliyyat növlərində.*

*21.2. Mehmanxanalarda siqaret çəkənlər üçün xüsusi yerlər ayrılmalıdır.*

*21.3. Müəssisə, idarə, təşkilat rəhbərləri və digər işəgötürənlər iş yerlərində siqaret çəkmək üçün xüsusi yerlər ayrılmasını və görünən yerlərdə "siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər.*

*21.4. Tədris müəssisələri müvafiq icra hakimiyyəti orqanının razılığı ilə tədris proqramlarına tütün məmulatının istehlakının sağlamlığa zərərli təsiri barədə mövzular daxil etməlidirlər.* - **(qismən uyğun gəlir).**

***"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 3. Tütündən istifadənin nəticələrindən qorunmanın əsas prinsipləri***

*3.0. Tütündən istifadənin nəticələrindən qorunmanın əsas prinsipləri aşağıdakılardır:*

*3.0.1. vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin nəticələrindən qorunması sahəsində hüquqlarına riayət edilməsi;*

*3.0.2. ətraf mühitdəki tütün tüstüsünün təsiri və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin, əlilliyin, vaxtından əvvəl ölüm hallarının qarşısının alınması;*

*3.0.3. tütündən istifadənin nəticələrindən qorunma hüquqlarının təmin edilməsi üçün dövlətin və bələdiyyələrin, fərdi sahibkarların, hüquqi şəxslərin və digər qurumların məsuliyyəti;*

*3.0.4. ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi zamanı sistemli yanaşma, bu tədbirlərin həyata keçirilməsinin fasiləsizliyi və ardıcıllığı;*

*3.0.5. həyat və sağlamlığın qorunmasının tütün istehsalçılarının mənafelərindən üstünlüyü;*

*3.0.6. tütündən istifadənin nəticələrindən qorunma sahəsində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının təmin edilməsi;*

*3.0.7. dövlətin, bələdiyyələrin, vətəndaşların, tütün təşkilatları ilə əlaqədar olmayan fərdi sahibkarların, hüquqi şəxslərin və qanunvericiliyə uyğun olaraq yaradılmış digər qurumların qarşılıqlı fəaliyyəti;*

*3.0.8. ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin aşkarlığı və səmərəliliyinin müstəqil qiymətləndirilməsi;*

*3.0.9. tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin məlumatlandırılması.* - ***(uyğun gəlir).***

***Maddə 6. Tütündən istifadənin nəticələrindən qorunma sahəsində fiziki və hüquqi şəxslərin hüquq və vəzifələri***

*6.1. Tütündən istifadənin nəticələrindən qorunma sahəsində fiziki və hüquqi şəxslər aşağıdakı hüquqlara malikdirlər:*

*6.1.1. tüstüsüz ətraf mühitdə həyat fəaliyyəti üçün əlverişli şərait və sağlamlığın ətraf mühitdəki tütün tüstüsünün təsirindən qorunmasını müvafiq dövlət və bələdiyyə orqanlarından tələb etmək;*

*6.1.2. tütündən istifadənin dayandırılmasına və tütündən asılılığın müalicəsinə yönəlmiş tibbi yardım almaq;*

*6.1.3. dövlət və bələdiyyə orqanlarından, fərdi sahibkarlardan, hüquqi şəxslərdən və digər qurumlardan ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlər haqqında məlumat almaq;*

*6.1.4. ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə ictimai nəzarətdə iştirak etmək;*

*6.1.5. tütündən istifadənin nəticələrindən qorunmanın təmin edilməsi barədə dövlət və bələdiyyə orqanlarına, habelə digər şəxslərə təkliflər təqdim etmək;*

*6.1.6. qanunvericiliyin digər şəxslər tərəfindən pozulması nəticəsində həyat və sağlamlıqlarına, əmlaklarına vurulmuş ziyanın ödənilməsini tələb etmək.*

*6.2. Tütündən istifadənin nəticələrindən qorunma sahəsində vətəndaşların vəzifələri aşağıdakılardır:*

*6.2.1. tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında qanunvericiliyin tələblərinə riayət etmək;*

*6.2.2. uşaqlarda və gənclərdə tütün istifadəsinə mənfi münasibət formalaşmasının, habelə onların tütün istifadəsi prosesinə cəlb edilməsinin yolverilməzliyinin qeydinə qalmaq;*

*6.2.3. başqa şəxslərin tüstüsüz ətraf mühitdə həyat fəaliyyəti üçün əlverişli şərait və sağlamlığın ətraf mühitdəki tütün tüstüsünün təsirindən qorunması hüquqlarının pozulması ilə nəticələnən hərəkətlər etməmək. -* ***(uyğun gəlir).***

***Maddə 10. Tütün çəkilməsinə icazə verilməyən yerlər***

*10.1. Azərbaycan Respublikasında tütündən istifadənin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədi ilə aşağıda göstərilən yerlərdə tütün çəkilməsi qadağandır:*

*10.1.1. təhsil və tərbiyə müəssisələrində, habelə onların ərazilərində;*

*10.1.2. səhiyyə və tibbi-reabilitasiya müəssisələrində, habelə onların ərazilərində;*

*10.1.3. idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi binalarda və obyektlərdə, habelə onların ərazilərində;*

*10.1.4. restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai-iaşə obyektlərində;*

*10.1.5. ticarət obyektlərində;*

*10.1.6. məişət obyektlərində;*

*10.1.7. sosial xidmət müəssisələrində;*

*10.1.8. yerləşdirmə vasitələrində;*

*10.1.9. teatr və kinoteatrlarda, sirk binalarında, sərgi və nümayiş salonlarında, oxu zallarında, kitabxanalarda, muzeylərdə, habelə digər mədəniyyət obyektlərində;*

*10.1.10. uşaq meydançalarında;*

*10.1.11. yerüstü qapalı və yeraltı piyada keçidlərində;*

*10.1.12. müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslarda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində;*

*10.1.13. metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda;*

*10.1.14. hava nəqliyyatı vasitələrində, dəmiryolu qatarlarında, su nəqliyyatı vasitələrində;*

*10.1.15. hava və dəniz (çay) limanlarının inzibati binalarında, dəmir yolu vağzallarında, avtovağzallarda (avtostansiyalarda) və avtobusların dayanacaq məntəqələrində;*

*10.1.16. liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerlərində;*

*10.1.17. taksafonlarda;*

*10.1.18. yanacaqdoldurma məntəqələrində, o cümlədən tezalışan maddələrin saxlandığı bina və müəssisələrdə, habelə bu maddələrin daşındığı nəqliyyat vasitələrində;*

*10.1.19. mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq digər müəssisə, idarə və təşkilatlarda, iş yerlərində.*

*10.2. Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilat rəhbərləri bu Qanunun 10.1-ci maddəsində göstərilən yerlərdə hər kəsin yaxşı görə biləcəyi lövhələrdə "tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər.*

*10.3. Bu Qanunun 10.1.3-cü, 10.1.4-cü, 10.1.5-ci, 10.1.8-ci, 10.1.14-cü (su və dəmiryolu nəqliyyatında), 10.1.15-ci və 10.1.19-cu maddələrində göstərilən yerlərdə tütün çəkmək üçün havalandırma sistemi ilə təmin olunan və ya açıq havada olan xüsusi yerlər təşkil edilə bilər.*

*10.4. Tütün çəkmək üçün xüsusi ayrılmış yerlər sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchiz edilməlidir. -* ***(qismən uyğun gəlir; 10.3-cü bənd uyğun deyil).***

***Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər*** [39]

*2. Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlərə dair tələblər*

*2.1. Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlər (bundan sonra – xüsusi qapalı yerlər) yalnız tütün çəkənlər üçün nəzərdə tutulur (bütün növ qəlyanlar və elektron siqaretlər də bu tələblərin təsir dairəsində tütün məmulatlarına bərabər tutulur) və aşağıdakı tələblərə cavab verməlidir:*

*2.1.1. xüsusi qapalı yerlər bina daxilində insanların ümumi gediş-gəliş yerlərindən, kütləvi toplanma, istirahət və gözləmə sahələrindən kənarda yerləşdirilməlidir;*

*2.1.2. xüsusi qapalı yerlər bütün tütün çəkilməyən yerlərdən tam təcrid edilməli, girişi və çıxışı bir qapıdan ibarət olmalıdır;*

*2.1.3. xüsusi qapalı yerlərin tikintisində və quraşdırılmasında istifadə olunan materiallar yanğınadavamlı, içəridən və bayırdan üst səthləri asan yuyulan və təmizlənən, yuyucu və dezinfeksiyaedici vasitələrin təsirinə davamlı olmalıdır;*

*2.1.4. xüsusi qapalı yerlər özü açılan və bağlanan avtomatik və ya özü bağlanan qapılarla təchiz olunmalıdır;*

*2.1.5. xüsusi qapalı yerlərin daxilində görünən yerlərdə tütün əleyhinə, tütün çəkmənin zərərlərinə dair çap və digər maarifləndirici materiallar yerləşdirilməlidir;*

*2.1.6. xüsusi qapalı yerlərin girişində "Tütün çəkmək üçün xüsusi ayrılmış yer" və "Tütün çəkmək səhhətiniz üçün zərərlidir" və "18 yaşadək şəxslərin girişi qadağandır" yazılarının, yaxud işarələrinin olması təmin edilməlidir;*

---

[39] "Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 aprel 2018-ci il tarixli 127 nömrəli Qərarı.

*2.1.7. xüsusi qapalı yerlərdə təhlükəsizlik tələbləri təmin edilməli və yanğınsöndürmə qurğuları quraşdırılmalıdır;*

*2.1.8. xüsusi qapalı yerlərdə siqaret kötükləri və ya onun hər-hansı bir hissəsi, eləcə də digər tütün məmulatları tullantılarının toplanması məqsədi ilə metaldan hazırlanmış xüsusi külqabılar (tullantı qabları) yerləşdirilməlidir;*

*2.1.9. xüsusi qapalı yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir;*

*2.1.10. tütün məmulatları üçün nəzərdə tutulmuş külqabılar və bu məqsədlə istifadə edilə biləcək digər tullantı qabları mütəmadi olaraq qapalı tutumlara boşaldılaraq, tütünçəkmə qadağan edilən yerlərdən, sahələrdən kənarlaşdırılmaqla, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlərə atılmalıdır.*

*2.2. Xüsusi ayrılmış qapalı yerlər havalandırma sistemi ilə təchiz edilməlidir.*

*2.3. Havalandırma sistemi aşağıdakı tələblərə uyğun olmalıdır:*

*2.3.1. xüsusi qapalı yerlər tütün çəkmək qadağan olunan yerlərə nisbətən mənfi hava təzyiqi altında saxlanılmalıdır. Mənfi hava təzyiqi yaratmaq üçün mexaniki sistem bütün iş saatlarında işləməlidir;*

*2.3.2. xüsusi qapalı yerlərdən mexaniki havalandırma sistemi ilə xaric olan hava tütün çəkilməyən digər sahələrin havalandırma və kondisioner sistemlərinin havası ilə qarışmamalıdır;*

*2.3.3. mexaniki havalandırma sistemi xüsusi qapalı yerin havasının bir saat ərzində azı 10 dəfə dəyişməsini təmin etməlidir;*

*2.3.4. mexaniki sistem vasitəsilə xüsusi qapalı yerlərdən çıxarılan hava binanın girişindən və ya çıxışından, pəncərələrdən, havalandırma sistemlərinə təmiz hava daxil olan yerlərdən, tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı tələblərinə uyğun olaraq damörtüyü səviyyəsinə qədər uzaqlaşdırılmalıdır.*

*3. Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlərə dair tələblər*

*3.1. Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlər (bundan sonra - xüsusi açıq yerlər) yalnız tütün çəkənlər üçün nəzərdə tutulur (bütün növ qəlyanlar və elektron siqaretlər də bu tələblərin təsir dairəsində tütün məmulatlarına bərabər hesab edilir) və aşağıdakı tələblərə cavab verməlidir:*

*3.1.1. xüsusi açıq yerlər binaların giriş və çıxışlarından, ümumi gediş-gəliş yerlərindən kənarda yerləşdirilməlidir;*

*3.1.2. xüsusi açıq yerlərdə "tütün çəkmək üçün xüsusi ayrılmış yer" yazısının olması təmin edilməlidir.*

*3.1.3. xüsusi açıq yerlər ərazisində siqaret kötükləri və ya onun hər-hansı bir hissəsi, eləcə də digər tütün məmulatlarının tullantıları üçün metaldan hazırlanmış xüsusi külqabılar (tullantı qabları) yerləşdirilməlidir;*

*3.1.4. siqaret kötüklərini və ya onun hər-hansı bir hissəsini, eləcə də digər tütün məmulatlarının tullantılarını nəzərdə tutulmuş yerdən kənara atmaq qadağandır;*

*3.1.5. xüsusi açıq yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir.* - ***(qismən uyğun gəlir).***

***"Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması" Qaydaları***

***IX. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları***

*9.8. Taksi minik avtomobilinin salonunda siqaret çəkməyə və pəncərələrin açılmasına yalnız sərnişinin və sürücünün qarşılıqlı razılığı ilə yol verilir.* - ***(qismən uyğun gəlir).***

***X. Sərnişinlərin hüquq və vəzifələri***

*10.3. Sərnişinə aşağıdakılar qadağandır:*

*10.3.16. Sərnişin avtonəqliyyat vasitəsinin salonunda siqaret çəkmək, digər sərnişinlərin geyimlərini və ya sərnişin avtomobil nəqliyyatı vasitəsinin salonunu çirkləndirə bilən paltarda olmaq və ya çirkli əl yükünü aparmaq.* - ***(uyğun gəlir).***

***XII. Sərnişin avtonəqliyyat vasitəsinin işçi heyəti üzvlərinin hüquq və vəzifələri***

*12.2. Səlahiyyətlərinə uyğun olaraq sərnişin avtonəqliyyat vasitəsinin işçi heyəti üzvlərinin vəzifələri aşağıdakılardır:*

*12.2.27-1. Müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkməmək.* - ***(uyğun gəlir).***

**Şərh:**

Çərçivə Konvensiyası elmi araşdırmaların tütün tüstüsünün təsirinin ölüm, müxtəlif xəstəliklər və əlilliyə səbəb olduğunu birmənalı şəkildə sübut etdiyini vurğulayır.[40] Öz növbəsində Çərçivə Konvensiyası Tərəflərdən binadaxili iş yerlərində, ictimai nəqliyyatda, qapalı ictimai yerlərdə və müvafiq hallarda digər ictimai yerlərdə tütün tüstüsünün təsirindən qorunmağı təmin edən tədbirlər həyata keçirməyi tələb edir. "Tütün və tütün məmulatı haqqında" Qanunun yuxarıda qeyd olunmuş 21-ci maddəsi və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun yuxarıda qeyd olunan 10-cu maddəsi bir çox yerlərdə, eləcə də "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması" Qaydalarının 9-cu bəndi istisnalarla taksidə siqaret çəkməyi qadağan etsə də, Çərçivə Konvensiyasının 8-ci maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərində qeyd olunur ki, "100%-lik tüstüsüz mühitin təmin edilməsindən başqa digər yanaşmalar, ventilyasiya, havanın filtrasiyası, siqaret çəkmək üçün xüsusi ayrılmış yerlərdən istifadə edilməsi (ayrıca ventilyasiya sistemləri olan və ya onlarsız) daxil olmaqla, dəfələrlə öz səmərəsizliyini sübut etmişdir və mühəndis qərarlarının tütün tüstüsünün təsirindən qorumadığını göstərən həm elmi, həm də digər inandırıcı faktlar mövcuddur."[41] Odur ki, Rəhbər Prinsipləri də nəzərə alaraq hesab edirik ki, Azərbaycan Respublikasının qanunvericiliyinin Çərçivə Konvensiyasının 8-ci maddəsinə tam uyğunluğunun təmin

---

[40] Maddə 8.1, Çərçivə Konvensiyası.

[41] Guidelines for implementation of Article 8 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP2(7)). Available at http://www.who.int/fctc/cop/art%208%20guidelines_english.pdf?ua=1

edilməsi, 100%-lik tüstüsüz mühit yaradılması üçün bütün qapalı məkanlarda siqaret çəkilməsi qadağan edilməlidir. ÜST-nin Qlobal tütün epidemiyası üzrə 2009-cu ilin hesabatında qeyd olunduğu kimi 100% tüstüsüz mühit insanları ikincili tütün tüstüsünün zərərindən tam qorumanın sübut olunmuş yeganə vasitəsidir.[42]

***Tövsiyələr:***

- *Bütün qapalı məkanlarda tütün istehlakı qadağan edilməlidir;*
- *"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin tələbləri Çərçivə Konvensiyasının 8-ci maddəsinə tam uyğunluğunun təmin edilməsi məqsədiə Milli Məclisdə yenidən baxılması üçün müzakirəyə çıxarılmalıdır.*

## 2.2. Tütün məmulatlarının tərkibi

***Çərçivə Konvensiyası***

***Maddə 9. Tütün məmulatının tərkibinin nizamlanması***

*Tərəflərin Konfransı səlahiyyətli beynəlxalq orqanlarla məsləhətləşmə yolu ilə tütün məmulatı və ondan ayrılan məhsulların tərkibinin sınaqdan keçirilməsinin və ölçülməsinin, eləcə də bu tərkibin və bunlardan ayrılan məhsulların nizamlanmasının rəhbər prinsiplərini təklif edir. Tərəflərdən hər biri səlahiyyətli milli orqanların bəyəndiyi hallarda bu cür sınaq və ölçü, eləcə də nizamlanma üzrə səmərəli qanunverici, icra, inzibati və ya digər tədbirlər görür və həyata keçirir.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***

***Maddə 12. Tütün məmulatında nikotinin, tütün qatranının və karbon monoksidinin yuxarı həddi***

*12.1. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasında istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının tərkibində hər ədəd üçün nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarının yuxarı həddini respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq müəyyən edir və bu normaların azaldılmasını tənzimləyir.*

*12.2. Tütün məmulatı istehsalçıları tərəfindən Azərbaycan Respublikasının ərazisində istehsal edilmiş və dövriyyəyə buraxılmış tütün məmulatının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanına məlumat təqdim edilməlidir.*

*12.3. Tütün məmulatının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş*

[42] WHO Report on the Global Tobacco Epidemic, Implementing smoke-free environments. MPOWER, 2009, p. 26. http://whqlibdoc.who.int/publications/2009/9789241563918_eng_full.pdf

*laboratoriyalarda istehsalçı tərəfindən və ya onun hesabına beynəlxalq metodologiya əsasında təhlil edilir və testləşdirilir.*

*12.4. Tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatın tərtibi və təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.* - ***(uyğun gəlir).***

**Şərh:**

Çərçivə Konvensiyasının 9-cu maddəsi dövlətlərdən tütün məmulatı və ondan ayrılan məhsulların tərkibinin sınaqdan keçirilməsinin və ölçülməsinin, eləcə də bu tərkibin və bunlardan ayrılan məhsulların nizamlanmasını tələb edir. "Tütün və tütün məmulatı haqqında" Qanunun 12-ci maddəsi tütün məmulatında nikotinin, tütün qatranının və karbon monoksidinin yuxarı həddinin beynəlxalq müqavilələrə uyğun şəkildə müəyyənləşdirilməsini və həmin yuxarı həddin azaldılmasını tənzimləyir.

Eləcə də "Tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatın tərtibi və təqdim edilməsi Qaydaları" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 11 aprel 2002-ci il tarixli, 61 nömrəli qərarı ilə təsdiq edilmişdir. Həmin qaydalara əsasən Azərbaycan Respublikasının ərazisində istehsal edilmiş və dövriyyəyə buraxılmış tütün məmulatının hər bir ədədinin tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumat istehsalçı tərəfindən ildə bir dəfə tərtib edilir və dekabr ayının 15-dək Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təqdim edilir. Qaydalara əsasən tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatlarda aşağıdakılar əks etdirilməlidir:

- tütün məmulatını istehsal edən müəssisənin adı və ünvanı;
- tütün məmulatının markası;
- tütün məmulatının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin ayrılıqda miqdarı;
- tütün məmulatının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarını təhlil edən laboratoriyanın adı;
- tütün məmulatının laboratoriya müayinə protokollarının surətləri.

Bu tələb Çərçivə Konvensiyasına ***uyğundur***, yəni dövlət tütün məmulatlarının istehsalında onların tərkibində olan komponentlərin miqdarına nəzarət etməlidir. Odur ki, hesab edirik ki, "Tütün və tütün məmulatı haqqında" Qanunun 12-ci maddəsi Çərçivə Konvensiyasına ***uyğun gəlir.***

***Eləcə də aşağıda bax:*** *"Tütün məmulatlarının tərkibinin açıqlanması"*

## 2.3. Tütün *məmulatının* tərkibinin açıqlanması

***Çərçivə Konvensiyası***

***Maddə 10. Tütün məmulatının tərkibinin açıqlanması işinin nizamlanması***

*Tərəflərdən hər biri öz milli qanunvericiliyinə uyğun olaraq, tütün məmulatı istehsalçıları və idxalçılarından tütün məmulatının tərkibi və bunlardan ayrılan məhsullar barədə hökumət orqanlarına açıqlama verməyi tələb edən səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər görür və həyata keçirir. Bundan başqa, Tərəflərdən hər biri tütün məmulatının və bunlardan ayrıla biləcək məhsulların tərkibində olan zəhərli maddələr barədə ictimaiyyətin məlumatlandırılması üçün səmərəli tədbirlər görür və həyata keçirir.*

***"Tütün və tütün məmulatları haqqında" Qanun***

***Maddə 11. Tütün məmulatının tərkibində olan inqrediyentlərin açıqlanması***

*11.1. Azərbaycan Respublikasında istehsal olunan tütün məmulatının tərkibində istifadə edilən inqrediyentlərin tam siyahısı istehsalçılar tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim edilən hesabatda əks etdirilir. Siyahıda hər növ tütün məmulatı (məhsul markası) üzrə onun adı və tərkibindəki inqrediyentlərin miqdarı azalma qaydasında açıqlanır.*

*11.2. İnqrediyentlərin tam siyahısında hər bir inqrediyentin funksiyası və həddi keçməyən miqdarının səviyyəsi göstərilməlidir.*

*11.3. Siyahıda hər məhsul markasının növünə nadir xüsusiyyətlər verən tamlı maddələr ayrılıqda açıqlanmaya və "təbii" və (və ya) "süni" tamlı maddələr kimi qruplaşdırıla bilər.*

*11.4. Müvafiq icra hakimiyyəti orqanı istehsalçılardan məhsulun tərkibində olan inqrediyentlər barədə məlumatları istehlakçılara təqdim etməyi tələb edə və ya özü çatdıra bilər.*

*11.5. Tütün məmulatının tərkibində olan inqrediyentlər barədə hesabatın forması və təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. -* ***(qismən uyğun gəlir; 11.3-cü bənd uyğun deyil).***

***Maddə 13. Tütün məmulatı qutularının tərtibatı (çıxarış)***

*13.3. İstehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının hər qutusunun üstündə nikotinin və tütün qatranının miqdarı, habelə məhsulun istehsal olunduğu tarix göstərilməlidir. -* ***(tütün məmulatının müvafiq komponentləri barədə informasiyanın göstərilməsi tələbi uyğun olsa da miqdarın göstərilməsi tələbi uyğun deyil).***

**Şərh:**

*Tütün məmulatının müvafiq komponentləri və onlardan ayrılan məhsullar barədə informasiya*

Çərçivə Konvensiyasının 9 və 10-cu maddələrinin həyata keçirilməsinin natamam Rəhbər Prinsiplərində qeyd olunur ki, Tərəflər, məmulatın komponentlərindəki inqrediyentlər daxil

olmaqla (məsələn, filtr, kağız, yapışqan), istehsalçılar və idxalçılar tərəfindən onların hazırladığı hər bir tütün məmulatında istifadə edilən inqrediyentlər və hər tütün məmulatı vahidində bu inqrediyentlərin keyfiyyəti haqqında məlumatın brendlər fəsiləsinin tərkibində olan hər bir brend üzrə hökumət orqanlarına açıqlanmasını təmin etməlidirlər. Natamam Rəhbər Prinsiplərə əsasən dövlətlər tütün məmulatlarında istifadə edilən inqrediyentlərin kateqoriyaları üzrə bölgüdəki maksimal say haqqında və ya yalnız ümumi say barədə məlumatın açıqlanması ilə razılaşmamalıdırlar. Çünki bu tütün məmulatının tərkibinin düzgün təhlilinin aparılmasını məhdudlaşdıra bilər.[43] Bu baxımdan hesab edirik ki, "Tütün və tütün məmulatı haqqında" Qanunun 11.3-cü maddəsində əks olunan "siyahıda hər məhsul markasının növünə nadir xüsusiyyətlər verən tamlı maddələr ayrılıqda açıqlanmaya bilər" müddəası Konvensiyaya ***uyğun gəlmir.***

Çərçivə Konvensiyasının 11.2-ci maddəsinə əsasən tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda milli orqanlar tərəfindən müəyyənləşdirildiyi kimi "tütün məmulatının müvafiq komponentləri və onlardan ayrılan məhsullar barədə informasiya verilməlidir." "Tütün və tütün məmulatı haqqında" Qanunun 13.3-cü maddəsinə əsasən, "istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının hər qutusunun üstündə nikotin və tütün qatranının miqdarı göstərilməlidir". Bu maddə Konvensiyanın müvafiq tələbinə ***uyğun gəlmir.*** Belə ki, 11.2-ci maddə tütün məmulatının müvafiq komponentləri və onlardan ayrılan məhsullar haqqında məlumat verilməsini tələb etsə də onların miqdarının göstərilməsini tövsiyə etmir. Çərçivə Konvensiyasının 11-ci maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərində göstərilir: "Tərəflər tütün məmulatlarının qablaşdırılmasında və markalanmasında tütünün komponentləri və onlardan ayrılan məhsulların kəmiyyət və keyfiyyət məlumatlarında təkid etməməlidirlər, bu bəyanatlar nəzərdə tuta bilər ki, bir ticarət markası digərindən az zərərlidir."[44] Bu müddəa onunla əlaqəlidir ki, heç bir halda istehsal olunmuş tütün məmulatı onun digərindən daha az zərərli olması kimi yanlış təəssürat yaratmasın. Tütün məmulatının qablaşdırılma zamanı üzərində onun komponentlərinin kəmiyyət və keyfiyyət məlumatlarının daxil edilməsi onun digər tütün məmulatları ilə müqayisədə daha az zərərli olması kimi səhv fikir yarada bilər. Amma tütün məmulatları istənilən keyfiyyətdə və kəmiyyətdə zərərlidir və ona görə də onların qablaşdırılması zamanı bu nəzərə alınmalıdır. Göründüyü kimi Çərçivə Konvensiyası tərəflərdən tütün məmulatlarının tərkibində olan komponentlərə nəzarət etməyi tələb edir, amma bu komponentlərin miqdarının tütün məmulatının qablaşdırılmasında və markalanmasında göstərilməsini tövsiyə etmir. Beləliklə, "Tütün və tütün məmulatı haqqında" Qanunun 13.3-cü maddəsində "istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının hər qutusunun

---

43 Partial Guidelines for İmplementation of Articles 9 and 10 of the WHO Framework Convention on Tobacco Control (as adopted by the COP at its fourth session in 2010, with amendments adopted at its fifth session in 2012). http://www.who.int/fctc/guidelines/Guideliness_Articles_9_10_rev_240613.pdf?ua=1

44 Guidelines for implementation of Article 11 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP3(10), p. 6. Available at http://www.who.int/fctc/guidelines/article_11.pdf?ua=1

üstündə nikotin və tütün qatranının miqdarı göstərilməlidir" tələbi Konvensiyanın "tütün məmulatının müvafiq komponentləri barədə informasiya verilməlidir" tələbinə uyğun gəlsə də, komponentlərin miqdarının göstərilməsi tələbi Konvensiyaya ***uyğun deyil.*** Öz növbəsində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 29 aprel 2009-cu il tarixli 047 nömrəli Əmri ilə təsdiq edilmiş AZS 335-2009 "Tütün məmulatları. Qablaşdırma və markalanma" Dövlət Standartının (daha sonra Dövlət Standartı) 5.1.1.8 və 5.1.1.10-cu bəndləri[45] də Konvensiyanın müvafiq tələbinə ***uyğun deyil.***

***Tövsiyələr:***

- *"Tütün və tütün məmulatı haqqında" Qanunun 11.3-cü maddəsi çıxarılmalıdır;*
- *"Tütün və tütün məmulatı haqqında" Qanunun 13.3-cü maddəsindən tütün məmulatının hər qutusunun üstündə nikotin və tütün qatranının **miqdarının** göstərilməsi tələbi çıxarılmalıdır. Müvafiq olaraq Dövlət Standartının 5.1.1.8 və 5.1.1.10-cu bəndləri çıxarılmalıdır.*

## 2.4. Tütün məmulatının qablaşdırılması və markalanması

***Çərçivə Konvensiyası***
***Maddə 11. Tütün məmulatının qablaşdırılması və markalanması***

*1. Hər bir Tərəf bu Konvensiyanın onun üçün qüvvəyə mindiyi andan ötən üç il ərzində öz milli qanunvericiliyinə müvafiq surətdə səmərəli tədbirlər görür və həyata keçirir, ondan ötrü ki:*
*(a) tütün məmulatının qablaşdırılması və markalanması tütün məmulatının satışını nəyin bahasına olursa olsun — yalanla, yanlışlığa gətirib çıxaran yolla, ya da aldatma yolu ilə stimullaşdırmasın, tütün məmulatının xarakterik xüsusiyyətləri, sağlamlığa təsiri, ondan ayrılan məhsulların təhlükəliliyi ilə bağlı yanlış rəy formalaşdıran istənilən termin, təsviretmə, ticarət markası, rəmz və ya hər hansı digər işarə də daxil olmaqla, müəyyən tütün məmulatının digər tütün məmulatından azzərərli olması barədə birbaşa və ya dolayı yanlış təsəvvür yaradılmasın. Bunlar "aşağı qatran faizli", "yüngül", "çox yüngül" və ya "yumşaq" kimi terminləri əhatə edə bilər; və*
*(b) tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda, eləcə də bu qəbil məmulatın istənilən qablaşdırma qutusunun səthində və markalanmış hissəsinin üzərində*

---

[45] "5.1.1. Fərdi istehlak tarasının üzərindəki informasiyada aşağıdakı məlumatlat olmalıdır:
5.1.11.8. Məmulatların miqdarı (ədəd).
5.1.1.10. Çəkilən tütün məmulatlarının tüstüsünün kondensatında olan qatranın, nikotinin və karbon monooksidin miqdarı (1 siqaretə milliqramla) haqqında, fərdi istehlak tarasının yan tərəfindənbirinin səthinin 10% tutan yazı." Eləcə də aşağıda bax: "Xarici qablaşdırma və markalanma" yarımbölümünə.

*tütünün sağlamlıq üçün zərəri, tütündən istifadənin acı nəticələri barədə xəbərdarlıq verilir və digər müvafiq məlumatlar göstərilir. Bu cür xəbərdarlıq və məlumatlar:*
*(i) səlahiyyətli milli orqanlar tərəfindən təsdiq edilir,*
*(ii) vaxtaşırı dəyişdirilir,*
*(iii) iri, aydın, yaxşı görünən və asan oxunan olur,*
*(iv) əsas markalanma səthinin 50%-ni və ya daha çox hissəsini tutur, lakin heç bir halda əsas markalanma səthinin 30%-dən az hissəsini tuta bilməz,*
*(v) bu cür xəbərdarlıq və məlumatlar şəkil və ya piktoqram formasında ola bilər, ya da bunları özündə ehtiva edə bilər.*

*2. Tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda, eləcə də bu qəbil məmulatın istənilən qablaşdırma qutusunun səthində və markalanmış hissəsinin üzərində bu Maddənin 1 (b) bəndində nəzərdə tutulmuş xəbərdarlıqlara əlavə olaraq, milli orqanlar tərəfindən müəyyənləşdirildiyi kimi, tütün məmulatının müvafiq komponentləri və onlardan ayrılan məhsullar barədə informasiya da verilməlidir.*

*3. Tərəflərdən hər biri tələb edir ki, bu Maddənin 1 (b) və 2-ci bəndlərində nəzərdə tutulmuş xəbərdarlıq və digər tekstual informasiya tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda, eləcə də bu qəbil məmulatın istənilən qablaşdırma qutusunun səthində və markalanmış hissəsinin üzərində Tərəfin əsas dilində və ya dillərində öz əksini tapmış olsun.*

*4. Bu Maddənin məqsədləri üçün "xarici qablaşdırma və markalanma" terminini tütün məmulatının pərakəndə satışda istifadə olunan istənilən qablaşdırmasında və markalanmasında tətbiq edilir.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***
***Maddə 13. Tütün məmulatı qutularının tərtibatı***

*13.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatı qutularının tərtibatı beynəlxalq standartların tələblərinə cavab verməlidir. Yazılar Azərbaycan dilində çap edilməlidir.*

*13.2. Tütün məmulatının istehlakının insanların səhhətinə zərəri haqqında xəbərdarlıq yazısının mətni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və siqaret qutusunun yan tərəflərinin birində aydın, seçilən (kontrast), qalın hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmalı, hər hansı nəşr materialı və ya təsvirlə örtülməsinə, gizlədilməsinə, qutunun açılması zamanı zədələnməsinə və ya arası kəsilməsinə yol verilməməlidir.*

*13.3. İstehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının hər qutusunun üstündə nikotinin və tütün qatranının miqdarı, habelə məhsulun istehsal olunduğu tarix göstərilməlidir.*

*13.4. İxrac edilən tütün məmulatı qutularının tərtibatı müqavilə şərtlərinə uyğun olaraq başqa dildə də aparıla bilər.* - ***(qismən uyğun gəlir).***

**Şərh:**

Tütün məmulatının qablaşdırılması və markalanması tütünlə mübarizə sahəsində səmərəli rol oynaya biləcək vasitələrdən biridir. Bu məqsədlə tütün məmulatları elə qablaşdırılmalıdır ki, onlar tütünün sağlamlığa vurduğu zərər barədə məlumatı ehtiva etsin. Çərçivə Konvensiyanın tütün məlumatlarının qablaşdırılması və markalanmasına dair 11-ci maddəsi dövlətlərin tütün məmulatlarının qablaşdırılmasında tütünlə mübarizənin səmərəli təmin olunmasını həyata keçirə bilmələri üçün bir sıra tələblər irəli sürür. Həmin tələblərə əsasən qablaşdırma və markalanmada aşağıdakılar nəzərə alınmalıdır:

- “Xarici qablaşdırma və markalanma” termini tütün məmulatının pərakəndə satışda istifadə olunan istənilən qablaşdırılmasını və markalanmasını əhatə edir;
- Qablaşdırma və markalanmada yanlış təsəvvür yarada biləcək ifadələrdən istifadə olunmamalıdır;
- Son istifadə tarixi göstərilməməlidir;
- Qablaşdırma və markalanmada tütünün sağlamlığa vurduğu zərər barədə xəbərdarlıq öz əksini tapmalıdır. Xəbərdarlıq yazısının mətni ilə də əlaqədar bəzi tələblər irəli sürülür ki, onlar bir qədər aşağıda nəzərdən keçiriləcək.

*“Xarici qablaşdırma və markalanma”*

Konvensiyanın 11.4-cü maddəsinə əsasən “xarici qablaşdırma və markalanma” termini tütün məmulatının pərakəndə satışda istifadə olunan istənilər qablaşdırılmasında və markalanmasında tətbiq olunur. Azərbaycan Respublikasının qanununda bu ifadə “tütün məmulatı qutusu” olaraq qeyd olunur ki, bu tütün məmulatlarının qutudan başqa digər qablaşdırılmasının (məsələn, tütün kisələri, şəffaf bükmə, qələmdan formasında qutu və s.) əhatə olunmasını məhdudlaşdırır. Ancaq Çərçivə Konvensiyasının 11-ci maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərinə əsasən dövlətlər tütün məmulatlarının onların yurisdiksiyasında olan çox müxtəlif növ qablaşdırılmalarının geniş başa düşülməsini təmin etməlidirlər.[46] Əhəmiyyətlidir ki, Dövlət Standartında “tütün məmulatlarının istehlak tarası” terminindən istifadə olunur ki, onun növü olaraq müxtəlif materiallardan hazırlanan müxtəlif konstruksiyalı qablaşdırma (paçka, qutu, boks, blok və s.) göstərilir. Bu termin və onun tərifi Konvensiyanın müvafiq maddəsinə uyğun gəlir. Müvafiq olaraq, “Tütün və tütün məmulatı haqqında” Qanunda “tütün məmulatı qutusu” ifadəsinin Dövlət Standartında istifadə olunan “tütün məmulatının istehlak tarası” ifadəsi və ya “tütün məmulatı qutusu və qablaşdırma qutusu” ifadəsi ilə dəyişdirilməsini tövsiyə edirik.

[46] Yenə orada.

*Yanlış təsəvvür yaradan ifadələrdən istifadə olunmaması*

11-ci maddənin 1-ci bəndinin (a) yarımbəndinə əsasən tütün məmulatlarının qablaşdırılması və markalanması elə tərtib olunmalıdır ki, qutunun üzərində əks olunmuş hər hansı ifadə, təsvir, ticarət markası, obraz və ya digər işarə bir tütün məmulatının digər tütün məmulatından az zərəli olması barədə birbaşa və ya dolayı yanlış təsəvvür yaratmasın. Konvensiya belə yanlış təsəvvür formalaşdıran vasitələr sırasına "aşağı qatran faizli", "çox yüngül" və ya "yumşaq" kimi terminlərin istifadə olunmasını da daxil edir. Qeyd edək ki, Azərbaycan Respublikasında əksər siqaret qutularının üzərində əks olunmuş *"LSS – tütün tüstüsünün iyinin azaldılması Tütün tüstüsünün iyinin azaldılmasına kömək edən yeni texnologiya LSS less smoke smell"* ifadəsi Konvensiyanın 11.1(a)-ci maddəsinin pozulmasıdır və aşkar surətdə həmin ifadədən istifadə edərək müəyyən tütün məmulatlarının digərindən daha az zərərli olması kimi yanlış təəssürat yaradılır. Əhəmiyyətlidir ki, Konvensiyanın müvafiq tələbi Dövlət Standartının 5.1.4.5-ci bəndində öz əksini tapıb: "Çəkilən tütün məmulatlarının markalanması müəyyən tütün məmulatının digərlərindən daha az ziyanlı olduğu haqqında yanlış təsəvvür yaratmamalı, yəni markalanmada "qatranların miqdarı aşağıdır", "yüngül", "çox yüngül" və ya "yumşaq" və s. terminlər olmamalıdır." Amma təəssüf ki, bu tələb praktikada düzgün tətbiq olunmur.

*Son istifadə tarixi göstərilməməlidir*

Öz növbəsində Rəhbər Prinsiplərdə qeyd olunur ki, "tütün məmulatlarından istifadənin istənilən vaxt təhlükəsiz olması nəticəsinə gələrək istehlakçıların aldandığı və ya yalan məlumatlandığı hallarda Tərəflərə tütün məmulatlarının qablaşdırılmasında və markalanmasında yararlılıq müddətinin sona çatma tarixinin göstərilməsinin qarşısını almaq lazımdır."[47] Azərbaycan Respublikasında istehsal olunan siqaret qutularında son istifadə tarixi göstərilməsə də, Azərbaycan Respublikasına idxal olunan siqaret qutularında son istifadə tarixi göstərilir ki, bu qeyd olunan maddəyə ziddir. Rəhbər Prinsiplərdə də izah olunduğu kimi son istifadə tarixinin göstərilməsi istehlakçıda göstərilən son istifadə tarixinə qədər tütündən istifadənin zərərsiz və ya daha az zərərli olacağı kimi yanlış təsəvvür formalaşdırır.[48] Hesab edirik ki, "Tütün və tütün məmulatı haqqında" Qanunun 13.3-cü maddəsində tütün məmulatının hər qutusunun üstündə "məhsulun istehsal olunduğu tarixin göstərilməsi" tələbi çıxarılmalıdır. Fikrimizcə bu müddəa son istifadə tarixinin göstərilməsini şərtləndirir və Çərçivə Konvensiyasının tələblərini tam əks etdirmir**.** Onu da qeyd edək ki, Dövlət Standartının 5.2.1-ci bəndinə əsasən tütün məmulatının hazırlandığı ay və il tütün məmulatları qablaşdırılmış yeşiyin üzərində həkk olunmalıdır. Rəhbər Prinsiplərdə siqaret qutularında deyil, ümumilikdə tütün məmulatlarının qablaşdırılması və markalanmasında son

---

[47] Yenə orada.

[48] Bu tələblə bağlı eləcə də bax: "Tütün məmulatının müvafiq komponentləri və onlardan ayrılan məhsullar barədə informasiya" bölümü.

istifadə tarixinin göstərilməməsinin tövsiyə olunduğunu nəzərə alaraq hesab edirik ki, Dövlət Standartının 5.2.1-ci bəndi də Konvensiyaya ***qismən uyğundur.***

*Tütünün sağlamlığa zərəri barədə xəbərdarlıq*

Konvensiyanın 11-ci maddəsinin 1-ci bəndinin (b) bəndi tütün məmulatının hər bir qutusunun və ümumi qablaşdırma qutusunun üzərində tütündən istifadənin sağlamlığa vurduğu zərəri təsvir edən xəbərdarlıq əks etdirilməlidir, eləcə də buna dair digər məlumatlar da qutunun üzərində göstərilə bilər. Konvensiya həmin xəbərdarlıq və məlumatların qutunun üzərində əks olunması üçün aşağıdakı tələbləri irəli sürür:

- Xəbərdarlıq yazısının mətni səlahiyyətli dövlət orqanın tərəfindən təsdiq olunmalıdır;
- Xəbərdarlıq yazısının mətni vaxtaşırı dəyişdirilərək istifadə olunmalıdır;
- Xəbərdarlıq yazısı qablaşdırmanın əsas görünən hissəsinin 50%-ni və ya daha çox hissəsini tutmalıdır; heç bir halda əsas görünən hissəsinin 30%-dən az hissəsini tutmamalıdır;
- Böyük, aydın, görünən və asan oxunan olmalıdır;
- Xəbərdarlıq yazısında rənglərdən və şəkillərdən istifadə olunması daha yaxşı nəticələr verir;
- Qablaşdırmanın üzərindəki yazılar ərazisində satışa çıxarıldığı dövlətin əsas dilində olmalıdır.

*Xəbərdarlıq yazısının mətni səlahiyyətli dövlət orqanı tərəfindən təsdiq olunmalıdır*

"Tütün və tütün məmulatı haqqında" Qanunun 13.2-ci maddəsinə əsasən "tütün məmulatının istehlakının insanların səhhətinə zərəri haqqında xəbərdarlıq yazısının mətni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir." Bu müddəa Konvensiyanın yuxarıda qeyd olunan tələbini tam əks etdirir. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 2001-ci il tarixli 573 nömrəli Fərmanına əsasən həmin müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyidir.

*Xəbərdarlıq yazısının mətni vaxtaşırı dəyişdirilərək istifadə edilməlidir*

Rəhbər prinsiplər bu tələbin iki növ dəyişdirilməni əhatə etdiyini vurğulayır. Eyni vaxtda sağlamlığa zərər haqqında bir-neçə xəbərdarlıq və məlumatın mövcud olması və hamısından istifadə edə bilmək imkanı; müəyyən vaxt müddətindən sonra xəbərdarlıq və məlumatın məzmununun dəyişdirilməsi. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində bu tələbi əks etdirən müddəa yoxdur.

*Yerləşdirmə*

Çərçivə Konvensiyasının 11-ci maddəsinə əsasən tütünün zərəri haqqında məlumat qutunun əsas görünən hissəsinin 50%-ni və ya daha çox hissəsini tutmalıdır; heç bir halda qutunun

əsas görünən hissəsinin 30%-dən az hissəsini tutmamalıdır. "Tütün və tütün məmulatı haqqında" Qanunun 13.2-ci maddəsinə əsasən "siqaret qutusunun yan tərəflərinin birində aydın, seçilən (kontrast), qalın hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmalı, hər hansı nəşr materialı və ya təsvirlə örtülməsinə, gizlədilməsinə, qutunun açılması zamanı zədələnməsinə və ya arası kəsilməsinə yol verilməməlidir". Eləcə də Dövlət Standartına əsasən istehlak tarasının üzərindəki informasiyada "siqaret çəkməyin ziyanı haqqında, çəkilən tütün məmulatlarının ... istehlak tarasının hər bir böyük trəfinin sahəsinin 30%-ini tutan, "Siqaret çəkmək Sizin sağlamlığınıza ziyan vurur" xəbərdarlıq yazısı" [49] olmalıdır: - Göründüyü kimi bu tələb Çərçivə Konvensiyasına ***uyğundur.*** Bununla belə, xəbərdarlığın qablaşdırmanın üzərində tutduğu yerin artırılmasını, 50% və ya daha çox müəyyən edilməsini daha məqsədəmüvafiq hesab edirik. Eləcə də müvafiq müddəa "Tütün və tütün məmulatı haqqında" Qanunda da öz əksini tapmalıdır.

Konvensiyanın 11-ci maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərdə qeyd olunur ki, müvafiq xəbərdarlıq və məlumatın yerləşdirilməsi və tərtib üsulu "maksimal görünüşü təmin etməlidir." Eləcə də Rəhbər Prinsiplər araşdırmalara əsaslanaraq onu da vurğulayır ki, "belə xəbərdarlıq və məlumatlar qutuların üz və əks tərəfinin alt hissəsindən daha çox üst hissəsində daha görünən olur. Rəhbər Prinsiplər müvafiq xəbərdarlıq və məlumatın dövlətlərdən aşağıdakı şəkildə yerləşdirilməli olmasının tələb olunmasını bildirir:

> "- qablaşdırılmanın əksər növlərinin üz tərəfinin istehlak üçün daha görünüşlü olduğunu nəzərə alaraq, sağlamlıq üçün zərər haqqında xəbərdarlıqların və məlumatların böyük görünüşünü təmin etmək üçün hər bir ayrıca qutu və qablaşdırılmanın yalnız bir tərəfində deyil, üz tərəfində olduğu kimi əks tərəfində də (və ya ikidən çoxdursa, bütün əsas üz tərəflərində);
> - görünüşü artırmaq üçün əsas markalanmış səthin aşağı hissəsindən daha çox əsas markalanmış səthdə, xüsusilə yuxarı səthdə; və
> - beləliklə qablaşdırılmanın adi qaydada açılması zamanı sağlamlığa zərər haqqında xəbərdarlığın mətni və ya təsviri pozulmasın və ya örtülməsin."

Dövlət Standartının 5.1.3.2 və 5.1.2.3-cü bəndlərində göstərilir ki, "Siqaret çəkməyin ziyanı haqqında xəbərdarlıq yazısı fərdi istehlak tarasının böyük tərəflərinin aşağı hissəsində, taranın aşağı qırağına mümkün qədər yaxın yerləşdirilməlidir. Siqaret çəkməyin ziyanı haqqında xəbərdarlığın mətni ağ fonda, qalınlığı 1 mm olan qara rəngli çərçivənin içərisində qalın, qara Helvetika şrifti ilə çap olunmalıdır. Şriftin ölçüsü xəbərdarlıq yazısının müəyyən edilmiş çərçivədə yerləşdirilməsinin mümkünlüyü nəzərə alınmaqla maksimal olmalı, yazı aydın və asan oxunan olmalıdır." Bu müddəa Çərçivə Konvensiyasının tələblərinə ***uyğundur.*** Bununla belə, "Tütün və tütün məmulatı haqqında" Qanunun 13.2-ci maddəsində xəbərdarlığın qutunun

---

[49] Bax: Dövlət Standartı, Bənd 5.1.1.9 və 5.1.2.

“yan tərəflərinin birində” yerləşdirilməsi tələbi Konvensiyaya ***uyğun gəlmir*** və Konvensiyaya tam uyğunluğun təmin olunması üçün həmin ifadə “əsas görünən hissəsində” ifadəsi ilə əvəz olunmalıdır.

*Böyük, aydın, görünən və asan oxunan olmalıdır*
Qanunun 13.2-ci maddəsində xəbərdarlıq və məlumatın “aydın, seçilən (kontrast), qalın hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmalı, hər hansı nəşr materialı və ya təsvirlə örtülməsinə, gizlədilməsinə, qutunun açılması zamanı zədələnməsinə və ya arası kəsilməsinə yol verilməməlidir” müddəası Konvensiyanın bu tələbinə ***uyğun gəlir.***

Qeyd edək ki, Qanunun 13.1-ci maddəsinə əsasən “Azərbaycan Respublikasının ərazisində istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatı qutularının tərtibatı beynəlxalq standartların tələblərinə cavab verməlidir.” Bu maddə Qanunun Konvensiyanın tələblərini tam və ya heç əks etdirməyən müddəalarının Azərbaycan Respublikasında tütün məmulatı qutularının tərtibatı zamanı nəzərə alınmalı olmasının labüd edir.

*Rəng və şəkillər*
Çərçivə Konvensiyasının 11-ci maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərində qeyd olunur ki, ağ-qara təsvirlərdən fərqli olaraq rəngdən istifadə edilməsi sağlamlığa zərər haqqında xəbərdarlıqların və məlumatların illüstrasiya edilmiş elementlərinin ümumi görünüşünə təsir edir. Ona görə də Tərəflərə sağlamlığa zərər haqqında xəbərdarlıqların və məlumatların illüstrasiya edilmiş ağ-qara elementlərinin çapından daha çox tam rəngli (dörd rəngli) olmasını tələb etmək lazımdır. Tərəflər sağlamlığa zərər haqqında xəbərdarlıqların və məlumatların mətn elementlərinin görünüşünü gücləndirmək və oxunuşunu maksimum həddə çatdırmaq üçün fon və mətnin ziddiyyətli rənglərini seçməlidirlər. Bu tələb Azərbaycan Respublikasının qanunvericiliyində öz əksini tapmır.

*Dil*
Konvensiyanın 11.3-cü maddəsi tütünün insan sağlamlığına vurduğu zərər haqqında xəbərdarlıq və digər məlumatlar dövlətin əsas dilində olmasını tələb edir. Azərbaycan Respublikasının Qanununun 13.1-ci maddəsi və Dövlət Standartının 5.1.4.1-ci bəndi bu tələbə ***uyğun gəlir***. Qanuna əsasən Azərbaycan Respublikasının ərazisində istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatı qutularının üzərindəki “yazılar Azərbaycan dilində çap edilməlidir.” Dövlət standartında da istehlak tarasının üzərindəki informasiyanın Azərbaycan Respublikasının dövlət dilində olması tələbi öz əksini tapır.

***Tövsiyələr:***

- *“Tütün və tütün məmulatı haqqında” Qanunun 13-cü maddəsində göstərilən “tütün məmulatı qutusu” ifadəsi “tütün məmulatı qutusu və qablaşdırma qutusu” və ya*

*Dövlət Standartında istifadə olunmuş "tütün məmulatının" istehlak taraşı "ifadəsi ilə əvəz edilməlidir;*

- *"Tütün və tütün məmulatı haqqında" Qanunda tütün məmulatlarının qablaşdırılmasında yanlış təsəvvür yaradan ifadələrdən istifadə edilməsi qadağan edilməlidir;*
- *Dövlət Standartının 5.1.4.5-ci bəndinin praktikada düzgün tətbiq olunması təmin olunmalıdır;*
- *Qanunvericilikdə tütün məmulatı qutusu və qablaşdırma qutusunda son istifadə tarixinin göstərilməsi qadağan olunmalı, eləcə də 13.3-cü maddədə göstərilən məhsulun istehsal olunduğu tarixin göstərilməsi tələbi çıxarılmalıdır;*
- *Qanunvericilik tütün məmulatının qablaşdırılması zamanı istifadə olunan xəbərdarlıq yazısının mətninin vaxtaşırı dəyişdirilərək istifadə edilməsi tələbini əks etdirməlidir;*
- *"Tütün və tütün məmulatı haqqında" Qanunda "xəbərdarlıq yazısının tütün məmulatı qutusunun və ya qablaşdırma qutusunun əsas görünən hissəsinin 50%-ni və ya daha çox hissəsini tutması, heç bir halda qutunun əsas görünən hissəsinin 30%-dən az hissəsini tutmamalıdır" tələbi öz əksini tapmalıdır;*
- *Dövlət Standartında xəbərdarlıq yazısının qablaşdırma qutusunda 30% yerinə 50% və ya daha çox yer tutması ilə əvəz olunması tövsiyə olunur.*
- *Qanunvericilik tütünün sağlamlığa zərəri barədə xəbərdarlığın rəngli və şəkillərlə tərtib olunması tələbini əks etdirməlidir.*

## 2.5. Tütün sənayesinə dair informasiyanın əlçatanlığı və ictimai iştirakçılıq

***Çərçivə Konvensiyası***

***Maddə 12. Maarifləndirmə, informasiyanın ötürülməsi, əhalinin hazırlanması və məlumatlandırılması***

*Hər bir Tərəf müvafiq hallarda bütün mümkün informasiya ötürmə vasitələrindən istifadə etməklə, tütünə qarşı mübarizə məsələləri barədə əhalinin məlumatlandırılması sistemini möhkəmləndirir və dəstəkləyir. Bu məqsədlə Tərəflərdən hər biri aşağıdakı məsələlərdə yardımçı olmağa yönəlmiş səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər görür və həyata keçirir:*

*(a) tütündən istifadənin və tütün tüstüsünün, ona adətkarlıq da daxil olmaqla, sağlamlıq üçün təhlükəsi barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılmasına dair proqramlara geniş yol açılmasına;*

*(b) 14.2-ci Maddədə göstərildiyi kimi, tütündən istifadənin və tütün tüstüsünün sağlamlıq üçün təhlükəli olması, eləcə də tütündən istifadəyə son qoyulmasının, tütünsüz həyat tərzinin üstünlükləri barədə əhalinin məlumatlandırılmasına;*

*(c) tütün sənayesi haqqında bu Konvensiyanın məqsədlərinə aid ən müxtəlif informasiyanın milli qanunvericiliyə uyğun şəkildə əhali üçün əlçatan olmasına;*

*(d) səhiyyə işçiləri, icmalardakı işçilər, sosial sahə əməkdaşları, kütləvi informasiya vasitələrinin peşəkar işçiləri, müəllimlər, qərar qəbul edən şəxslər, rəhbər işçilər və digər müvafiq şəxslər üçün nəzərdə tutulan proqramlara - tütünə qarşı mübarizəyə hazırlıq üzrə səmərəli və lazımi proqramlara və ya məlumatlılığın yüksəldilməsi və maarifləndirmə proqramlarına;*

*(e) tütünə qarşı mübarizə sahəsində sektorlararası proqramların və strategiyaların işlənib hazırlanması və həyata keçirilməsi barədə tütün sənayesi ilə bağlı olmayan dövlət və özəl müəssisələrin və qeyri-hökumət təşkilatlarının məlumatlandırılmasına və onların bu işlərdə iştirakına;*

*(f) tütün istehsalı və tütündən istifadənin insanların sağlamlığına mənfi təsiri, həmçinin bunun mənfi iqtisadi və ekoloji nəticələri ilə bağlı əhalinin məlumatlandırılmasına və bu məlumatların insanlar üçün əlçatan olmasına.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***

***Maddə 11. Tütün məmulatının tərkibində olan inqrediyentlərin açıqlanması (çıxarış)***

*11.4. Müvafiq icra hakimiyyəti orqanı istehsalçılardan məhsulun tərkibində olan inqrediyentlər barədə məlumatları istehlakçılara təqdim etməyi tələb edə və ya özü çatdıra bilər. -* ***(qismən uyğun gəlir).***

***"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu***

***Maddə 7. Tütün və ondan istifadənin nəticələri haqqında məlumat almaq hüququ***

*7.1. Hər kəsin tütün məmulatlarının və onlardan tüstü ilə ayrılan məhsulların komponentləri, tütün çəkilməsinin zərərli təsiri, profilaktikası və məhdudlaşdırılması barədə məlumat almaq hüququ vardır.*

*7.2. Tütün məmulatlarının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatlar istifadəçiyə bildirilməli, tütün məmulatları qutularının üzərində həmin məlumatlar əks etdirilməlidir.*

***Maddə 11. Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması***

*11.1. Tütünə və tütün məmulatına tələbatın azaldılması, tütün istifadəsi ilə əlaqədar xəstəliklərin profilaktikası, sağlamlığa məsuliyyətli və tütündən istifadəyə mənfi münasibətin formalaşdırılması məqsədi ilə tütün məmulatlarının tərkibinin açıqlanmasına, qablaşdırılmasına və markalanmasına dair tələblər müəyyən edilir. Bu tələblərə aşağıdakılar barədə informasiya verilməsi daxildir:*

*11.1.1. tütündən istifadənin dayandırılmasının üstünlükləri haqqında;*

*11.1.2. tütündən istifadənin mənfi tibbi, demoqrafik və sosial-iqtisadi nəticələri haqqında;*

*11.1.3. tütünçülük sənayesi haqqında.*

*11.2. Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsi ailədə, təhsil və tibb müəssisələrində, habelə işəgötürənlər tərəfindən iş yerlərində həyata keçirilir.*

*11.3. Əhalinin maarifləndirilməsinin əsas istiqamətləri və üsulları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu məqsəd üçün xüsusi "qaynar xətlərin" fəaliyyəti təmin edilir.*

*11.4. İnsanların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin məhdudlaşdırılması haqqında qanunvericiliyin pozulması məsələlərinə dair vətəndaşların, o cümlədən fərdi sahibkarların və hüquqi şəxslərin müraciətləri üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən "qaynar xətlər" yaradılması və ya internet informasiya-kommunikasiya şəbəkəsindən istifadə edilməsi nəzərdə tutulur.*

*11.5. Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin məlumatlandırılması dövlət və bələdiyyə orqanları, habelə ictimai birliklər tərəfindən kütləvi informasiya vasitələrində müvafiq kampaniyalar keçirilməsi vasitəsi ilə həyata keçirilir.*

*11.6. Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin məlumatlandırılması zamanı kütləvi informasiya vasitələrində informasiya kampaniyaları keçirilərkən tütün məmulatının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsinə icazə verilir.*

***Maddə 12. Kütləvi informasiya vasitələrində tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə biliklərin təbliği***

*12.1. Kütləvi informasiya vasitələri tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə biliklərin təbliğində iştirak edirlər.*

*12.2. Müvafiq icra hakimiyyəti orqanları kütləvi informasiya vasitələrində tütündən istifadənin zərərli təsirləri barədə davamlı təbliğat işinin aparılması üçün müvafiq tədbirlər həyata keçirirlər.*

*12.3. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən tədris proqramları hazırlanarkən tütündən istifadənin sağlamlığa və ətraf mühitə zərərli təsiri barədə mövzular tədrisin məzmununa daxil edilir.*

*12.4. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün televiziya və radio yayımçıları tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırırlar. Bu verilişlərin*

*45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.*[50] **- (uyğun gəlir).**

***"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 29. İnformasiya sahibinin informasiyanı açıqlamaq vəzifəsi (çıxarış)***

*29.1. İnformasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxnömrəli informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş aşağıdakı informasiyaları açıqlamalıdır:*

*29.1.1. ümumiləşdirilmiş statistik məlumatlar ... ;*

*29.1.7. ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) rəhbər orqanlarında çalışanların adları və soyadları, elektron poçt ünvanları;*

*29.1.12. ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) fəaliyyətinə dair hesabatlar, onların gəlirləri və xərcləri barədə məlumatlar;*

*29.1.14. ətraf mühitin vəziyyətinə, ətraf mühitə ziyan vurulmasına, təhlükəli ekoloji təsirlərə və ətraf mühitə təsirin qiymətləndirilməsinə dair məlumatlar;*

*29.1.24. ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin), həmçinin, normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi və fiziki şəxslərin bu funksiyaların yerinə yetirilməsi ilə bağlı malik olduqları informasiyalar;*

*29.1.25. əmtəə bazarında hökmran mövqe tutan, xüsusi və ya müstəsna hüquqa və yaxud təbii inhisara malik olan hüquqi şəxslər malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə, həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyalar - şərtlərin təklif edilməsinə və ya həmin şərtlərdə və qiymətlərdə dəyişiklik edilməsinə azı 30 gün qalmış; ...* **- (qismən uyğun gəlir).**

***Maddə 37. İnformasiyanın xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edilməsinə qoyulan məhdudiyyətlər (çıxarış)***

*37.1. Bu Qanunun 9.1-ci maddəsində göstərilən informasiya sahibləri aşağıdakı informasiyaları xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edə bilməzlər:*

*37.1.5. ekologiyanın, səhiyyənin, demoqrafiyanın, təhsilin, mədəniyyətin, iqtisadiyyatın, o cümlədən nəqliyyatın və kənd təsərrüfatının, habelə cinayətkarlığın vəziyyəti haqqında;*

*37.1.6. informasiya sahibinin fəaliyyəti haqqında hesabatlar, o cümlədən vəzifələrin yerinə yetirilməsinin keyfiyyəti və buraxılan nöqsanlar barədə;*

*37.1.20. informasiya sahibinin mülkiyyəti və mülkiyyət öhdəlikləri haqqında;*

*37.1.22. istehlakçıların qanuni maraqlarının müdafiəsi ilə bağlı olaraq malların və xidmətlərin keyfiyyəti haqqında;*

[50] Bax: "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu, Maddə 7.1.

*37.1.24. ətraf mühitə, insanların sağlamlığına təsir edən və ya təsir edə biləcək fəaliyyət nəticəsində ətraf mühitin komponentlərində baş verən və ya baş verə biləcək dəyişikliklər, onların qiymətləndirilməsi, ətraf mühitin mühafizəsi və səmərəli istifadəsinə yönəldilmiş tədbirlər və xərclər barədə;* **- (qismən uyğun gəlir).**

***"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 11. Sağlamlığa təsir göstərən amillər haqqında vətəndaşların məlumat almaq hüququ (çıxarış)***

*Vətəndaşların sağlamlığa təsir göstərən amillər haqqında müntəzəm və düzgün məlumat almaq hüququ vardır və bu məlumatlar vətəndaşlara kütləvi informasiya vasitələri ilə, yaxud bilavasitə onların sorğularına əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.*

*İnsanların həyat və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər.* **- (uyğun gəlir).**

**Şərh:**

Çərçivə Konvensiyasının 12-ci maddəsi Tərəflərin üzərinə bütün mümkün ötürmə vasitələrindən istifadə edərək tütünə qarşı mübarizə sahəsində əhalinin məlumatlandırılması sisteminin möhkəmləndirilməsi və dəstəklənməsi öhdəliyi qoyur. Həmin maddənin (c) bəndinə əsasən dövlətlər tütün sənayesi haqqında ən müxtəlif informasiyanın daxili qanunvericiliyə uyğun şəkildə əhali üçün əlçatan olmasını təmin edəcək müvafiq tədbirlər həyata keçirməlidirlər. Təbii ki, bu tədbirlər içərisində qanunvericilik tədbirləri xüsusi yer tutur. Eləcə də həmin maddənin (f) bəndinə əsasən, dövlətlər tütün istehsalı və tütündən istifadənin insanların sağlamlığına mənfi təsiri, bu istifadənin mənfi iqtisadi və ekoloji nəticələri ilə bağlı məlumatların insanlar üçün əlçatan olmasını təmin etməlidirlər.

Çərçivə Konvensiyasının 12-ci maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərində qeyd olunur ki, Tərəflər ictimaiyyət üçün tütün sənayesinin və onun məhsullarının strategiya və fəaliyyəti haqqında dəqiq və düzgün informasiyanın açıq və ümumi əlçatan olmasını təmin etməlidir.[51]

Konstitusiya "hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı"nı təmin edir.[52] Azərbaycan qanunvericiliyi informasiyanı əldə olunma növünə görə iki müxtəlif kateqoriyaya bölür: 1) ümumi istifadə üçün açıq informasiyalar və 2) alınması məhdudlaşdırılan informasiyalar. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa (daha sonra "İnformasiya əldə etmək

---

[51] Guidelines for Implementation of Article 12 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP4(7)), P. 13. Available at http://www.who.int/fctc/guidelines/Decision.pdf

[52] Maddə 50 (I), Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995.

haqqında" Qanun) əsasən əldə olunması məhdudlaşdırılan informasiyalar açıq informasiyalar sayılır. Əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyalar hüquqi rejiminə görə məxfi və gizli (konfidensial) olur[53]. Bundan başqa, informasiya sahibi informasiyanı "xidməti istifadə üçün" nəzərdə tutaraq onun əldə olunmasına məhdudiyyət qoya bilər. Ona görə də şəxs belə informasiyanı əldə etmək istədikdə, informasiya sahibi, informasiyanı verməkdən imtina edərkən istənilən məlumatı məhdudlaşdıran və ya xidməti istifadə üçün nəzərdə tutulan informasiya olaraq təsnif edən qanuna istinad etməli, informasiyanı niyə xidməti istifadə üçün nəzərdə tutulduğunu əsaslandırmalı və bunun nə vaxta qədər davam edəcəyini bildirməlidir[54].

Azərbaycan qanunvericiliyinə əsasən elə informasiyalar vardır ki, informasiya sahibləri həmin informasiyaları əldə edilməsinə dair sorğu olmadan da yaymaq öhdəliyi daşıyırlar. Belə informasiyalar onun sahibi tərəfindən kütləvi-informasiya vasitələri, rəsmi nəşrlər, kitabxanalar, internet səhifələri və digər vasitələrlə ictimaiyyətə çatdırılmalıdır. "İnformasiya əldə etmək haqqında" Qanun belə məlumatların çox geniş siyahısını təqdim edir[55]. Həmin siyahıda tütün sənayesi və onun məhsulları haqqında məlumatlar ayrıca qeyd olunmasa da hesab edirik ki, "ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin fəaliyyətinə dair hesabatlar, onların gəlirləri və xərcləri barədə məlumatlar; ətraf mühitin vəziyyətinə, ətraf mühitə ziyan vurulmasına və təhlükəli ekoloji təsirlərə dair məlumatlar; ictimai funksiyaları yerinə yetirən hüquqi şəxslərin, həmçinin, normativ hüquqi aktlarla və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi və fiziki şəxslərin bu funksiyaların yerinə yetirilməsi ilə bağlı malik olduqları informasiyalar"[56] tütün sənayesi ilə bağlı məlumatları da əhatə edir. Eləcə də xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edilə bilməyəcək məlumatlar içərisində "ekologiyanın, səhiyyənin, ... və kənd təsərrüfatının, ... vəziyyəti haqqında; informasiya sahibinin fəaliyyəti haqqında hesabatlar, o cümlədən vəzifələrin yerinə yetirilməsinin keyfiyyəti və buraxılan nöqsanlar barədə; informasiya sahibinin mülkiyyəti və mülkiyyət öhdəlikləri haqqında; istehlakçıların qanuni maraqlarının müdafiəsi ilə bağlı olaraq malların və xidmətlərin keyfiyyəti haqqında; ətraf mühitə, insanların sağlamlığına təsir edən və ya təsir edə biləcək fəaliyyət nəticəsində ətraf mühitin komponentlərində baş verən və ya baş verə biləcək dəyişikliklər, onların qiymətləndirilməsi, ətraf mühitin mühafizəsi və səmərəli istifadəsinə yönəldilmiş tədbirlər və xərclər barədə"[57] məlumatların daxil edilməsi hesab edirik ki, tütün sənayesinə və tütün məmulatlarının zərərinə dair məlumatlara da şamil edilə bilər.

---

53 Maddə 34, "İnformasiya əldə etmək haqqında" Qanun.
54 P.Bayramova. Azərbaycanda İnformasiya əldə etmək hüququna dair Bələdçi. Bakı, 2014. Səh. 9.
55 Maddə 29, "İnformasiya əldə etmək haqqında" Qanun.
56 Guidelines for implementation of Article 12 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP4(7)). Available at http://www.who.int/fctc/guidelines/Decision.pdf
57 Maddə 37, yenə orada.

Qeyd edək ki, "Tütün və tütün məmulatı haqqında" Qanunun 11.4-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi[58] istehsalçılardan məhsulun tərkibində olan inqrediyentlər barədə məlumatları istehlakçılara təqdim etməyi tələb edə və ya özü çatdıra bilər. Bu müddəa "İnformasiya əldə etmək haqqında" Qanunla müəyyən ziddiyyət təşkil edir. Belə ki, "İnformasiya əldə etmək haqqında" Qanunun yuxarıda qeyd olunan maddələri düşünməyə imkan verir ki, tütün məmulatlarının tərkibi ictimaiyyət üçün açıq informasiyalara daxildir və tütün məmulatı istehsalçıları özləri bilavasitə onun tərkibi haqqında məlumatın istehlakçılar və hər bir kəs üçün açıq olmasını (sorğu olmadan belə) təmin etməlidirlər. Məhz bu ziddiyyətli məqamı nəzərə alaraq hesab edirik ki, "İnformasiya əldə etmək haqqında" Qanun konkret olaraq tütün istehsalçılarına şamil oluna biləcək müddəaları əks etdirməyərək Çərçivə Konvensiyasının tələblərinə ***qismən uyğun gəlir.*** Öz növbəsində "Tütün və tütün məmulatı haqqında" Qanunun 11.4-cü maddəsi də istehlakçıların tütün məmulatının tərkibi haqqında məlumatı Səhiyyə Nazirliyinə sorğu göndərərək ala biləcəyi fikrini yaradır ki, bu da Konvensiyanın tələblərinə ***qismən uyğundur.***

Digər tərəfdən, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunun 7-ci maddəsi hər kəsə tütün məmulatlarının və onlardan tüstü ilə ayrılan məhsulların komponentləri barədə məlumat almaq hüququ verir və tütün məmulatlarının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatların tütün məmulatları qutularının üzərində əks etdirilməsini tələb edir. Maddə 11.1 isə tütün məmulatlarının tərkibinin açıqlanmasına, qablaşdırılmasına və markalanmasına dair tələblər müəyyən edilir ki, buraya həm də tütünçülük sənayesi haqqında informasiya verilməsi daxildir. Bunlar da Konvensiyanın tələblərinə ***uyğundur.***

Onu da qeyd edək ki, 12-ci maddənin həyata keçirilməsinin Rəhbər Prinsipləri dövlətlərin tütünlə mübarizə məlumat bazasının yaradılmasını və bu bazanın ictimaiyyət üçün açıq olmasını xüsusi vurğulayır. Tütünlə mübarizə məlumat bazası yeli, milli, regional və beynəlxalq statistik məlumatları özündə əks etdirməlidir[59]. Azərbaycan Respublikasında müvafiq məlumat bazası hələ yaradılmamışdır.

Çərçivə Konvensiyasının 12-ci maddəsinin (e) bəndi tütünə qarşı mübarizə sahəsində proqramların və strategiyaların hazırlanmasında və həyata keçirilməsində vətəndaş cəmiyyətinin iştirakını xüsusi vurğulayır. Eləcə də 12-ci maddənin həyata keçirilməsinin Rəhbər Prinsiplərində dövlətlərə vətəndaş cəmiyyətinin nümayəndələrinin bu prosesdə fəal iştirakının təmin olunması tövsiyə edir. Əhəmiyyətlidir ki, 14 dekabr 2009-cu il tarixində

---

[58] "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasi Prezidentinin Fərmanının (3 sentyabr 2001-ci il, №73) 3-cü bəndinə əsasən həmin Qanunun 11.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

[59] Guidelines for implementation of Article 12 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP4(7)), p. 7. Available at http://www.who.int/fctc/guidelines/Decision.pdf p. 7.

İSİM, Azərbaycan Səhiyyə Kommunikasiyası Assosiasiyası və ABŞ-ın Cons Hopkins Universitetinin Blümberq İctimai Səhiyyə Məktəbinin Kommunikasiya Proqramları Mərkəzi tərəfindən həyata keçirilən "Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Strategiyanın Hazırlanması" layihəsi çərçivəsində Tütünlə Mübarizə üzrə 1-ci Milli Konfransda Tütünlə Mübarizə üzrə İctimai Koalisiya yaradılmışdır. Koalisiyanın yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasında tütünlə mübarizə sahəsində müxtəlif dövlət, qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsi idi[60].

Eləcə də hesab edirik ki, Azərbaycan Respublikasında yeni qəbul olunmuş və qüvvəyə minmiş "İctimai iştirakçılıq haqqında" Qanunun[61] düzgün həyata keçirilməsi tütünlə mübarizə sahəsində strategiya və proqramlar hazırlanmasında vətəndaş cəmiyyətinin iştirakı üçün yeni imkanlar yaradacaq. Öz növbəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin yanında yaradılmış İctimai Şura, eləcə də "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi ilə tütündən istifadənin nəticələrindən qorunma sahəsində dövlət siyasətini və dövlət nəzarətini həyata keçirmək vəzifəsinin Səhiyyə Nazirliyinə həvalə edilməsi bu istiqamətdə həlledici rol oynaya bilər.[62] Onu da qeyd edək ki, vətəndaş cəmiyyətinin tütünlə mübarizə sahəsində iştirakçılığı Çərçivə Konvensiyasının bir çox maddələrində xüsusi vurğulanmışdır.

Əhali arasında sağlam həyat tərzinin təşviq edilməsi və tütündən istifadənin sağlamlığa zərəri barədə maarifləndirmə tədbirlərinin keçirilməsi Azərbaycan Respublikasında İnsan Hüquq və Azadlıqlarının Müdafiəsinin Səmərəliliyini Artırmaq Sahəsində Milli Fəaliyyət Proqramında,[63] eləcə də Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramında[64] və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə Strateji Planında[65] öz əksini tapmışdır.

***Tövsiyələr:***

- *"Tütün və tütün məmulatı haqqında" Qanunun 11.4-cü maddəsi dəyişdirilməli və tütün sənayesinə dair məlumatların əhali üçün əlçatan olmasını təmin edən müddəa əlavə edilməlidir;*
- *Ayrı-ayrı tütün məmulatlarının tərkibini əks etdirən məlumat bazasının yaradılmasına dair müvafiq sərəncam verilməlidir;*

---

60 Daha ətraflı bax: https://www.isim.az/az/news-view/300-Tutunle-Mubarize-uzre-Milli-Konfrans

61 İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu, № 216-IVQ, 22 noyabr 2013-cü ildə qəbul edilmiş və 1 iyun 2013-cü ildə qüvvəyə minmişdir.

62 Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, № 290, 4 oktyabr 2018-ci il.

63 Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmişdur.

64 Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli, 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

65 Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 24 aprel 2014-cü il tarixli, 30 nömrəli Əmri ilə təsdiq edilmişdir.

- *Tütünlə mübarizə üzrə məlumat bazası yaradılmalıdır;*
- *Vətəndaş cəmiyyətinin tütünlə mübarizə sahəsində daha yaxından iştirakını təmin etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və ya İSİM yanında tütünlə mübarizə üzrə İctimai Şuranın yaradılması tövsiyə edilir.*

## 2.6. Reklam, satışın stimullaşdırılması və sponsorluq

***Çərçivə Konvensiyası***

***Maddə 13. Tütün məmulatının reklamı, satışının stimullaşdırılması və sponsorluğu***

*1. Tərəflər təsdiq edirlər ki, reklamın, satışın stimullaşdırılmasının və sponsorluğun tam qadağan olunması tütün məmulatından istifadənin azalmasına gətirib çıxaracaqdır.*

*2. Hər bir Tərəf öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə uyğun olaraq, tütün məmulatının reklamına, satışının stimullaşdırılmasına və sponsorluğuna tam qadağa qoyur. Bu, hüquqi şərtlərə əməl edilməsi və Tərəflərin malik olduğu texniki vasitələr nəzərə alınmaqla, onun ərazisindən başlanğıc götürən transsərhəd reklamına, satışın stimullaşdırılmasına və sponsorluğa tam qadağa qoyulmasını əhatə edir. Bununla əlaqədar olaraq Tərəflərdən hər biri bu Konvensiyanın həmin Tərəf üçün qüvvəyə minməsindən ötən beş il ərzində müvafiq qanunverici, icra, inzibati və/və ya digər tədbirlər həyata keçirir və 21-ci Maddəyə uyğun olaraq müvafiq hesabatlar təqdim edir.*

*3. Öz konstitusiyası və ya konstitusiya prinsipləri ilə əlaqədar olaraq tam qadağa tətbiq edə bilməyən Tərəf tütün məmulatına aid bütün reklama, satışın stimullaşdırılmasına və sponsorluğa məhdudiyyət qoyur. Bu, hüquqi şərtlərə əməl edilməsi və Tərəfin malik olduğu texniki vasitələr nəzərə alınmaqla, onun ərazisindən başlanğıc götürən və transsərhəd effektinə malik olan reklama, satışın stimullaşdırılmasına və sponsorluğa tətbiq edilən məhdudiyyətlərin və ya tam qadağanın tətbiq edilməsini əhatə edir. Bununla əlaqədar olaraq hər bir Tərəf müvafiq qanunverici, icra, inzibati və/və ya digər tədbirlər həyata keçirir və 21-ci Maddəyə uyğun olaraq müvafiq məruzələr təqdim edir.*

*4. Hər bir Tərəf öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə uyğun olaraq ən azı:*

*(a) yalan, yanlış rəy formalaşdırma vasitəsilə və ya tütün məmulatının xarakterik xüsusiyyətləri, sağlamlığa təsiri, təhlükəsi və ya onlardan ayrılan məhsullar barədə yanlış təsəvvür yarada bilən digər aldadıcı yollarla tütün məmulatının bazarda irəliləməsini təmin edən bütün reklam, satışın stimullaşdırılması və sponsorluq formalarını qadağan edir;*

*(b) tələb edir ki, tütün məmulatının sağlamlıq üçün zərərli olması və ya digər müvafiq xəbərdarlıq onun istənilən reklamını və uyğun hallarda satışın stimullaşdırılmasını və sponsorluğu müşayiət etsin;*

*(c) əhali tərəfindən tütün məmulatının alınmasını təşviq edən birbaşa və ya dolayı*

*stimullardan istifadəni məhdudlaşdırır;*

*(d) əgər tam qadağa tətbiq etməyibsə, müvafiq dövlət orqanlarından tələb edir ki, tütün sənayesinin hələ qadağan olunmamış reklama, satışın stimullaşdırılmasına və sponsorluğa çəkdiyi xərclər barədə informasiyanı açıqlasın. Bu orqanlar milli qanunvericiliyə uyğun olaraq 21-ci Maddənin icrasından ötrü həmin məlumatların ictimaiyyətin və Tərəflərin Konfransının sərəncamına verilməsi barədə qərar çıxara bilərlər;*

*(e) tam qadağan edir, yaxud öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə görə tam qadağan edə bilmədikdə radio, televiziya, çap kütləvi informasiya vasitələri, müvafiq hallarda isə, məsələn, İnternet kimi digər informasiya vasitələri ilə tütün məmulatının reklamını, satışının stimullaşdırılmasını və tütün məhsullarına sponsorluğu beş il müddətinə məhdudlaşdırır; və*

*(f) beynəlxalq hadisələr, tədbirlər zamanı və ya bunların iştirakçıları arasında tütün məmulatına sponsorluq edilməsini qadağan edir, yaxud öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə görə qadağan edə bilmədiyi halda bu sponsorluğu məhdudlaşdırır.*

*5. Tərəflər 4-cü bənddə şərh olunmuş öhdəliklər çərçivəsindən kənara çıxan tədbirlərin həyata keçirilməsinə həvəsləndirilirlər.*

*6. Tərəflər transsərhəd reklamının ləğvinə kömək üçün zəruri olan texnologiyaların və digər vasitələrin işlənib hazırlanması sahəsində əməkdaşlıq edirlər.*

*7. Tütün reklamının, satışın stimullaşdırılmasının və sponsorluğun bəzi formalarına artıq qadağa qoymuş Tərəflər onun ərazisinə daxil olan belə transsərhəd reklamı, satışın stimullaşdırılması və sponsorluğu qadağan etmək, daxili reklama, satışın stimullaşdırılmasına və sponsorluğa tətbiq etdiyi sanksiyaları öz milli qanunvericiliyinə uyğun olaraq, onun ərazisindən çıxan bu cür reklama, satışın stimullaşdırılmasına və sponsorluğa da tətbiq etmək kimi suveren hüquqa malikdir. Bu bənd konkret hər hansı sanksiyanın təqdiri və ya təsdiqi demək deyildir.*

*8. Tərəflər transsərhəd reklamına, satışın stimullaşdırılmasına və sponsorluğa tam qadağa qoyulması məqsədilə beynəlxalq əməkdaşlıq tələb edən müvafiq tədbirlərin şərh olunduğu protokolun işlənib hazırlanması məsələsini nəzərdən keçirəcəklər.*

***"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu***

***Maddə 9. Tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin təşkili***

*9.1.4. tütün satışının bilavasitə və ya dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növlərinin qadağan edilməsi.* - ***(uyğun gəlir).***

***Maddə 8. Tütün məmulatlarının satışında həvəsləndirmə üsullarının məhdudlaşdırılması***

*8.1. Hüquqi və fiziki şəxslərə tütün məmulatlarının satışında istifadəçılərin həvəsləndirilməsi üçün aşağıdakı üsullardan istifadə edilməsi qadağan edilir:*

*8.1.1. tütün məmulatlarının və onların yeni nümunələrinin pulsuz paylanması və ya mükafat kimi verilməsi;*

*8.1.2. tütün məmulatlarının lotereya, müsabiqə, idman yarışları, oyunlar üçün mükafat kimi təklif edilməsi;*

*8.1.3. tütün məmulatlarının satışı və istifadəsi ilə bağlı uduşlu (o cümlədən siqaret qutularının və hissələrinin yığılması ilə) oyunların, o cümlədən stimullaşdırıcı lotereyaların keçirilməsi.*

*8.2. Tütün istehsalı və satışı ilə məşğul olan şəxslər tərəfindən istehsal edilən və ya satışa çıxarılan tütün məmulatlarının istehlakçılara hədiyyə və ya yardım kimi paylanmasına yol verilmir.*

***Maddə 14. Tütün məmulatlarının reklamının və satışının stimullaşdırılmasının qadağan edilməsi***

*14.1. Tütün məmulatına tələbatın azaldılması məqsədi ilə tütün məmulatlarının satışının və onlardan istifadənin reklamı və stimullaşdırılması ilə bağlı aşağıdakılar qadağan edilir:*

*14.1.1. tütün məmulatlarının əhali arasında pulsuz, o cümlədən hədiyyələr şəklində yayılması;*

*14.1.2. tütün məmulatlarını alanlara hədiyyə qismində başqa əmtəənin təklif edilməsi;*

*14.1.3. tütün məmulatlarının qiymətlərinə hər hansı üsullarla, habelə kuponlar və talonlar nəşr edilməsi yolu ilə güzəştlər tətbiq olunması;*

*14.1.4. televiziya və videofilmlərdə, teatr tamaşalarında, radio, televiziya, video və kinoxronika proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsi ilə açıq yayımlanması;*

*14.1.5. tütün məmulatlarının mükafat qismində verilməsi şərti ilə əmtəə satışını stimullaşdıran müxtəlif tədbirlərin (o cümlədən lotereyaların, müsabiqələrin, oyunların) təşkili və keçirilməsi.*

*14.2. Tütün və tütün məmulatlarının istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü və 28-ci maddələrinə uyğun olaraq sponsor ola bilməz.*

*14.3. Tütünün və tütün məmulatlarının, habelə tütün çəkmə ləvazimatlarının reklamı qadağandır.* - ***(qismən uyğun gəlir).***

***"Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 4. Reklama dair ümumi tələblər (çıxarış)***

*4.6 Narkotik vasitələrin, psixotrop maddələrin, pornoqrafiyanın, tütün və tütün məmulatlarının və bu Qanunla reklamı qadağan olunan digər məhsulların reklamına yol verilmir.*

***Maddə 13. Sponsor və sponsor reklamı (çıxarış)***

*13.4. Bu Qanunla reklamı qadağan edilmiş malların istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər sponsor ola bilməz.*

***Maddə 15. Əmtəə satışını stimullaşdıran tədbirlər haqqında reklam (çıxarış)***

*15.3. Əmtəə satışını stimullaşdıran tədbirlərdə müəyyən əmtəəni satın alana hədiyyə qismində tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkilər, tütün və tütün məmulatları təklif oluna bilməz.*

*15.4. Tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkiləri, tütün və tütün məmulatlarını alanlara hədiyyə qismində başqa əmtəələrin təklifi qadağandır.*

***Maddə 28. Tütün, tütün məmulatları və onlara aid ləvazimatların reklamı***

*Tütün, tütün məmulatlarının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanlarının reklamı qadağandır..* - ***(qismən uyğun gəlir).***

***"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 35. Reklamın yayılması (çıxarış)***

*35.10. Televiziya və radio ilə narkotik vasitələrin, psixotrop maddələrin, silahların, pornoqrafiyanın, tütün məmulatlarının, Azərbaycan Respublikasının qanunvericiliyi ilə reklamı qadağan olunan digər məhsulların,* habelə saat 7.00-dan saat 23.00-dək spirtli içkilərin *reklamına yol verilmir.* - ***(qismən uyğun gəlir).***

***Maddə 40.2 Teleradio yayımçılarının vəzifələri aşağıdakılardır:***

*40.2.2-1. tütün məmulatlarını və tütün istifadəsi prosesini nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq; ....*

***"İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu***

***Maddə 7. İctimai yayımçının vəzifələri (çıxarış)***

*7.1. İctimai yayımçının vəzifələri aşağıdakılardır:*

*7.0.10. Tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanmaması.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***
***Maddə 20. Tütün məmulatının satışında həvəsləndirmə üsullarının məhdudlaşdırılması***

*20.1. Tütün məmulatının ticarətinə icazəsi olan hüquqi və fiziki şəxslərə məhsul satışında istehlakçıların həvəsləndirilməsi üçün aşağıdakı üsullardan istifadə edilməsi qadağan edilir:*

*20.1.1. kütləvi informasiya vasitələrində çap olunmuş və ya elan verilmiş kupon sahiblərinə güzəştlərin tətbiq edilməsi;*

*20.1.2. tütün məmulatının və onların yeni nümunələrinin pulsuz paylanması və ya mükafat kimi verilməsi;*

*20.1.3. tütün məmulatının lotereya, müsabiqə, idman yarışları, oyunlar üçün mükafat kimi təklif edilməsi;*

*20.1.4. tütün məmulatının satışı və istehlakı ilə bağlı uduşlu (o cümlədən siqaret qutularının və hissələrinin yığılması ilə) oyunların keçirilməsi. - **(uyğun gəlir).***

*20.2. Tütün məmulatının istehsalçıları tütünün və tütün məmulatının reklamını əks etdirməyən sosial, mədəni və təhsil tədbirlərinin sponsorluğu və reklamı zamanı öz firma adlarından maneəsiz istifadə edirlər. – **(uyğun gəlmir).***

***"Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 11. Teatrların vəzifələri***

*11.4. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsinə uyğun olaraq, teatr tamaşalarında tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi qadağandır. - **(uyğun gəlir).***

***"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 1. Əsas anlayışlar (çıxarış)***

*1.0.12. uşaqların həyat və sağlamlıqlarına təhlükə yaradan əməlləri təbliğ edən informasiya – uşaqların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan, o cümlədən intiharı, odlu silah və partlayıcı maddələrdən, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından, alkoqollu və energetik içkilərdən, habelə tütün məmulatlarından istifadəni təbliğ edən informasiyadır. - **(uyğun gəlir).***

***Maddə 3. Uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər (çıxarış)***

*3.0. Uşaqların zərərli informasiyadan qorunmasının əsas prinsipləri aşağıdakılardır:*

*3.0.3. zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinin yolverilməzliyi.* - ***(uyğun gəlir).***

***"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu***
***Maddə 5. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı (çıxarış)***

*5.7. 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsinin təmin edilməsi və sağlam gəncliyin formalaşdırılması məqsədi ilə aşağıdakılara yol verilmir:*

*5.7.1. onlara tütün məmulatlarının, spirtli və energetik içkilərin satışına;*

*5.7.3. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinə.* - ***(uyğun gəlir).***

**Şərh:**

Çərçivə Konvensiyasının 13.1-ci maddəsinə əsasən tütün məmulatlarının reklamının, satışın stimullaşdırılmasının və sponsorluğun "tam qadağan olunması tütün məmulatından istifadənin azaldılmasına gətirib çıxarır".

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanununun[66] (daha sonra "Reklam haqqında" Qanun) 28-ci maddəsi "Tütün, tütün məmulatları və onlara aid ləvazimatların reklamını qadağan edir", 15.3 və 15.4-cü maddələrinə əsasən "Əmtəə satışını stimullaşdıran tədbirlərdə müəyyən əmtəəni satın alana hədiyyə qismində tütün və tütün məmulatları təklif oluna bilməz və tütün və tütün məmulatlarını alanlara hədiyyə qismində başqa əmtəələrin təklifi qadağandır", 13.4-cü maddəsinə əsasən "Bu Qanunla reklamı qadağan edilmiş malların istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər sponsor ola bilməz". Eləcə də "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa[67] əsasən televiziya və radio ilə tütün məmulatlarının reklamına yol verilmir[68]. "Reklam haqqında" Qanun tütün və tütün məmulatının reklamını, satışın stimullaşdırılmasını və sponsorluğunu qadağan etsə də bu müddəanın Çərçivə Konvensiyasının tələblərinə tam uyğun gəldiyini deyə bilmərik. Belə ki, Çərçivə Konvensiyasının 13.1-ci maddəsi tütün məmulatlarının reklamı və satışının stimullaşdırılması ilə yanaşı onun sponsorluğunun da tam qadağan olunmasını tələb edir, "Reklam haqqında" Qanunda isə sponsorluq qadağaları yalnız tütün məmulatlarının istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslərə aid edilir.

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində bu sahədə müəyyən məhdudiyyətlər əks olunmuş olsa da, 2017-ci ilədək qanunvericilikdə tütün məmulatlarının satışının stimullaşdırılması və sponsorluğun tam qadağan edən müddəalar yox idi. Öz növbəsində

[66] Reklam haqqında Azərbaycan Respublikasının Qanunu, № 1281-IVQ, 15 may 2015 -ci il.
[67] Televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu, №345-IIQ, 25 iyun 2002-ci il.
[68] Maddə 35.10, yenə orada.

tütün məmulatlarının reklamı ilə onların satışının stimullaşdırılması bir-biri ilə sıx qarşılıqlı əlaqədədir. Lakin 2017-ci ildə təsdiqlənmiş "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun 9.1.4. Maddəsində tütün satışının bilavasitə və ya dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növlərinin qadağan edilməsi tələbi öz əksini tapmışdır. Rəhbər prinsiplərə əsasən "satış məntəqələrində tütün məmulatlarının göstərilməsi özlüyündə reklam və satışın stimullaşdırılmasıdır. Məhsulların göstərilməsi tütün məmulatlarının satışının stimullaşdırılmasının və tütündən istifadənin əsas vasitələrindən, o cümlədən tütündən istifadənin sosial qaydada qəbul oluna bilən təsəvvürünü yaradan və tütündən istifadə edənlərin tərgitməsini çətinləşdirən səbəbli tütün satınalmaları üsullarından biridir. Gənc insanlar məmulatların təsvirinin stimullaşdırıcı təsiri üçün xüsusilə həssasdırlar"[69]. Çərçivə Konvensiyasının 13-cü maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərinə əsasən dövlətlər satış məntəqələrində tütün məmulatlarının görünüşünə və istənilən təsvirinə tam qadağanı tətbiq etməlidirlər[70]. Yuxarıda qeyd olunan 9.1.4. Maddəsinə baxmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi müvafiq (konkret) qadağanı əks etdirmir. Öz növbəsində praktikada satış məntəqələrində tütün məmulatları ən nəzərə çarpan yerlərdə yerləşdirilir (məsələn, marketlərdə kassaların yanında və s.) ki, bu da reklamın bir növünü təşkil edir. Odur ki, müvafiq qanunvericiliyin tütün məmulatlarının reklamını tam qadağan etdiyini deyə bilmərik. Rəhbər prinsiplərə əsasən tütün məmulatlarının satışını stimullaşdıran hər hansı element olmadan yalnız məmulatların mətn siyahısına və üzərilərində qiymətlərin göstərilməsinə icazə verilməlidir.

Öz növbəsində Rəhbər Prinsiplər ticarət avtomatlarını reklam və satışın stimullaşdırılması üçün vasitə kimi xarakterizə edərək ticarət avtomatlarında tütün məmulatlarının satışının qadağan edir. "Tütün və tütün məmulatı haqqında" Qanun tütün və tütün məmulatlarının avtomatlar vasitəsi ilə satışını qadağan edərək bu tələbi təmin edir.[71] Qanun, eləcə də siqaret, papiros və siqarillaların ədədlə satışını qadağan edir.[72]

Öz növbəsində Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, idxalının və satışının tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1999-cu il, 90 nömrəli Fərmanı[73] müəyyən edir ki, tütün məmulatının pərakəndə satışı yalnız kassa-nəzarət aparatları ilə təchiz olunmuş stasionar ticarət şəbəkələri vasitəsilə həyata keçirilə bilər.

---

[69] Guidelines for Implementation of Article 13 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP3(12)). Available at: http://www.who.int/fctc/guidelines/article_13.pdf?ua=1
[70] Yenə orada.
[71] Maddə 15.3.7, "Tütün və tütün məmulatı haqqında" Qanun.
[72] Maddə 15.3.8, yenə orada.
[73] Fərmana 11 oktyabr 2001-ci il tarixli, 587 nömrəli; 24 avqust 2002-ci il tarixli, 767 nömrəli; 23 oktyabr 2003-cü il tarixli, 966 və 980 nömrəli; 28 fevral 2007-ci il tarixli, 534 nömrəli; 12 sentyabr 2008-ci il tarixli, 826 nömrəli fərmanlara əsasən dəyişikliklər və əlavələr edilmişdir.

*Brendin genişləndirilməsi və brendin eyni vaxtda istifadə edilməsinin qadağan olunması*
Rəhbər Prinsiplərə əsasən brendin genişləndirilməsi o zaman baş verir ki, tütün məmulatı brendin adı, emblemi, ticarət markası, loqotipi və ya fərqləndirici ticarət nişanı, yaxud istənilən digər fərqləndirici xüsusiyyəti (rənglərin xarakterik ahəngi daxil olmaqla) hər hansı qeyri-tütün məmulatı və ya xidmətlə elə şəkildə birləşdirilir ki, tütün və qeyri-tütün məmulatı və ya xidmətinin birliyi formalaşır. [74] Bu müddəa Azərbaycan Respublikasının qanunvericiliyində əks olunmadığı üçün deyə bilərik ki, qanunvericilik bu sahədə Çərçivə Konvensiyasına ***uyğun gəlmir.***

***Korporativ sosial məsuliyyətlə bağlı aşağıda bax:*** *6. Dövlətlərin Konvensiya üzrə ümumi öhdəlikləri, 6.3. Korporativ sosial məsuliyyət.*

***Tövsiyələr:***
- *Qanunvericilik tütün məmulatlarının reklamının və satışının stimullaşdırılmasının qadağan olunması ilə yanaşı onun sponsorluğunu da tam qadağan etməlidir;*
- *Qanunvericilik satış məntəqələrində tütün məmulatlarının görünüşünü və istənilən təsvirini tam qadağan etməlidir;*
- *Qanunvericilik brendin genişləndirilməsini və brendin eyni vaxtda istifadə edilməsini qadağan etməlidir;*
- *Qanunvericilik tütün məmulatı istehsalçılarına sosial, mədəni və təhsil tədbirlərinin sponsorluğu və reklamını qadağan etməlidir.*

## 3. Tütündən asılılıq və tütündən istifadənin dayandırılması

***Çərçivə Konvensiyası***
***Maddə 14. Tütündən asılılıq və tütündən istifadənin dayandırılması ilə bağlı tələbatın azaldılması tədbirləri***

*1. Hər bir Tərəf milli şəraiti və prioritetləri nəzərə almaqla, elmi məlumatlar və ən yaxşı təcrübəyə əsaslanan lazımi, hərtərəfli və kompleks rəhbər prinsipləri hazırlayır və yayır, tütündən istifadənin dayandırılmasına və tütündən asılılığın adekvat müalicəsinin təmin edilməsinə kömək üçün səmərəli tədbirlər görür.*

*2. Bu məqsədə nail olmaq üçün hər bir Tərəf çalışır ki:*
*a) tədris müəssisələri, tibbi-sanitariya qurumları, iş yerləri və idman tədbirlərinin keçirildiyi yerlər də daxil olmaqla, tütündən istifadənin dayandırılmasına kömək etməyə yönəldilmiş səmərəli proqramlar hazırlayıb həyata keçirsin;*
*b) tütündən asılılığın diaqnostikası və müalicəsini, həmçinin tütünün istifadəsinin dayandırılması ilə əlaqədar məsləhət xidmətlərini müvafiq hallarda səhiyyə işçilərinin, icma nümayəndələrinin və sosial işçilərin iştirak etdikləri milli səhiyyə və maarifləndirmə*

---
[74] Guidelines for Implementation of Article 13 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP3(12)). Available at: http://www.who.int/fctc/guidelines/article_13.pdf?ua=1

*proqramlarına, planlarına və strategiyalarına daxil etsin;*

*c) tibbi-sanitariya yardımı müəssisələrində və reabilitasiya mərkəzlərində tütündən asılılığın diaqnostikası, profilaktikası, müalicəsi və məsləhətlərin verilməsi üzrə proqramlar hazırlasın; və*

*d) 22-ci Maddəyə uyğun olaraq, dərman preparatları da daxil olmaqla, tütündən asılılığın müalicəsinin və müalicə qiymətlərinin əlçatan olması üçün digər Tərəflərlə əməkdaşlıq etsin. Bu cür preparatlara və onların komponentlərinə dərman vasitələri, onların qəbulu, habelə müvafiq hallarda diaqnostika üçün istifadə olunan preparatlar daxil ola bilər.*

Çərçivə Konvensiyasının 14-cü maddəsi dövlətlərin üzərinə tütündən asılılıq və tütündən istifadənin dayandırılması ilə bağlı tələbatın azaldılması üçün zəruri tədbirlər həyata keçirmək öhdəliyi qoyur. 14-cü maddənin həyata keçirilməsinin Rəhbər Prinsiplərində qeyd olunur ki, tərəflər tütünçəkmədən imtina etməni motivasiya edən, eləcə də bu asılılığı tərgitmək istəyən tütün istifadəçiləri üçün lazımi dəstəyi təmin edən infrastruktur yaratmalıdırlar.[75] Bu sahədə müvafiq siyasət qəbul edilməli, tütün asılılığından xilas olmaq üçün müvafiq müalicə xidmətləri mövcud olmalıdır.

Əhəmiyyətlidir ki 2017-ci ildə təsdiqlənmiş "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda tütündən asılılıq və tütündən istifadənin dayandırılması məsələləri geniş əks olunur.

**"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu**

***Maddə 15. Vətəndaşlara tütündən istifadənin dayandırılmasına, tütün asılılığının və tütündən istifadə nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəlmiş tibbi yardım göstərilməsi***

*15.1. Tütündən istifadənin dayandırılması, tütün asılılığının və tütündən istifadə nəticəsində yaranan xəstəliklərin müalicəsi üçün tibb müəssisələrinə müraciət etmiş şəxslərə müvafiq tibbi yardım göstərilir.*

*15.2. Vətəndaşlara tütündən istifadənin dayandırılması üçün tibbi yardım göstərilməsi, o cümlədən tütün asılılığının və tütündən istifadənin nəticələrinin profilaktikası, diaqnostikası və müalicəsi dövlət tibb müəssisələrində pulsuz həyata keçirilir.*

*15.3. Müalicə edən həkim tibbi yardım göstərilməsi üçün tibb müəssisəsinə müraciət etmiş pasiyentə, müalicənin səbəbindən asılı olmayaraq tütündən istifadənin dayandırılması barədə tövsiyələr və ona göstərilə biləcək tibbi yardım haqqında zəruri məlumat verir.*

---

[75] Guidelines for Implementation of Article 13 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP4(8)). Available at: http://origin.who.int/fctc/Guidelines.pdf

**Şərh:**

Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin nəzdində əhali üçün tütündən imtina üzrə tibbi məsləhət kabineti və xüsusi "qaynar xətt" pilot layihə kimi 2016-cı ildə təşkil oludu, eləcə də 2019-cu ildə əhali üçün "Tütündən imtina et" mobil applikasiyası yaradıldı və 2021-ci ilin fevralın 1-dən əhali üçün tütündən imtina üzrə xüsusi "Qaynar xətt" fəaliyyətə başlandı. Buna baxmayaraq, Azərbaycanda tütündən imtina üçün dəstək təsisatı yoxdur. Siqareti atmaq üçün istifadə edilən dərman vasitələrinin əldə olunmasında çətinliklər vardır. Tibb personalının tütün çəkməkdən imtina xidmətinin təşkili üzrə biliklərinin inkişaf etdirilməsinə ciddi ehtiyac vardır.[76]

Onu da qeyd edək ki, çox əhəmiyyətlidir ki, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən Tütünçəkmədən imtina etmə üzrə klinik protokol [77] hazırlanmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 27 fevral 2012-ci il tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bundan başqa Tütündən imtinaya dair tibbi-konsultativ xidmətlər üzrə metodik tövsiyələr hazırlanmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 26 fevral 2018-cı il tarixli 02 saylı qərarı ilə təsdiq edilmişdir. Bununla belə, Azərbaycan Respublikasında 14-cü maddənin həyata keçirilməsi daha çox tədbirlər həyata keçirilməlidir.

***Tövsiyələr:***

- *"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun 15-ci Maddəsindən irəli gələn məsələlərin həll edilməsi;*
- *tütünçəkmədən imtina etməni motivasiya edən, eləcə də bu asılılığı tərgitmək istəyən tütün istifadəçiləri üçün lazımi dəstəyi təmin edən infrastrukturun yaradılması üçün müvafiq fəaliyyətin təmin edilməsi.*

## 4. Tütün təchizatının azaldılması ilə bağlı tədbirlər

### 4.1. Tütün məmulatının qeyri-qanuni ticarəti

***Çərçivə Konvensiyası***

***Maddə 15. Tütün məmulatının qeyri-qanuni ticarəti***

*1. Tərəflər etiraf edirlər ki, qaçaqmalçılıq, qeyri-qanuni istehsal və saxtalaşdırma halları daxil olmaqla, tütün məmulatı ilə qeyri-qanuni ticarətin bütün növlərinin ləğv edilməsi, həmçinin subregional, regional və qlobal sazişlərlə yanaşı milli qanunvericiliyin işlənib hazırlanması və həyata keçirilməsi tütünə qarşı mübarizənin zəruri tərkib hissələridir.*

*2. Hər bir Tərəf tütün məmulatının mənşəyinin müəyyənləşdirilməsində Tərəflərə kömək etmək üçün və milli qanunvericiliyə və müvafiq iki tərəfli və çoxtərəfli sazişlərə uyğun*

---

[76] Yenə orada. Səh. 11.

[77] Tütünçəkmədən imtina etmə üzrə klinik protokol. Redaktor C.Məmmədov. Bakı, 2012, 44 səh.

*olaraq sapma nöqtəsinin müəyyənləşdirilməsində, habelə tütün məmulatının hərəkətinin və hüquqi statusunun monitorinqinin sənədləşdirilməsinin və nəzarətinin həyata keçirilməsində Tərəflərə kömək etmək üçün tütün məmulatının bütün qutularının və qablaşdırma qutularının, bu cür məmulatın istənilən xarici qablaşdırma qutusunun markalanmasını təmin etmək məqsədilə səmərəli qanunverici, icra, inzibati və digər tədbirləri görür və həyata keçirir. Bundan başqa, hər bir Tərəf:*

*(a) öz daxili bazarında pərakəndə və topdansatış üçün nəzərdə tutulan tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda aşağıdakı mətnin yazılmasını tələb edir: "Ancaq (ölkənin, milli, regional və ya federal ərazi vahidinin adı göstərilir) satılmasına icazə verilir". Yaxud tələb edir ki, təyinat məntəqəsini göstərən və ya bu məmulatın daxili bazarda satılmaq üçün qanuni yolla gəlib-gəlməməsinin orqanlar tərəfindən müəyyən edilməsini asanlaşdıran başqa bir effektiv nişan sistemi olsun; və*

*(b) müvafiq hallarda gələcəkdə paylaşdırma sistemini qoruyacaq və daha sonra qeyri-qanuni ticarət hallarının istintaqına kömək edəcək praktiki izləmə sisteminin və izləmə rejiminin yaradılması məsələsinə baxır.*

*3. Hər bir Tərəf bu Maddənin 2-ci bəndində sözügedən qablaşdırmanın üstündəki məlumatın və ya markalanmanın aydın və/və ya əsas dildə, yaxud dillərdə olmasını tələb edir.*

*4. Tütün məmulatının qeyri-qanuni ticarətini ləğv etmək üçün hər bir Tərəf:*

*(a) tütün məmulatının transsərhəd satışının, həmçinin qeyri-qanuni ticarətinin monitorinqini və məlumatların toplanmasını həyata keçirir, bundan başqa, müvafiq hallarda milli qanunvericiliyə və tətbiq edilməsi mümkün olan ikitərəfli və çoxtərəfli müqavilələrə uyğun olaraq, gömrük, vergi orqanları və digər orqanlar arasında məlumat mübadiləsi aparır;*

*(b) saxta və qaçaqmal siqaretlər də daxil olmaqla, tütün məmulatının qeyri-qanuni ticarətinin qarşısının alınmasına yönəlmiş qanunvericilik aktlarını qəbul edir və ya onları əlaqədar sanksiyalar və islah tədbirləri ilə möhkəmləndirir;*

*(c) müsadirə edilən istehsal avadanlığının, saxta və qaçaqmal siqaretlərin və digər tütün məmulatının, praktiki cəhətdən mümkündürsə, ekoloji təmiz üsullar tətbiq olunmaqla məhv edilməsinin və ya daxili qanunvericilik əsasında onlardan qurtulmanın təmin edilməsi üçün lazım olan addımları atır;*

*(d) vergisiz və ya rüsumsuz rejimdə anbarda saxlanılan və ya daşınan tütün məmulatının saxlanması və paylaşdırılmasının monitorinqi, sənədləşdirilməsi və bunlara nəzarət məqsədlilə öz yurisdiksiyası daxilində tədbirlər görür və həyata keçirir; və*

*(e) tütün məmulatının qeyri-qanuni ticarətindən əldə edilən gəlirlərin müsadirəsi üçün zəruri tədbirlər görür.*

*5. Tərəflər, müvafiq hallarda, bu Maddənin 4(a) və 4(d) yarımbəndlərinə uyğun olaraq toplanan məlumatları 21-ci Maddəyə əsasən, Tərəflərin Konfransına təqdim etdikləri dövri məruzələrdə cəmləşdirilmiş şəkildə əks etdirirlər.*

*6. Tərəflər, tütün məmulatının qeyri-qanuni ticarətinin ləğv edilməsi məqsədilə müvafiq hallarda və milli qanunvericiliyə əsasən, təhqiqat, istintaq və məhkəmə icraatına dair məsələlərdə milli təşkilatlar, həmçinin əlaqədar regional və beynəlxalq hökumətlərarası təşkilatlar arasında əməkdaşlığa kömək edirlər. Tütün məmulatının qeyri-qanuni ticarətinə*

*qarşı mübarizə məqsədilə regional və subregional səviyyələrdə əməkdaşlığa xüsusi diqqət yetirilir.*

*7. Hər bir Tərəf qeyri-qanuni ticarətin qarşısını almaq məqsədilə tütün məmulatının istehsalına və paylaşdırılmasına nəzarət etmək və ya onları nizamlamaq üçün müvafiq hallarda lisenziyalaşdırma da daxil olmaqla, gələcək tədbirlərin görülməsinə və həyata keçirilməsinə çalışır.*

***Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Qanunu***

***Maddə 9. Tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin təşkili***

*9.1.6. tütün məmulatlarının qeyri-qanuni dövriyyəsinin qarşısının alınması* - ***(uyğun gəlir).***

***"Tütün və tütün məmulatı haqqında" Qanun***

***Maddə 15. Tütünün və tütün məmulatının ticarəti***

*15.1. Azərbaycan Respublikasında keyfiyyət göstəriciləri normativ sənədlərin tələblərinə və gigiyenik normativlərə cavab verən, müvafiq sertifikatları olan tütün və tütün məmulatı ticarət dövriyyəsinə daxil edilə bilər.*

*15.2. Tütünün və tütün məmulatının ticarəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq topdan və pərakəndə satış formasında həyata keçirilir.*

*15.3. Tütünün və tütün məmulatının satışı aşağıdakı hallarda qadağan olunur:*

*15.3.1. məhsulun hər partiyası üçün müvafiq sertifikatlar olmadıqda;*

*15.3.2. tütün məmulatı aksiz markası ilə markalanmadıqda;*

*15.3.3. tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı müəyyən edilmiş yuxarı həddən çox olduqda;*

*15.3.4. tütün məmulatının qutusu üzərində siqaret çəkməyin sağlamlığa zərərli təsiri barədə xəbərdarlıq yazısı olmadıqda;*

*15.3.5. tütün məmulatının markalanması və qutularının tərtibatı müvafiq normativ sənədlərin tələblərinə uyğun aparılmadıqda;*

*15.3.6.18 yaşına çatmamış şəxslərə satıldıqda;*

*15.3.7. avtomatlar vasitəsilə satıldıqda;*

*15.3.8. siqaret, papiros və siqarillalar ədədlə satıldıqda.*

*15.4. Zəruri haliarda tütün məmulatı satıcılarının alıcılardan onların yaşını təsdiq edən sənədi tələb etmək hüququ vardır.*

*15.5. Tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə uşaq və yeniyetmələr üçün malların satışı yerlərində tütün məmulatının ticarətinə yol verilmir.*

*15.6. Tütün məmulatının ticarəti yerlərində siqaret çəkməyin sağlamlığa zərərli təsiri, 18 yaşına çatmamış şəxslərə tütün məmulatının satışının qadağan edilməsi, habelə tütün məmulatından istifadənin məhdudlaşdırılmasına xidmət edən digər yazılar olmalıdır.*

**- (qismən uyğun gəlir).**

***Maddə 16. Tütünün və tütün məmulatının dövriyyədən götürülməsi***

*16.1. Tütünün və tütün məmulatının qeyri-qanuni dövriyyədən götürülməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.*

*16.2. Tütün və tütün məmulatı dövriyyədən aşağıdakı hallarda götürülür:*

*16.2.1. qanuni istehsalı və dövriyyəyə daxil edilməsi barədə sənədləri olmadıqda;*

*16.2.2. məhsulun hər partiyası üçün müvafiq sertifikatlar olmadıqda;*

*16.2.3. tütün məmulatı aksiz markası ilə markalanmadıqda və ya saxta markalarla markalandıqda;*

*16.2.4. tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı müəyyən edilmiş yuxarı həddən çox olduqda;*

*16.2.5. tütün məmulatının tərkibinə daxil edilmiş inqrediyentlərin açıqlanmasına dair tələblər pozulduqda;*

*16.2.6. tütün məmulatı qutularının tərtibatı qanunvericiliklə müəyyən olunmuş qaydada aparılmadıqda;*

*16.2.7. məhsulun istehlak keyfiyyəti itirildikdə;*

*16.2.8. məhsulun sahibsiz olması müəyyən edildikdə;*

*16.2.9. qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.*

*16.3. Qeyri-qanuni dövriyyədən götürülmüş tütün və tütün məmulatı bu Qanunun 16.2.4-cü, 16.2.5-ci və 16.2.7-ci maddələrində göstərilən hallarda qanunvericiliklə nəzərdə tutulmuş qaydada müsadirə edilir və məhv olunur, digər hallarda isə müəyyənləşdiimiş qaydada istifadə edilir.* - ***(uyğun gəlir).***

***Maddə 17. Tütünə və tütün məmulatına dair normativ sənədlər***

*17.1. Tütünə və tütün məmulatına dair normativ sənədlər onların istehsal, tədarük, emal, saxlanma, daşınma, qablaşdırma, markalanma və satış qaydalarını, şərtlərini və normalarını nizamlayan standartları və tələbləri müəyyən edir.*

*17.2. Azərbaycan Respublikasında istehsal edilən, habelə respublikaya gətirilən tütünün və tütün məmulatının keyfiyyət göstəriciləri qüvvədə olan normativ sənədlərin tələblərinə cavab verməlidir.*

*17.3. Tütünə və tütün məmulatına dair normativ sənədlərin tələblərinə əməl olunması bu sahədə sahibkarlıq fəaliyyəti göstərən bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.*

- ***(qismən uyğun gəlir).***

***"Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı***

***5. Malların satışına olan ümumi tələblər (çıxarış)***

*5.1. Topdansatış ticarət obyektlərindən mallar hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə müqavilələr əsasında satılır. Topdansatış ticarəti ilə məşğul olan ticarət obyektlərində malların pərakəndə satışı qadağandır. Pərakəndə ticarət sahəsində fəaliyyət göstərən təsərrüfat obyektlərindən, hüquqi və fiziki şəxslər tərəfindən pərakəndə qaydada alınmış ərzaq mallarının, o cümlədən spirtli və*

*spirtsiz içkilərin, tütün və tütün məmulatlarının sonradan pərakəndə satışı qadağandır. - **(uyğun gəlir).***

***Vergi Məcəlləsi***

***Maddə 89. Əmlakın siyahıya alınması (çıxarış)***

*89.13. Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması aşağıdakı qaydada həyata keçirilir:*

*89.13.1. Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması vergi ödəyicisinin həmin mallar barəsində hüquqlarının elə məhdudlaşdırılmasıdır ki, bu zaman vergi ödəyicisi siyahıya alınmış aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallara sahiblik, onlardan istifadə etmək və sərəncam vermək hüququna malik deyildir.*

*89.13.2. Aksiz markaları ilə markalanmalı olan malların həmin markalarla markalanmadan və ya saxta aksiz markaları ilə markalanmaqla satışı və ya saxlanılması aşkar edildikdə (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) ümumi miqdarı, aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formaya uyğun olan aktla, hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin rekvizitləri və onların səlahiyyətli nümayəndəsinin adı və soyadı göstərilməklə rəsmiləşdirilir, akt vergi orqanının nümayəndələrinin, habelə obyektin məsul şəxsinin və müşahidəçilərin imzaları ilə təsdiqlənir. Vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi aktda öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər və bu barədə həmin aktda müvafiq qeyd aparılır.*

*89.13.3. Aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formaya uyğun olan siyahısı tərtib edilir. Siyahıda həmin malların adı, fərqləndirici əlamətləri, mənşə mənbəyi, alış və satış qiymətləri, vergi orqanının adı, siyahıya almanı həyata keçirən vəzifəli şəxslərin adı, soyadı və atasının adı, siyahıya almanın həyata keçirildiyi tarix və yer, vergi ödəyicisi və onun nümayəndəsi haqqında məlumat, müşahidəçilər və dəvət olunmuş mütəxəssislər haqqında məlumatlar əks etdirilir.*

*89.13.4. Aksiz markaları ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış malların (içməli spirtin, pivənin, spirtli içkilərin bütün növlərinin və tütün məmulatlarının) mənşə mənbəyi, alış və satış qiymətləri ilkin sənədlərlə və ya vəzifəli şəxsdən (vəzifəli şəxs olmadıqda satıcıdan) alınmış izahatla müəyyənləşdirilir.*

*89.13.5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində göstərilən inzibati xətalara yol vermiş vəzifəli şəxs (şəxslər) barəsində həmin Məcəlləyə müvafiq olaraq protokol tərtib olunur.*

*89.13.6. Tərtib olunmuş aktın, siyahının və protokolun surətləri vəzifəli şəxsə verilir.*

*89.13.7. Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınmasını həyata keçirən vergi orqanının nümayəndəsi həmin malların siyahıya alınması prosesində vergi ödəyicisinin və ya onun nümayəndəsinin iştirak etməsinə icazə verməməyə səlahiyyətli deyildir.*

*89.13.8. Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması prosesində vergi orqanının nümayəndəsi vergi ödəyicisinə və ya onun nümayəndəsinə hüquq və vəzifələrini izah etməlidir.* - ***(uyğun gəlir).***

**Şərh:**

Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Qanunun 9-cu maddəsi, "Tütün və tütün məmulatı haqqında" Qanunun 15-ci maddəsi, eləcə də Vergi Məcəlləsinin Aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması qaydalarını müəyyən edən 89-cu maddəsi və "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının 5.1.-ci bəndi ümumilikdə Çərçivə Konvensiyasının müvafiq maddəsinə uyğun gəlir. Tütün məmulatlarının qeyri-qanuni ticarəti mövzusu tütünə qarşı mübarizənin digər sahələri ilə bilavasitə əlaqədar olduğu üçün digər maddələrin uyğunluğu əsasında da nəzərdən keçirilməlidir. Qeyd edək ki, 15.2-ci maddənin (a) bəndində ifadə olunmuş "ancaq (ölkənin ... adı göstərilir) satılmasına icazə verilir" mətninin hər bir dövlətin daxili bazarında pərakəndə və topdansatış üçün nəzərdə tutulan tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda yazılması tələbi "Tütün və tütün məmulatı haqqında" Qanunun müvafiq maddəsində öz əksini tapmayıb. Eləcə də Azərbaycan Respublikasında tütün məmulatının transsərhəd satışının, qeyri-qanuni monitorinqini və məlumatların toplanılmasını həyata keçirilməsini, gömrük, vergi və s. orqanlar arasında məlumat mübadiləsinin aparılmasını təsbit edən hər hansı qanunvericilik aktı mövcud deyil.

Onu da qeyd edək ki, 12 noyabr 2012-ci il tarixində Tərəflər Konfransı Çərçivə Konvensiyasının Birinci Protokolunu, Tütün məmulatlarının qeyri-qanuni ticarətinin ləğv edilməsi haqqında Protokolu[78] qəbul etdilər. Protokol tütün məmulatlarının qeyri-qanuni ticarətinin bütün formalarının aradan qaldırılması məqsədi daşıyır və bu istiqamətdə görülməli olan milli tədbirləri və beynəlxalq əməkdaşlıq vasitələrini əks etdirir. 15 iyul 2021-ci il tarixi üçün Protokol 53 dövlət və Avropa İttifaqı tərəfindən imzalanmışdır.[79] Protokola tərəf olmaq üçün Çərçivə Konvensiyasının tərəf dövlətləri Protokolu imzaladıqdan sonra onun ratifikasiya olunması haqqında sənədi saxlanmaq üçün BMT-nin Baş Katibinə təqdim

---

[78] Protocol to Eliminate İllicit Trade in Tobacco Products. http://apps.who.int/iris/bitstream/10665/80873/1/9789241505246_eng.pdf?ua=1

[79] https://treaties.un.org/Pages/ViewDetails.aspx?src=TREATY&mtdsg_no=IX-4-a&chapter=9&clang=_en

etməlidirlər. Tütün məmulatlarının qeyri-qanuni ticarətinin ləğvi istiqamətində daha effektiv tədbirlər görə bilmək və beynəlxalq əməkdaşlığı gücləndirmək üçün Azərbaycan Respublikasının da Protokolu müvafiq qaydada imzalaması və ratifikasiya etməsi tövsiyə olunur.

***Eləcə də bax:*** *Qanunvericiliyin Çərçivə Konvensiyasının 6, 11, 16 və 19-cu maddələrinə uyğunluğuna dair şərhlər.*

***Tövsiyələr:***

- *Qanunvericilikdə daxili bazarda pərakəndə və topdansatış üçün nəzərdə tutulan hər bir tütün məmulatı qutusunda və qablaşdırma qutusunda "ancaq Azərbaycan Respublikasında satılmasına icazə verilir" mətninin əks olunması tələbi təsbit olunmalıdır;*
- *Azərbaycan Respublikasında tütün məmulatının transsərhəd satışının, qeyri-qanuni monitoinqini və məlumatların toplanılmasını həyata keçirilməsini, gömrük, vergi və s. orqanlar arasında məlumat mübadiləsinin aparılmasını təsbit edən hər hansı qanunvericilik aktları qəbul edilməlidir;*
- *Azərbaycan Respublikasının Tütün məmulatlarının qeyri-qanuni ticarətinin ləğv edilməsi haqqında Protokolu müvafiq qaydada imzalaması və ratifikasiya etməsi tövsiyə olunur.*
-

## 4.2. Yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış

***Çərçivə Konvensiyası***
***Maddə 16. Yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış***

*1. Daxili qanunvericiliklə, milli qanunvericiliklə müəyyən edilən yaş həddinə və ya on səkkiz yaşına çatmamış şəxslərə tütün məmulatı satışının qadağan edilməsi üçün hər bir Tərəf müvafiq hökumət səviyyəsində səmərəli qanunvericilik, icra, inzibati və digər tədbirləri qəbul edir və həyata keçirir. Bu tədbirlərə aşağıdakılar daxil ola bilər:*

*(a) bütün tütün məmulatı satıcılarının satış məntəqəsinin daxilində yaxşı görünən yerdə yetkinlik yaşına çatmayanlara tütün məmulatının satışının qadağan olduğu barədə aydın bir elanın yerləşdirilməsinə dair tələb, şübhəli hallarda isə onların tütün məmulatını alan hər bir şəxsdən qanunda müəyyən edilən yetkinlik yaşına çatma haqqında sənədi istəməsinə dair tələb;*

*(b) tütün məmulatını bilavasitə götürə bilmə imkanını təmin edən bütün satış növlərinin, məsələn, birbaşa mağaza rəflərindən satışın qadağan edilməsi;*

*(c) tütün məmulatı formasında hazırlanan və yetkinlik yaşına çatmayanların diqqətini cəlb edən konfet, qəlyanaltı, oyuncaq və digər əşyaların istehsal və satışının qadağan edilməsi; və*

*(d) tütün məmulatını satan öz yrisdiksiyasındakı avtomatların yetkinlik yaşına çatmayanların istifadə dairəsindən uzaq olmasını və tütün məmulatının yetkinlik yaşına çatmayanlara satışını təşviq etməməsini təmin edən bir vəziyyətin yaradılması.*

*2. Hər bir Tərəf pulsuz tütün məmulatının əhali arasında, xüsusilə də yetkinlik yaşına çatmayanlar arasında yayılmasını qadağan edir və ya qadağan edilməsinə kömək edir.*

*3. Hər bir Tərəf siqaretlərin yetkinlik yaşına çatmayanlar üçün əldə edilə bilmə imkanını artıran tək-tək və kiçik qutularda satışının qadağan edilməsinə çalışır.*

*4. Tərəflər təsdiq edirlər ki, yetkinlik yaşına çatmayanlara tütün məmulatı satışının qarşısının alınmasına dair tədbirlərin səmərəliliyini artırmaq məqsədilə lazımi hallarda həmin tədbirlər bu Konvensiyanın digər müddəaları ilə əlaqəli şəkildə həyata keçirilməlidir.*

*5. Konvensiya imzalandığı, ratifikasiya edildiyi, qəbul edildiyi, təsdiq edildiyi vaxt və ya ona qoşulduqda, yaxud bunlardan sonra hər hansı bir vaxt ərzində Tərəf məcburi qüvvəyə malik yazılı bəyanatla tütün məmulatı satan avtomatların istismarını öz yurisdiksiyası daxilində qadağan etmək üzrə öhdəlik götürdüyünü bildirə bilər və ya tütün məmulatı satan avtomatları müvafiq hallarda tam qadağan edə bilər. Bu Maddəyə əsasən edilən bəyanat Depozitari tərəfindən Konvensiyanın bütün Tərəflərinə çatdırılır.*

*6. Hər bir Tərəf bu Maddənin 1-5-ci bəndlərində göstərilən öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi üçün səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər, o cümlədən pərakəndə və topdan satıcılara qarşı sanksiyalar qəbul edir və həyata keçirir.*

*7. Hər bir Tərəf gərək daxili qanunvericiliklə, milli qanunvericiliklə müəyyən edilən yaş həddinə və ya on səkkiz yaşına çatmayanlar tərəfindən tütün məmulatı satılmasının qadağan edilməsi üçün müvafiq hallarda səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər görsün və həyata keçirsin.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***

***Maddə 15. Tütünün və tütün məmulatının ticarəti (çıxarış)***

*15.3. Tütünün və tütün məmulatının satışı aşağıdakı hallarda qadağan olunur:*

*… …*

*15.3.6.18 yaşına çatmamış şəxslərə satıldıqda;*

*15.3.7. avtomatlar vasitəsilə satıldıqda;*

*15.3.8. siqaret, papiros və siqarillalar ədədlə satıldıqda.*

*15.4. Zəruri haliarda tütün məmulatı satıcılarının alıcılardan onların yaşını təsdiq edən sənədi tələb etmək hüququ vardır.*

*15.5. Tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə uşaq və yeniyetmələr üçün malların satışı yerlərində tütün məmulatının ticarətinə yol verilmir.*

*15.6. Tütün məmulatının ticarəti yerlərində siqaret çəkməyin sağlamlığa zərərli təsiri, 18 yaşına çatmamış şəxslərə tütün məmulatının satışının qadağan edilməsi, habelə tütün məmulatından istifadənin məhdudlaşdırılmasına xidmət edən digər yazılar olmalıdır.-* ***(qismən uyğun gəlir).***

***“Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu***

***Maddə 13. Yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışının və onların tütündən istifadə etməsinin qadağan olunması***

*13.1. Yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışı, habelə onlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi qadağandır.*

*13.2. Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir.*

*13.3. Alıcının yetkinlik yaşına çatmasına şübhə olduqda, onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd təqdim edilmirsə, satıcı tütün məmulatını alıcıya satmaqdan imtina edir.*

*13.4. Yetkinlik yaşına çatmayan şəxslərin tütündən istifadəsinə icazə verilmir. - **(uyğun gəlir).***

***“Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı***

***3. Ticarət (xidmət) fəaliyyətinə olan ümumi tələblər (çıxarış)***

*3.3-2. Etil (yeyinti) spirtinin, alkoqollu və energetik içkilərin və ya tütün məmulatlarının satışını həyata keçirən ticarət (xidmət) obyektlərinin giriş hissəsində etil (yeyinti) spirtinin, alkoqollu və energetik içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasının qadağan edildiyini əks etdirən elan yerləşdirilməlidir. - **(uyğun gəlir)***

***5. Malların satışına olan ümumi tələblər (çıxarış)***

*5.7-1. Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə, satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir. - **(uyğun gəlir)***

***“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu***

***Maddə 9. Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ (çıxarış)***

*Alkoqollu və energetik içkilərin, tütün məmulatlarının uşaqlara satılması, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, uşaqların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının, toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı olan və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır. - **(uyğun gəlir)***

**Şərh:**
Çərçivə Konvensiyasının 16-cı maddəsi yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışının qadağan edilməsini tələb edir. “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunun 13-cü maddəsi, həmçinin “Tütün və tütün məmulatı haqqında” Qanun tütün və tütün məmulatlarının 18 yaşına çatmayan şəxslərə satışını qadağan edir.[80] Eləcə də, həmin Qanunlar,[81] o cümlədən “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının 5-ci bəndi zəruri hallarda tütün məmulatı satıcılarının alıcılardan onların yaşını təsdiq edən sənədi tələb etmək hüququnu təsbit edir ki, bu Konvensiyanın 16-cı maddəsinin 1 (a)-ci bəndində əks olunmuş şübhəli hallarda satıcıların tütün məmulatını alan hər bir şəxsdən qanunda müəyyən edilən yetkinlik yaşına çatma haqqında sənədi istəməsinə dair tələbə uyğun gəlir. Eyni zamanda elə həmin maddədə əks olunmuş “bütün tütün məmulatı satıcılarının satış məntəqəsinin daxilində yaxşı görünən yerdə yetkinlik yaşına çatmayanlara tütün məmulatının satışının qadağan olunduğu barədə aydın bir elanın yerləşdirilməsinə dair tələb” “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının 3.3-2 bəndində öz əksini tapmışdır. Bu baxımdan hesab edirik ki, “Tütün və tütün məmulatı haqqında” Qanunun sözü gedən maddəsi Çərçivə Konvensiyasının müvafiq müddəasına ***qismən uyğun gəlsə də,*** *digər yuxarıda qeyd edilən qanunların maddə və bəndləri* Çərçivə Konvensiyasının müvafiq müddəasına ***uyğun gəlir.***

Konvensiyanın 16.3-cü maddəsi dövlətlərin üzərinə siqaretlərin tək-tək və kiçik qutularda satışının qadağan edilməsi öhdəliyi qoyur, çünki siqaretin tək-tək və kiçik qutularda satışı siqaretlərin yetkinlik yaşına çatmayanlar tərəfindən əldə edilmə imkanını artırır, siqareti onlar üçün daha əlçatan edir. “Tütün və tütün məmulatı haqqında” Qanun siqaret, papiros və siqarillaların ədədlə satışını qadağan edərək[82] bu tələbə ***uyğun gəlir***.[83]

Daha əvvəl də qeyd etdiyimiz kimi Konvensiyanın bütün maddələri bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və bir-birini tamamlayırlar. Öz növbəsində, tütün məmulatları satan avtomatların qadağan edilməsi yetkinlik yaşına çatmayanların tütün məmulatları əldə etmək imkanlarının azaldılmasına xidmət edir. Qanun tütün məmulatlarının avtomatlar vasitəsi ilə satışını qadağan edərək bu tələbə ***uyğun gəlir***.

Eləcə də, Qanunun 15.5-ci maddəsi tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə uşaq və malların satışı yerlərində tütün məmulatlarının satışını qadağan edir ki, bu da Konvensiyanın tələblərinə ***uyğundur.***

---

80 Maddə 15.3.6, “Tütün və tütün məmulatı haqqında” Qanun.
81 Maddə 15.4, yenə orada.
82 Maddə 15.3.8, yenə orada.
83 Təəssüf ki, praktikada bu müddəanın pozuntusuna çox rast gəlinir.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun[84] 9-cu maddəsi tütün məmulatlarının uşaqlara satılmasını, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, o cümlədən yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, habelə onların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, eləcə də tütün məmulatlarının istehsalı, daşınması, satışı və saxlanılması işlərində, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsini qadağan edir. Bu maddə yetkinlik yaşına çatmayanların tütün məmulatlarının satışında iştirakını qadağan edərək Konvenisyanın 16.7-ci maddəsində əks olunmuş yetkinlik yaşına çatmayanlar tərəfindən tütün məmulatlarının satılmasının qadağan edilməsi tələbinə ***uyğun gəlir.***[85]

***Eləcə də aşağıda bax:*** *5. Məsuliyyətlə bağlı məsələlər bölməsinin tövsiyələrinə*

### 4.3. Alternativ növlərin dəstəklənməsi və ətraf mühitin qorunması

***Çərçivə Konvensiyası***

***Maddə 17. İqtisadi cəhətdən həyat qabiliyyətli fəaliyyətin alternativ növlərinin dəstəklənməsi***

*Tərəflər digər Tərəflər və səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlarla əməkdaşlıq edərək, tütünün emalı və yetişdirilməsi ilə məşğul olan şəxslərin, müvafiq hallarda isə ayrı-ayrı satıcıların maraqları naminə lazımi hallarda iqtisadi cəhətdən həyat qabiliyyətli alternativlərə dəstək verirlər.*

***Maddə 18. Ətraf mühitin və insan sağlamlığının qorunması***

*Tərəflər öz ərazilərində tütünün yetişdirilməsi və tütün məmulatının istehsalı ilə əlaqədar bu Konvensiyadan irəli gələn öhdəlikləri yerinə yetirərkən ətraf mühitin və ətraf mühitlə əlaqədar insanların sağlamlığının qorunmasına dair məsələlərin lazımi şəkildə nəzərə alınacağı ilə razılaşırlar.*

***“Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu***

***Maddə 9. Tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin təşkili***

*9.2. Tütün məmulatları tullantılarının ətraf mühitə atılması qadağandır. Onların*

---

[84] “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu, № 499-IQ, 19 may 1998-ci il.
[85] Praktikada bu müddəanın da pozulması hallarına çox rast gəlinir.

*utilizasiyası qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.* - ***(qismən uyğun gəlir)***

**Şərh:**

Çərçivə Konvensiyasının 17 və 18-ci maddələrinin əsas hədəfləri tütün istehsalçılarına alternativ məhsulların istehsalı üzrə dəstək verilməsi, bu sahədə işləyənlərin, eləcə də işləyib işsiz qalanların yeni iş imkanları ilə təmin olunması, tütünün yetişdirildiyi və emal olunduğu torpaqlarda ətraf mühitin və insan sağlamlığının qorunması üçün tədbirlər görülməsidir. Xüsusi yaradılmış işçi qrupun Çərçivə Konvensiyasının 17 və 18-ci maddələri ilə bağlı hazırladığı hesabatda dövlətlərə mövcud olan ən yaxşı təcrübələrə əsaslanmış iqtisadi cəhətdən davamlı alternativ layihələri dəstəkləyən siyasət və proqramlar həyata keçirmək tövsiyə olunur. Alternativ layihələr tütün istehsalçılarının və işçilərinin yaşayışının bütün aspektlərini (sağlamlıq, iqtisadi, sosial, ətraf mühitlə əlaqədar və təhlükəsiz qidalanma aspektləri) əhatə edən vahid çərçivə daxilində həyata keçirilməlidir.[86]

Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsində tütün yetişdirilməsi az yer tutsa da tütün məhsullarının istehsalı ilə məşğul olan müəssisələr çoxdur. Ancaq bu istiqamətdə Azərbaycan Respublikasında hər hansı proqram və ya siyasət qəbul edilməmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, ÜST-nin işçi qrupu belə proqramların hazırlanmasında mövcud olan ən yaxşı təcrübələrə əsaslanmağı tövsiyə edir. Türkiyə Respublikasının Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi 2001-ci ildən başlayaraq Alternativ Məhsul proqramını və 2006-cı ildən isə Ətraf Mühitlə əlaqədar Kənd Təsərrüfatı Ərazilərinin Qorunması Layihəsini[87] həyata keçirir ki, Azərbaycan Respublikası bənzər proqramların hazırlanmasında ən yaxşı təcrübə olaraq Türkiyənin təcrübəsindən istifadə edə bilər.

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununu[88] ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədi ilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir. Ancaq sözü gedən Qanunda tütünün becərilməsi və yetişdirilməsi ilə məşğul olan müəssisələrin ətraf mühitin mühafizəsini təmin etməsini və həmin müəssisələrdə çalışan şəxslərin sağlamlığını nəzərə alacaq konkret müddəalar yoxdur. Eyniliklə, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunun 9.2.-ci maddəsində yalnız tütün məmulatları tullantılarının ətraf mühitə atılması qadağan edilir.

[86] Economically sustainable alternatives to tobacco growing (in relation to Article 17 and 18 of the WHO Framework Convention on Tobacco Control) Report by the working group. FCTC/COP/5/10. 17 July 2012. P.11-12.

[87] Alternativ Ürün Programı ve Çevre Amaçlı Tarım Arazilerinin Korunması Projesi. Daha ətraflı bax: T.C.Gida Tarim ve Hayvancilik Bakanliği. Tütün Kontrolü Çerçeve Sözleşmesi. Ümit Bayram KUTLU Genel Müdür Yardımcısı. 25 Haziran 2014, Ankara. http://www.tarim.gov.tr/ABDGM/Belgeler/%C4%B0DAR%C4%B0%20%C4%B0%C5%9ELER/2014haziran/2.pdf

[88] "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, № 678-IQ, 8 iyun 1999-cu il.

***Tövsiyələr:***

- *Ən yaxşı təcrübə olaraq Türkiyə Respublikasının və digər ölkələrin təcrübəsinə əsaslanaraq iqtisadi cəhətdən davamlı alternativ layihələri dəstəkləyən proqramlar qəbul edilməsi tövsiyə olunur;*
- *Ətraf mühitin mühafizəsinə dair qanunvericilik tütünün ətraf mühitə vurduğu zərərə dair müddəaları da əks etdirərək daha da təkmilləşdirilməlidir.*

## 5. Məsuliyyətlə bağlı məsələlər

***Çərçivə Konvensiyası***

***Maddə 19. Məsuliyyət***

**1.** *Tütünə qarşı mübarizə məqsədilə Tərəflər zəruri olarsa, müvafiq hallarda kompensasiya daxil olmaqla, cinayət və mülki məsuliyyət məsələlərinin həlli üçün qanunvericilik tədbirlərinin həyata keçirilməsini və ya mövcud qanunvericiliyin inkişafını nəzərdən keçirirlər.*

*2. Tərəflər 21-ci Maddəyə müvafiq olaraq Tərəflərin Konfransları vasitəsilə məlumat mübadiləsi sahəsində bir-biri ilə əməkdaşlıq edirlər. Bura həmçinin daxildir:*

*(a) 20.3 (a) Maddəsinə müvafiq olaraq tütün məmulatından istifadənin və tütün tüstüsünün sağlamlığa təsirinin nəticəsi barədə məlumat; və*

*(b) qüvvədə olan qanunvericilik və qaydalar, həmçinin müvafiq məhkəmə təcrübəsi barədə məlumat.*

*3. Müvafiq hallarda və qarşılıqlı razılaşmaya əsasən, Tərəflər milli qanunvericilik, siyasət, hüquqi təcrübə və tətbiq edilən mövcud müqavilə mexanizmləri çərçivəsində bu Konvensiyaya uyğun olaraq mülki və cinayət məsuliyyəti ilə əlaqədar prosessual hərəkətlərin həyata keçirilməsində bir-birinə yardım göstərirlər.*

*4. Konvensiya heç bir halda Tərəflərin bir-birinin məhkəmə orqanlarına müraciəti hüququna toxunmur və ya onu məhdudlaşdırmır; bu hal belə qaydaların mövcud olduğu şəraitdə mümkündür.*

*5. Tərəflərin Konfransı müvafiq beynəlxalq forumlarda aparılmış işləri nəzərə alaraq, məsuliyyətlə əlaqədar məsələləri imkan daxilində erkən mərhələdə nəzərdən keçirə bilər. Bura həmçinin həmin məsələlərə lazımi beynəlxalq yanaşmalar və Tərəflərin xahişi ilə onlara bu Maddəyə əsasən qanunvericilik və digər fəaliyyətlərində yardım göstərilməsi üçün lazımi vasitələr də aiddir.*

***"Tütün və tütün məmulatı haqqında" Qanun***

***Maddə 24. Tütün və tütün məmulatı haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan ziyanın ödənilməsi***

*24.1. Tütün və tütün məmulatı haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan ziyanın həcmi və ödənilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.*

*24.2. Vurulan ziyanın ödənilməsi təqsirkar olan şəxsləri qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətdən azad etmir.* - ***(qismən uyğun gəlir).***

***"Əhalinin sağlamlığının qorunması haqqında" Qanun***

***Maddə 57. Vətəndaşların sağlamlığına vurulan ziyanın ödənilməsi (çıxarış)***

*Vətəndaşların sağlamlığına zərər vurulduqda təqsirkar şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada və həcmdə ziyanı ödəməyə borcludurlar.*

*...*

*Ətraf mühitin çirklənməsi nəticəsində vətəndaşların sağlamlığına vurulan ziyan qanunvericilikdə müəyyən edilmiş qaydada ziyan vuran hüquqi və fiziki şəxslər tərəfindən ödənilir.* - ***(qismən uyğun gəlir)***

***Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi***

***Maddə 212. Tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsi***

*212.1. Bu Məcəllənin 299, 305, 306.4, 318 və 322.0.4-cü maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə-otuz manat məbləğində cərimə edilir.*

*212.2. Müəssisələrdə, idarələrdə, təşkilatlarda tütün çəkmək üçün xüsusi ayrılmış yerlərin sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchizinin və görünən yerlərdə "tütün çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə-vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.*

*212.3. Yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi -yüz manat məbləğində cərimə edilir.*

*212.4. Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə -əlli manat məbləğində cərimə edilir.*

*212.5. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə -vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.* - ***(qismən uyğun gəlir).***

***Maddə 299. Hava nəqliyyatında tütün çəkmə***

*Hava nəqliyyatında tütün çəkməyə görə-yüz manat məbləğində cərimə edilir.* - ***(qismən uyğun gəlir).***

***Maddə 305. Dəmir yolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkmə***

*Dəmir yolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkməyə görə - qırx manat məbləğində cərimə edilir.* - ***(qismən uyğun gəlir).***

***Maddə 306. Metropolitendən istifadə qaydalarının pozulması (çıxarış)***

*306.4. Eskalatorun sürahisini çıxarmağa, zərurət olmadan "Stop" açarından istifadə etməyə, stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda tütün çəkməyə, qatarın hərəkəti zamanı vaqonun qapılarını açmağa, qatarın yola düşməsini ləngitməyə, özbaşına dəmir yoluna düşməyə, qatarın idarəetmə kabinəsinə, xidməti-texniki otaqlara, ventilyasiya şaxtası köşklərinə, tunellərə və metropolitenin işçiləri üçün nəzərdə tutulan çəpərlənmiş ərazilərə daxil olmağa, açıq oddan, pirotexniki qurğulardan (fişəng, partlayıcı və sair) istifadə etməyə görə - əlli manat məbləğində cərimə edilir.* - ***(uyğun gəlir).***

***Maddə 318. Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkmə***

*Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkməyə görə - qırx manat məbləğində cərimə edilir.* - ***(qismən uyğun gəlir).***

***Maddə 322. Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması***

*322.0. Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulmasına, yəni:*

*322.0.4. müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və taksi minik avtomobilində tütün çəkilməsinə görə; - qırx manatdan əlli manatadək miqdarda cərimə edilir.* - ***(qismən uyğun gəlir).***

***Maddə 428. Reklam haqqında qanunvericiliyin pozulması (çıxarış)***

*428.10. Bu Məcəllənin 428.1 – 428.9-cu maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, reklamı qadağan olunmuş məhsulların, texnikanın, xidmətlərin reklamına, habelə reklam yayımının qanunla müəyyənləşdirilmiş qayda və tələblərinə əməl edilməməsinə görə -vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.*

*428.11. Bu Məcəllənin 428.1, 428.2, 428.3, 428.4, 428.4-1 və 428.10-cu maddələrində nəzərdə tutulmuş əməllərin teleradio yayımçısı tərəfindən törədilməsinə görə - vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.* - ***(uyğun gəlir).***

***Maddə 455. Etil (yeyinti) spirti və alkoqollu içkilər və energetik içkilər və ya tütün məmulatı ticarəti qaydalarının pozulması***

*455.1. Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının satışı qaydalarının pozulmasına görə - əlli manatdan səksən manatadək miqdarda cərimə edilir.*

*455.2. Etil (yeyinti) spirti, alkoqollu və energetik içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə - yüz manat məbləğində cərimə edilir.* - ***(uyğun gəlir).***

***Azərbaycan Respublikasının Cinayət Məcəlləsi***

***Maddə 205-1. Saxta aksiz markalarının və məcburi nişanların dövriyyəsi***

*Saxta aksiz markalarını və ya məcburi nişanları hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan malları saxta aksiz markaları ilə markalama və ya məcburi nişanlama ilə nişanlanmalı olan malları saxta məcburi nişanlama ilə nişanlama, fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədilə əldə etmə istisna olmaqla, saxta aksiz markaları ilə markalanmış və ya saxta məcburi nişanlama ilə nişanlanmış malları əldə etmə, saxlama və ya satma –iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.* - ***(uyğun gəlir).***

*Qeyd: Saxta aksiz markası ilə markalanmış və ya saxta məcburi nişanlama ilə nişanlanmış malları əldə edən, saxlayan və ya satan şəxs həmin malların digər şəxsdən alınmasını təsdiq edən ciddi hesabat blankı, elektron qaimə-faktura təqdim etdikdə cinayət məsuliyyətinə cəlb olunmur.*

Maddə 206. ***Qaçaqmalçılıq***

*206.1. Qaçaqmalçılıq, yəni Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə bu Məcəllənin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla malların və digər əşyaların xeyli miqdarda keçirilməsi—cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə edilməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*206.1-1. Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə —cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında cərimə edilməklə iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*206.1-2. Bu Məcəllənin 206.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə—cinayətin predmetin dəyərinin altmış faizindən səksən faizinədək miqdarında cərimə və ya cinayətin predmetin dəyərinin altmış faizindən səksən faizinədək miqdarında cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*206.2. Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi silahın və texnikanın, (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla) odlu silah və yaxud döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın*

*silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən və Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsinin xüsusi qaydaları müəyyən edilmiş materialların və avadanlıqların, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün müvafiq qaydalar müəyyən edilmiş strateji əhəmiyyətli xammalın, mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*206.3. Bu Məcəllənin 206.1 və ya 206.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:*

*206.3.1. təkrar törədildikdə;*

*206.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;*

*206.3.3. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə;*

*206.3.4. gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədildikdə - beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*206.4. Bu Məcəllənin 206.1 — 206.3-cü maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə - yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* - ***(uyğun gəlir).***

*Qeyd:*

*1. Bu Məcəllənin 206.1-ci maddəsində "xeyli miqdar" dedikdə, əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 206.1-1-ci maddəsində "külli miqdar" dedikdə, iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 206.1-2-ci maddəsində "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.*

*2. Bu Məcəllənin 206.2-ci maddəsində "mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar" dedikdə, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlər başa düşülür.*

**Şərh:**

Çərçivə Konvensiyasında tütünlə mübarizə sahəsində daxili qanunvericilikdə məsuliyyət nəzərdə tutulması və onun tütünə qarşı səmərəli mübarizənin təmin olunması istiqamətində əhəmiyyəti dəfələrlə vurğulanır. Çərçivə Konvensiyasının 4.5-ci maddəsində göstərilir ki, "tərəflərin hər birinin öz yurisdiksiyası çərçivəsində müəyyənləşdirdiyi kimi, məsuliyyətlə bağlı məsələlər tütünə qarşı hərtərəfli mübarizənin mühüm hissəsidir." Qeyd edək ki, Çərçivə Konvensiyasının 19-cu maddəsi daha çox tövsiyə xarakteri daşıyır və tərəflərin üzərinə birbaşa konkret həyata keçirmə öhdəlikləri qoymur; dövlətləri "cinayət və mülki məsuliyyət məsələlərinin həlli üçün qanunvericilik tədbirlərinin həyata keçirilməsini və ya mövcud qanunvericiliyin inkişafını nəzərdən keçirməyə" dəvət edir. 19-cu maddə konkret məsuliyyət qaydaları müəyyən etmir, zəruri olduqda müvafiq hallarda kompensasiya daxil olmaqla, cinayət və mülki məsuliyyət məsələlərinin həlli üçün qanunvericilik tədbirlərinin həyata keçirilməsini şərtləndirir.[89] Bu, Çərçivə Konvensiyasının layihəsi hazırlanarkən beynəlxalq müqavilədə konkret məsuliyyət qaydalarının praktikada ayrı-ayrı dövlətlər tərəfindən həyata keçirilməsində müəyyən çətinliklər yarada biləcəyi kimi ağlabatan ehtimalın mövcudluğundan irəli gəlirdi. Əhəmiyyətlidir ki, 2001-ci ilin

[89] İmplementation of Article 19 of the Convention: "Liability". FCTC/COP/4/13, 24 September 2010. P. 1

aprel ayında ÜST tərəfindən Çərçivə Konvensiyasının 19-cu maddəsinin təbiətini və miqyasını müəyyənləşdirmək üçün hüquq ekspertləri paneli çağırılmışdır.

Ekspertlərin apardığı tədqiqat əsasında belə qərara alındı ki, daxili hüquq sistemlərində tütünlə mübarizə sahəsində məsuliyyətin müəyyən edilməsi ilə bağlı müddəalar yaxşı inkişaf etmədiyi üçün Çərçivə Konvensiyasında beynəlxalq məsuliyyət rejiminin nəzərdə tutulması Konvensiyanın həyata keçirilməsində çətinlik yarada bilər. O da vurğulandı ki, məsuliyyət rejiminin Konvensiyaya daxil edilməsi dövlətlərin diqqətini tütünlə mübarizə sahəsində digər vacib məsələlərdən yayındıra bilər ki, bu da onlar üçün ümumilikdə tütünə qarşı mübarizə proqramının həyata keçirilməsini çətinləşdirə bilər; digər sahələrdə beynəlxalq məsuliyyət rejimini qəbul etməkdə dövlətlərin əvvəlki təcrübəsi yaxşı olmadığı üçün konkret məsuliyyət rejimi müəyyən olunduğu halda Çərçivə Konvensiyasına çox az dövlət qoşulacaq[90].

Bu gün bəzi ölkələrin qanunvericiliyi tütün sənayesinin vurduğu zərərə görə kompensasiya nəzərdə tutur. Bir sıra ölkələr (məsələn, Finlandiya, Yaponiya, Marşal Adaları, Norveç və Panama) ÜST-yə təqdim etdikləri hesabatda tütün istifadəsindən dəymiş zərərə görə kompensasiya almağa yönəlmiş məhkəmə işləri haqqında məlumatlar da daxil ediblər. Ekspertlərin araşdırmasında o da qeyd olunmuşdur ki, xəstəlik halında tütün istehsalçısına kompensasiya almaq üçün müraciət edə bilmək imkanı tütün istehlakçılarını tütündən istifadə etməyə ruhlandıra bilər, belə ki onlar xəstələnərlərsə kompensasiya alacaqlarından arxayın olacaqlar.[91]

Azərbaycan Respublikasının qanunvericiliyində tütün və tütün məmulatları ilə bağlı qaydaların pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi[92] (daha sonra İnzibati Xətalar Məcəlləsi) ilə müəyyən edilir.

*Tütün məmulatı ticarəti qaydalarının pozulması*

İnzibati Xətalar Məcəlləsinin 455.1.-ci maddəsi tütün məmulatlarının satışı qaydalarının pozulmasına görə 50 manatdan 80 manatadək miqdarda cərimə müəyyən edir.

*Tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satışı*

İnzibati Xətalar Məcəlləsinin 455.2.-ci maddəsi tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə 100 manat miqdarda cərimə nəzərdə tutur.

*İctimai nəqliyyatda tütün çəkilməsi*

İnzibati Xətalar Məcəlləsi hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkilməsinə görə 100 manat, dəmir yol nəqliyyatında 40 manat, dəniz və çay nəqliyyatında 40 manat, metropoliten stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda 50

[90] WHO. Secretariat update on the WHO consultation on potential liability and compensation provisions for the framework convention on tobacco control. A/FCTC/INB2/5 Rev.1, 6 July 2001. P. 3.

[91] Yenə orada.

[92] Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

manat, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və taksi minik avtomobilində 40 manatdan 50 manatadək cərimə müəyyən edir.

*Tütün məmulatının istehlakına dair məhdudiyyətlər*

İnzibati Xətalar Məcəlləsi həmin məcəllənin bəzi maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə 30 manat məbləğində cərimə müəyyən edir. Eləcə də, müəssisələrdə, idarələrdə, təşkilatlarda tütün çəkmək üçün xüsusi yerlərin sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchizinin və görünən yerlərdə "tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə vəzifəli şəxslərə 400 manat məbləğində, hüquqi şəxslərə 1000 manat məbləğində cərimə müəyyən edir.

İnzibati Xətalar Məcəlləsində tütünün ticarəti qaydaları və satışı ilə bağlı, eləcə də qadağan edilmiş yerlərdə tütün çəkilməsinə görə cərimələr nəzərdə tutulsa da hesab edirik ki, həmin qaydaların praktikada düzgün həyata keçirilməsinin təmin edilməsi üçün bir sıra cərimələr daha da artırılmalı və müvafiq mexanizmlərlə tənzimləmələr aparılmalıdır. Bununla belə, İnzibati Xətalar Məcəlləsinin 212.5.-ci maddəsi ilə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə - vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.

Çərçivə Konvensiyasının 19.1-ci maddəsi dövlətlərin üzərinə tütünə qarşı mübarizə məqsədi ilə cinayət və mülki məsuliyyət müəyyən edən qanunvericilik tədbirləri həyata keçirmək öhdəliyi qoyur. Azərbaycan Respublikasının qanunvericiliyində bu sahədə cinayət və mülki məsuliyyət müəyyən edən hər hansı müddəa yoxdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində[93] (daha sonra Cinayət Məcəlləsi) bir sıra müddəalar (saxta aksiz markalarını hazırlama, əldə etmə və ya satma; dələduzluq) vardır ki, tütün və tütün məmulatlarına dair qaydaların pozulması zamanı tətbiq oluna bilər. Bununla belə hesab edirik ki, qanunvericilikdə daha spesifik və daha sərt cəza növlərinin nəzərdə tutulması tütünə qarşı mübarizə istiqamətində daha səmərəli şərait yaradar və Çərçivə Konvensiyasının tələblərinə uyğunluğu təmin edər.

---

[93] 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.

Çərçivə Konvensiyası bu sahədə dəymiş zərərə görə kompensasiya müəyyənləşdirilməsinin qanunvericilikdə təsbit edilməsini nəzərdə tutur. Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Qanunun 6.1.6.-cı maddəsi, "Tütün və tütün məmulatı haqqında" Qanunun 24-cü maddəsi, eləcə də "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu [94] müvafiq qanunvericiliyin pozulması nəticəsində vurulan ziyanın həcmi və ödənilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edildiyini göstərsə də müvafiq qanunvericilikdə tütün istehlakçısının onun sağlamlığına vurduğu zərərə görə hər hansı tütün şirkətini məhkəməyə verib kompensasiya ala biləcəyini təmin edən hər hansı mülki və ya cinayət qanunvericiliyi müddəası yoxdur.

***Tövsiyələr:***

- *Tütünə qarşı mübarizə məqsədi ilə cinayət və mülki məsuliyyət müəyyən edən qanunvericilik tədbirləri həyata keçirilməlidir;*
- *Qanunvericilikdə tütün istehlakçısının onun sağlamlığına vurduğu zərərə görə hər hansı tütün şirkətini məhkəməyə verib kompensasiya ala biləcəyini təmin edən müddəa əks olunmalıdır;*
- *İnzibati Xətalar Məcəlləsində tütünün ticarəti qaydaları və satışı ilə bağlı, ictimai nəqliyyatda, eləcə də qanunvericiliklə qadağan edilmiş yerlərdə siqaret çəkilməsinə görə nəzərdə tutulan cərimələr artırılmalı* və müvafiq mexanizmlərlə tənzimləmələr aparılmalıdır*;*
- *Qanunvericilikdə tütün məmulatlarının satışı ilə əlaqədar bəzi müddəaların (məsələn, siqaret və digərlərinin ədədlə satışı) qadağan olunsa da praktikada çox pozulduğunu nəzərə alaraq İnzibati Xətalar Məcəlləsində spesifik olaraq bu müddəanın pozulmasına dair daha yüksək cərimənin müəyyən edilməsi tövsiyə olunur;*

## 6. Dövlətlərin Konvensiya üzrə ümumi öhdəlikləri

***Çərçivə Konvensiyası***
***Maddə 5. Ümumi öhdəliklər***

*1. Tərəflərdən hər biri bu Konvensiya və Tərəfi olduğu protokollara uyğun olaraq, tütünə qarşı mübarizə üzrə hərtərəfli çoxsektorlu milli strategiyaları, planları və proqramları hazırlayır, həyata keçirir, vaxtaşırı olaraq təzələyir və yenidən nəzərdən keçirir.*

[94] "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. №360-IQ, 26 iyun 1997-ci il.

*2. Bu məqsədə çatmaq üçün hər bir Tərəf öz imkanlarına uyğun olaraq:*
*(a) tütünə qarşı mübarizə üzrə milli koordinasiya mexanizmi və ya koordinasiya orqanlarını yaradır, yaxud möhkəmləndirir və maliyyələşdirir; və*
*(b) səmərəli qanunvericilik, icra, inzibati və/və ya digər tədbirlər barədə qərar qəbul edir, bunları həyata keçirir və müvafiq hallarda tütündən istifadənin, nikotin asılılığının və tütün tüstüsünün təsirinin qarşısının alınması və azaldılması ilə bağlı uyğun siyasətin işlənib hazırlanmasında digər Tərəflərlə əməkdaşlıq edir.*

*3. Tütünə qarşı mübarizə üzrə özünün ictimai səhiyyə siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi zamanı Tərəflər elə hərəkət edirlər ki, milli qanunvericiliyə uyğun olaraq, öz siyasətini tütün sənayesinin kommersiya və digər korporativ maraqlarının təsirindən qorusunlar.*

*4. Tərəflər bu Konvensiyanın və Tərəfləri olduqları protokolların həyata keçirilməsi üçün təklif olunan tədbir, prosedur və rəhbər prinsiplərin işlənib hazırlanması sahəsində əməkdaşlıq edirlər.*

*5. Tərəflər bu Konvensiyanın və Tərəfləri olduqları protokolların məqsədlərinə nail olmaq üçün müvafiq hallarda, səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlarla və digər orqanlarla əməkdaşlıq edirlər.*

*6. Tərəflər bu Konvensiyanın səmərəli həyata keçirilməsi üçün maliyyə resurslarını səfərbər etməkdən ötrü ikitərəfli və çoxtərəfli maliyyələşdirmə mexanizmlərinin köməyi ilə öz sərəncamlarında olan vasitə və resurslar çərçivəsində əməkdaşlıq edirlər.*

***"Tütün və tütün məmulatları haqqında" Qanun (çıxarış)***

***Maddə 4. Tütünün və tütün məmulatının istehsalının və dövriyyəsinin dövlət tənzimlənməsi***

*4.0. Tütünün və tütün məmulatının istehsalının və dövriyyəsinin dövlət tənzimlənməsi aşağıdakıları nəzərdə tutur:*

*... ...*

*4.0.4. tütün istehsalçılarının fəaliyyətini stimullaşdırmaq və sosial müdafiəsini təmin etmək;* - ***(uyğun gəlmir)***

***Maddə 8. Tütünçülüyün inkişafı üzrə iqtisadi tənzimlənmə tədbirləri***

*8.1. Tütünçülük sahəsində elmi-tədqiqat və sort-sınaq işlərinin aparılması dövlət büdcəsi və cəlb olunan digər vəsaitlər hesabına maliyyələşdirilir.*

*8.2. Qiymətli və keyfiyyətli tütünün istehsalını stimullaşdırmaq məqsədilə tütün istehsalçılarına və tütün emalı müəssisələrinə azı bir il müddətinə verilən güzəştli kreditlər üzrə güzəşt məbləği sahibkarlığa yardım fondunun və bu kimi digər proqramların vəsaiti hesabına ödənilir. Belə kreditlər hesabına həyata keçirilən layihələr çərçivəsində becərilən tütün əkinlərinin (məhsulun) təbii fəlakətdən sığortalanması büdcə vəsaiti hesabına aparılır.*

*8.3. Məqsədli kreditlərin verilməsi, qaytarılması və tütün əkinlərinin (məhsulunun) sığortalanması qaydaları qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. – **(uyğun gəlmir).***

***Maddə 9. Tütün istehsalçılarına dövlət himayəsi***

*9.1. Azərbaycan Respublikasında istehsal olunan tütün məhsulundan tütün məmulatının istehsalı dövlət tərəfindən stimullaşdırılır.*

*9.2. Tütün istehsalçıları ilə uzunmüddətli müqavilə əsasında kooperasiya əlaqələri quran, onlara resurslarla yardım edən və məhsullarını istehsal olunduğu ilin sonuna qədər satın alan tütün emalı müəssisələrinə məqsədli kreditlər alınmasında üstünlük hüququ verilir.*

*9.3. Tütünçülükdə mütərəqqi texnikanın və texnologiyanın tətbiqini təmin etmək məqsədilə lizinq əsasında texniki xidmətin, bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrlə təchizatın təşkili sahəsində sahibkarlıq fəaliyyəti stimullaşdırılır.*

*9.4. Tütün istehsalçılarına dövlət himayəsinin, habelə qiymətli və keyfiyyətli tütün istehsalının stimullaşdırılmasının digər forma və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla tənzimlənir. - **(uyğun gəlmir).***

***Maddə 20. Tütün məmulatının satışında həvəsləndirmə üsullarının məhdudlaşdırılması (çıxarış)***

*20.2. Tütün məmulatının istehsalçıları tütünün və tütün məmulatının reklamını əks etdirməyən sosial, mədəni və təhsil tədbirlərinin sponsorluğu və reklamı zamanı öz firma adlarından maneəsiz istifadə edirlər. - **(uyğun gəlmir).***

***"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun (çıxarış)***
***Maddə 3. Tütündən istifadənin nəticələrindən qorunmanın əsas prinsipləri(çıxarış)***

*3.0.5. həyat və sağlamlığın qorunmasının tütün istehsalçılarının mənafelərindən üstünlüyü;*

*3.0.6. tütündən istifadənin nəticələrindən qorunma sahəsində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığının təmin edilməsi;*

*3.0.7. dövlətin, bələdiyyələrin, vətəndaşların, tütün təşkilatları ilə əlaqədar olmayan fərdi sahibkarların, hüquqi şəxslərin və qanunvericiliyə uyğun olaraq yaradılmış digər qurumların qarşılıqlı fəaliyyəti;*

*3.0.8. ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin aşkarlığı və səmərəliliyinin müstəqil qiymətləndirilməsi - **(uyğun gəlir).***

***Maddə 9. Tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin təşkili (çıxarış)***

*9.1.2. tütün məmulatlarına tələbatın azaldılmasına yönəlmiş qiymət, vergi və (və ya) rüsum tədbirləri;*

*9.1.4. tütün satışının bilavasitə və ya dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növlərinin qadağan edilməsi;*

*9.1.6. tütün məmulatlarının qeyri-qanuni dövriyyəsinin qarşısının alınması;*

*9.1.7. tütün məmulatlarının dövriyyəsinin məhdudlaşdırılması.* - ***(uyğun gəlir).***

**Şərh:**

***6.1. Tütün sənayesinin inkişafını* stimullaşdırmamaq**

Çərçivə Konvensiyasının 5-ci maddəsi Tərəflər üçün ümumi öhdəlikləri müəyyənləşdirərək digər maddələrin həyata keçirilməsi istiqamətində əsas fundament rolunu oynayır. Xüsusilə də 5-ci maddənin 3-cü bəndi özünəməxsus əhəmiyyət kəsb edir ki, onun əsas məqsədi yürüdülən dövlət siyasətini tütün sənayesinin maraqlarının təsirindən qorumaqdır. Bu müddəa təmin edir ki, dövlət öz siyasətini əsas niyyəti mənfəətini artırmaq üçün insanları tütündən istifadəyə sövq etmək olan tütün sənayesinin müdaxiləsi olmadan həyata keçirə bilsin.

Çərçivə Konvensiyasının 5.3-cü maddəsinin həyata keçirilməsinin Rəhbər Prinsiplərində göstərilir ki, tütün məmulatları ölümlə nəticələndiyi üçün tütün sənayesinə öz biznesini qurmaq və ya inkişaf etdirmək üçün stimullar verilməməlidir.[95] Bu baxımdan "Tütün və tütün məmulatı haqqında" Qanunun 4.0.4-cü maddəsində əks olunmuş "tütün istehsalçılarının fəaliyyətini stimullaşdırmaq və sosial müdafiəsini təmin etmək" müddəası, eləcə də həmin Qanunun 9.1-ci maddəsində göstərilmiş "Azərbaycan Respublikasında istehsal olunan tütün məhsulundan tütün məmulatının istehsalı dövlət tərəfindən stimullaşdırılır" müddəası Çərçivə Konvensiyasının 5.3-cü maddəsinə ***uyğun gəlmir.*** Eləcə də həmin Qanunun 9.3-cü maddəsində tütün sənayesində mütərəqqi texnikanın tətbiqini təmin etmək məqsədi ilə müvafiq təchizatın təşkili sahəsində sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının nəzərdə tutulması Çərçivə Konvensiyasına ***uyğun deyil.*** Digər tərəfdən, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun 9.1.4-cü maddəsində tütün satışının bilavasitə və ya dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növlərinin qadağan edilməsi, 9.1.2.-ci maddəsində tütün məmulatlarına tələbatın azaldılmasına yönəlmiş qiymət, vergi və (və ya) rüsum tədbirlərinin nəzərdə tutulması Çərçivə Konvensiyasına ***uyğun gəlir.***

[95] Guidelines for İmplementation of Article 5.3 of the WHO Framework Convention on Tobacco Control. P. 3. See at http://www.who.int/fctc/guidelines/article_5_3.pdf

### *6.2. Preferensial rejimin tətbiq olunmaması*

Rəhbər Prinsiplərdə dövlətlərə tütün sənayesi üçün preferensial rejim yaratmamaq tövsiyə olunur[96]. "Tütün və tütün məmulatı haqqında" Qanunun 9.2-ci maddəsində tütün istehsalçıları ilə uzunmüddətli müqavilə əsasında kooperasiya əlaqələri quran, onlara resurslarla yardım edən və məhsullarını istehsal olunduğu ilin sonuna qədər satın alan tütüm emalı müəssisələrini məqsədli kreditlər alınmasında üstünlük hüququnun verilməsi Çərçivə Konvensiyasının 5.3-cü maddəsinə ***uyğun gəlmir.***

"Tütün və tütün məmulatı haqqında" Qanunun tütünçülüyün inkişafı üzrə iqtisadi tənzimləmə tədbirləri nəzərdə tutan 8-ci maddəsi də Çərçivə Konvensiyasının 5-ci maddəsinə ***uyğun deyil.***

Digər tərəfdən, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun 3.0.5.-ci maddəsində həyat və sağlamlığın qorunmasının tütün istehsalçılarının mənafelərindən üstünlüyü qeyd olunur ki, bu da Çərçivə Konvensiyasına ***uyğun gəlir.***

### *6.3. Korporativ sosial məsuliyyət*

Çərçivə Konvensiyasının 5.3-cü Maddəsinin həyata keçirilməsinə dair Tərəflərin Konfransı tərəfindən yaradılmış işçi qrupun hazırladığı Rəhbər Prinsiplərdə korporativ sosial məsuliyyət tütünə qarşı mübarizə üzrə ictimai səhiyyə siyasətinin tütün sənayesinin kommersiya və digər korporativ maraqlarının təsirindən qorunması baxımından müzakirə olunur. Çərçivə Konvensiyasının 13-cü maddənin həyata keçirilməsinin Rəhbər Prinsipləri bu məsələyə daha aydınlıq gətirərək qeyd edir ki, "Tütün şirkətləri dəyərli işlərə ödənişlər edərək və ya digər üsulla özlərinin "sosial məsuliyyətli" işgüzar təcrübələrinin elementlərini fəallaşdıraraq, daha tez-tez özlərini cəmiyyətin maraqlarının qeydinə qalan kimi təqdim etməyə cəhd edirlər. Bəzi tütün şirkətləri ya birbaşa, ya da digər müəssisələr vasitəsilə kommunal, səhiyyə təşkilatları, sosial təminat və ətraf mühitin mühafizəsi kimi təşkilatlara maliyyə ödənişləri və ya natura ödənişləri aparır. Belə ödəmələr Konvensiyanın 1(g)-ci Maddəsində tütünün sponsorluğunun tərifi ilə üst-üstə düşür və tam qadağan çərçivəsində qadağan edilməlidir, belə ki, belə ödəmələrin nəticəsi və ya güman edilən nəticəsi tütün məmulatının satışının və ya tütündən istifadənin birbaşa və ya dolayı yolla stimullaşdırılmasıdır. Tütün şirkətləri digər tərəflərə ianələr nəzərdə tutmayan "sosial məsuliyyətli" (məsələn, işəgötürən və qulluqçular arasında yaxşı münasibətlər yaradaraq və ya ətraf mühitin idarə edilməsində iştirak edərək) işgüzar praktika həyata keçirməyə cəhd edə bilərlər. Başqa münasibətlərdə bəyənilən belə fəaliyyətə kömək qadağan edilməlidir, belə ki, onun məqsədi, nəticəsi və ya güman edilən nəticəsi tütün məmulatının satışının və ya tütündən istifadənin birbaşa və ya dolayı yolla stimullaşdırılmasıdır. Tələb edilən korporasiya hesabatı (məsələn, illik hesabatlar) və ya

[96] Yenə orada, səh. 4.

zəruri inzibati məqsədlər (məsələn, işə qəbuletmə məqsədləri və təchizatçılarla informasiya mübadiləsi üçün) istisna olmaqla, belə informasiyanın ictimaiyyətə yayılmasını qadağan etmək lazımdır. Tütün firmaları tərəfindən "gənclər arasında siqaretçəkmənin qarşısının alınması" kimi əhalinin maarifləndirilməsi kampaniyalarını bu əsasla qadağan etmək lazımdır ki, onları digər tərəflər yerinə yetirəndə "ödəmələr" daxil olur və ya tütün sənayesinin özü tərəfindən aparılanda korporativ reklam yaranır"[97]. Rəhbər Prinsiplər tövsiyə edir ki, tərəflərə tütün firmalarından istənilən digər qurumlara "sosial məsuliyyətli tədbirlər"ə görə ödəmələri qadağan etməlidirlər, belə ki, bu, sponsorluqdur. Tütün sənayesinin "sosial cəhətdən məsul" biznes praktikasına verilmiş aşkarlığın qadağan edilməsi lazımdır, belə ki, bu, reklamı və satışın stimullaşdırılmasını yaradır. Qeyd edək ki, bu müddəa, yəni tütün şirkətlərinin korporativ sosial məsuliyyət kimi xarakterizə olunacaq fəaliyyətinin qadağan olunması Azərbaycan Respublikasının qanunvericiliyində ***öz əksini tapmır.*** Eləcə də "Tütün və tütün məmulatı haqqında" Qanunda tütün istehsalçılarına tütün və tütün məmulatının reklamını əks etdirməyən sosial, mədəni və təhsil tədbirlərinin sponsorluq və reklamı zamanı öz firma adlarından maneəsiz istifadə edə bilmək imkanının verilməsi tamamilə Çərçivə Konvensiyasına ***ziddir.*** Belə ki, Çərçivə Konvensiyasının 5.3-cü maddəsinə uyğunluğu təmin etmək üçün tütün məmulatı istehsalçılarına ümumilikdə sosial, mədəni və təhsil tədbirlərinin sponsorluğu və reklamı qadağan edilməlidir. Bu baxımdan "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun 9.1.4-cü maddəsində tütün satışının bilavasitə və ya dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növlərinin qadağan edilməsi məsələsi Çərçivə Konvensiyasına ***uyğun gəlir.***

### *6.4. Maraqların münaqişəsinə yol verilməməsi*

5.3-cü maddənin həyata keçirilməsinin Rəhbər Prinsiplərində hökumətin vəzifəli şəxsləri və qulluqçuları tərəfindən maraqların münaqişəsinin yaranmasına yol verilməməsinin əhəmiyyəti xüsusi vurğulanır. Maraqların münaqişəsini yarada biləcək səbəblər olaraq tütün sənayesi tərəfindən dövlət orqanlarına, vəzifəli şəxslərə və ya qulluqçulara pul və ya natura şəklində təklif olunan ödənişlər, hədiyyələr və xidmətlər, eləcə də elmi araşdırmaların maliyyələşdirilməsi qeyd olunur. Dövlətlərə tövsiyə olunur ki, tütün sənayesi ilə əlaqədə olarkən dövlətin vəzifəli şəxslərinin riayət etməli olduqları davranış standartlarını əks etdirən davranış qaydası hazırlanıb təsdiq olunsun.[98] Azərbaycan Respublikasında belə bir davranış kodeksi hazırlanmayıb.

---

[97] WHO Framework Convention on Tobacco Control. Guidelines for Implementation of Article 13 of the WHO Framework Convention on Tobacco Control, 2011. P. 97.

[98] Guidelines for İmplementation of Article 5.3 of the WHO Framework Convention on Tobacco Control p.5. See at http://www.who.int/fctc/guidelines/article_5_3.pdf

### *6.5. Milli koordinasiya mexanizmi*

Çərçivə Konvensiyasının 5-ci maddəsinin 1-ci bəndi dövlətlərdən tütünə qarşı mübarizə sahəsində Milli koordinasiya mexanizmi və ya koordinasiya orqanlarının yaradılmasını və onun fəaliyyətinin maliyyələşdirilməsini tələb edir. Azərbaycan Respublikasında bu sahədə hər hansı Milli koordinasiya mexanizmi yaradılmamışdır.

***Tövsiyələr:***

- *"Tütün və tütün məmulatı haqqında" Qanunun 4.0.4, 8, 9 və 20.2-ci maddələri çıxarılmalıdır;*
- *Tütün sənayesi ilə əlaqədə olarkən dövlətin vəzifəli şəxslərinin riayət etməli olduqları davranış standartlarını əks etdirən davranış qaydası hazırlanıb təsdiq olunmalıdır;*
- *Tütünə qarşı mübarizə sahəsində Milli koordinasiya mexanizmi və ya koordinasiya orqanları yaradılmalı və onun fəaliyyətini maliyyələşdirilməlidir.*

## 7. Elmi-texniki əməkdaşlıq və məlumatın çatdırılması

***Çərçivə Konvensiyası***
***Maddə 20. Elmi tədqiqatlar, epidemioloji nəzarət və məlumat mübadiləsi***

*1. Tərəflər regional və qlobal səviyyələrdə tütünə qarşı mübarizə sahəsində milli tədqiqatların inkişafı və onlara yardım, habelə elmi tədqiqat proqramlarının koordinasiyası üzrə tədbirlər həyata keçirirlər. Bu məqsədə nail olmaq üçün Tərəflərin hər biri:*
*a) tədqiqatların və elmi qiymətləndirmələrin aparılmasında bilavasitə və ya səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlar və digər orqanlar vasitəsilə əməkdaşlığa təşəbbüs göstərir və onu həyata keçirirlər. Eyni zamanda determinant, tütündən istifadənin nəticələri və tütün tüstüsünün təsiri, eləcə də alternativ bitkilərin tapılmasına yönəldilmiş tədqiqatlara kömək edir və dəstəkləyir; və*
*b) səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatların və digər orqanların dəstəyi ilə tütünə qarşı mübarizə aparanların, o cümlədən elmi tədqiqatlar, onların həyata keçirilməsi və qiymətləndirilməsi ilə məşğul olanların təlim görməsini və onların dəstəklənməsini inkişaf etdirir və möhkəmləndirir.*

*2. Müvafiq hallarda Tərəflər tütündən istifadənin miqyası, strukturu, determinantları və nəticələri, həmçinin tütün tüstüsünün təsiri üzrə milli, regional və qlobal epidnəzarət proqramları yaradırlar. Bu məqsədlə Tərəflər müvafiq hallarda regional və beynəlxalq səviyyələrdə məlumatların müqayisəsini və onların təhlilinin mümkünlüyünü təmin etmək üçün tütün üzərində epidnəzarət proqramlarını sağlamlığa epidnəzarət üzrə milli, regional və qlobal proqramlara daxil edirlər.*

*3. Tərəflər beynəlxalq və regional hökumətlərarası təşkilatların və digər orqanların göstərdiyi maliyyə və texniki yardımın əhəmiyyətini etiraf edirlər. Hər bir Tərəf aşağıdakıları həyata keçirməyə səy göstərir:*

*(a) tədricən tütündən istifadə, müvafiq sosial və iqtisadi göstəricilər, sağlamlıq göstəriciləri üzrə milli epidemioloji nəzarət sistemi yaratmaq;*

*(b) tütünə regional və qlobal epidnəzarət, bu Maddənin 3(a) bəndində qeyd edilmiş göstəricilərə dair məlumat mübadiləsi üzrə səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlar və digər orqanlarla, o cümlədən hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;*

*(c) tütünlə əlaqədar epidnəzarət məlumatının toplanması, təhlili və yayılmasının müəyyənləşdirilməsi üçün ümumi rəhbər prinsip və prosedurların işlənib hazırlanmasında Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq etmək.*

*4. Milli qanunvericiliklərinə uyğun olaraq, Tərəflər açıq elmi-texniki, sosial-iqtisadi, kommersiya və hüquqi məlumatların, həmçinin tütün sənayesi və tütün yetişdirilməsi təcrübəsinə dair bu Konvensiyaya aidiyyəti olan məlumatın mübadiləsinə yardım göstərir və onu asanlaşdırırlar; bu zaman inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin xüsusi tələbatları nəzərə alınır və onlara baxılır. Tərəflərin hər biri aşağıdakıları həyata keçirməyə səy göstərir:*

*(a) tütünə qarşı mübarizəni tənzimləyən qanun və qaydalardan, müvafiq hallarda isə onlara riayət olunmasının təminatı, həmçinin müvafiq məhkəmə praktikası haqqında informasiyalardan ibarət təzələnmiş məlumat bazasını tədricən yaratmaq və onu dəstəkləmək, regional və qlobal səviyyələrdə tütünə qarşı mübarizə proqramlarının işlənib hazırlanmasında əməkdaşlıq etmək;*

*(b) bu Maddənin 3(a) bəndinə müvafiq olaraq milli epidnəzarət proqramlarından alınan təzələnmiş məlumat bazasını tədricən yaratmaq və onu dəstəkləmək;*

*(c) tütün istehsalına və tütün məmulatının hazırlanmasına dair məlumatın müntəzəm olaraq toplanması və yayılması üçün qlobal sistemin tədricən yaradılması və dəstəklənməsi məqsədilə səlahiyyətli beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək; bura həmçinin bu Konvensiya və ya tütünə qarşı mübarizədə milli fəaliyyətə təsir göstərən tütün sənayesinin fəaliyyəti barədə məlumat da daxildir.*

*5. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin tədqiqatlar, epidnəzarət və informasiya mübadiləsi üzrə öhdəliklərini yerinə yetirməsinə Katibliyin kömək edə bilməsi üçün ona texniki və maliyyə resursları verilməsinə yardım göstərmək və həvəsləndirmək məqsədilə Tərəflər regional və beynəlxalq hökumətlərarası təşkilatlar və maliyyə qurumları və eləcə də üzvləri olduqları və inkişaf məsələləri ilə məşğul olan qurumlar çərçivəsində əməkdaşlıq etməlidirlər.*

***Maddə 21. Hesabat verilməsi və məlumat mübadiləsi***

*1. Tərəflərin hər biri Konvensiyaya əməl etməsi barədə Katiblik vasitəsilə vaxtaşırı olaraq Tərəflərin Konfransına aşağıdakıları əhatə edən hesabatlar təqdim edir:*

*(a) Konvensiyaya əməl etmək məqsədilə həyata keçirilmiş qanunverici, icra, inzibati və digər tədbirlərə dair məlumat;*

*(b) müvafiq hallarda, Konvensiyaya əməl edərkən ortaya çıxmış hər hansı maneə və ya əngəllər və bunların aradan qaldırılması üçün həyata keçirilmiş tədbirlər barədə məlumat;*

*(c) müvafiq hallarda, tütünə qarşı mübarizə fəaliyyəti üçün verilmiş və ya alınmış maliyyə və texniki yardım barədə məlumat;*

*(d) 20-ci Maddədə göstərildiyi kimi, epidnəzarət və tədqiqatlar barədə məlumat;*

*(e) 6.3, 13.2, 13.3, 13.4 (d), 15.5 və 19.2-ci maddələrdə göstərilmiş məlumat.*

*2. Bütün Tərəflərin belə hesabatları təqdim etmə müddətlərini və formasını Tərəflərin Konfransı müəyyən edir. Tərəflərin hər biri ilkin hesabatını Konvensiyanın həmin Tərəf üçün qüvvəyə mindiyi tarixdən sonra iki il müddətində hazırlamalıdır.*

*3. 22 və 26-cı maddələrə əsasən Tərəflərin Konfransı inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin xahişi ilə onlara bu maddəyə əsasən üzərlərinə düşən öhdəliklərin yerinə yetirilməsində yardım göstərilməsinə dair tədbirləri nəzərdən keçirir.*

*4. Bu Konvensiyaya əsasən məruzələrin təqdimatı və məlumat mübadiləsi məxfiliyin və şəxsi həyatın toxunulmazlığının təmin edilməsi sahəsində milli qanunvericiliyə müvafiq olaraq aparılır. Qarşılıqlı razılıq əsasında Tərəflər mübadilə etdikləri istənilən məxfi məlumatın qorunmasını təmin edirlər.*

***Maddə 22. Elmi-texniki və hüquqi sahələrdə əməkdaşlıq və müvafiq təcrübənin təqdim edilməsi***

*1. Tərəflər inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin tələbatmı nəzərə almaqla, bu Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə potensiallarmı möhkəmləndirmək məqsədilə, birbaşa və ya səlahiyyətli beynəlxalq orqanlar vasitəsilə əməkdaşlıq edirlər. Belə əməkdaşlıqda məqsəd tütünə qarşı mübarizə sahəsində aşağıdakılara yönəldilmiş milli strategiyalar, planlar və proqramların işlənib hazırlanması və möhkəmləndirilməsi üçün qarşılıqlı razılaşmaya əsasən elmi-texniki və hüquqi təcrübənin mübadiləsinə kömək etməkdir. Bu əməkdaşlıq əsasən aşağıdakı istiqamətlərə yönəldilir:*

*a) tütünə qarşı mübarizə ilə əlaqədar texnologiya, bilik, səriştə, potensial və təcrübənin işlənib hazırlanması, ötürülməsi və əldə edilməsinə yardım;*

*b) tütünə qarşı mübarizə sahəsində xüsusən aşağıdakılar vasitəsilə Konvensiyanın həyata keçirilməsinə yönəldilmiş milli strategiyaların, planların və proqramların yaradılması və möhkəmləndirilməsi üçün elmi-texniki, hüquqi və digər təcrübənin təqdim edilməsi:*

*i) müvafiq xahişə əsasən möhkəm qanunvericilik bazasının, həmçinin texniki proqramların, o cümlədən tütündən istifadəyə başlanmasının qarşısının alınması, ondan istifadənin*

*dayandırılmasına yardım və tütün tüstüsünün təsirindən qorunma proqramlarının yaradılmasına kömək etmək;*
*ii) müvafiq hallarda, tütün sektorunda çalışan şəxslərə iqtisadi cəhətdən faydalı üsulla iqtisadi və hüquqi cəhətdən həyat qabiliyyətli alternativ yaşayış tərzinin təmin olunmasında yardım etmək; və*
*iii) müvafiq hallarda, iqtisadi cəhətdən faydalı üsulla kənd təsərrüfatında alternativ bitki növlərinin istehsalına keçilməsində tütün yetişdirilməsi ilə məşğul olan şəxslərə kömək etmək.*
*c) 12-ci Maddəyə uyğun olaraq, müvafiq heyətin treninqi və ya məlumatlılığının artırılmasına dair müvafiq proqramların dəstəklənməsi;*
*d) müvafiq hallarda, tütünə qarşı mübarizə sahəsində strategiyalar, planlar və proqramların lazımi materiallar, avadanlıq və maddi-texniki dəstəklə təmin edilməsi;*
*e) nikotin asılılığından hərtərəfli müalicə də daxil olmaqla, tütünə qarşı mübarizə metodlarının müəyyən edilməsi;*
*f) müvafiq hallarda, nikotin asılılığından hərtərəfli müalicənin müyəssərliyini daha da artırmaq üçün elmi tədqiqatlara yardım edilməsi.*
*2. Tərəflərin Konfransı elmi-texniki və hüquqi təcrübə və texnologiyaların ötürülməsinə və 26-cı Maddəyə müvafiq olaraq göstərilən maliyyə yardımı ilə belə ötürmənin asanlaşdırılmasına kömək edir.*

**Şərh:**

Çərçivə Konvensiyasının 7-ci hissəsi elmi-texniki əməkdaşlıq və məlumatın çatdırılması haqqında olub 20-22-ci maddələri əhatə edir. Çərçivə Konvensiyasının 20-22-ci maddələri dövlətlərin üzərinə tütünə qarşı mübarizə sahəsində elmi tədqiqatların aparılması, bu sahədə elmi-texniki və hüquqi sahələrdə əməkdaşlıq etmək, eləcə də eləcə də Tərəflərin Konfransına vaxtaşırı olaraq hesabatlar təqdim etmək öhdəliyi qoyur.

*Elmi tədqiqatlar, epidemioloji nəzarət və məlumat mübadiləsi*

2011 və 2016-cı ildə ÜST-nin dəstəyi ilə İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən Azərbaycanda Gənclər arasında Tütündən İstifadənin Qlobal Tədqiqatı (GYTS) həyata keçirilmişdir. Bundan başqa müxtəlif dövrlərdə tütünlə əlaqəli digər tədqiqatlar da reallaşdırılmışdır:

- Azərbaycan Çoxgöstəricili Klaster Sorğusu (MICS), 2000
- Şərqi Avropa və Avrasiyada reproduktiv, ana və uşaq sağlamlığı: müqayisəli hesabat, 2001
- Azərbaycan Reproduktiv Sağlamlıq Sorğusu, 2001
- Gənclərin Sağlamlığı və İnkişafı üzrə araşdırma, 2002
- Azərbaycan Demoqrafiya və Sağlamlıq Sorğusu, 2006 və 2011

- Azərbaycanda böyüklər arasında Sağlamlıq barədə Bilik, Davranış və Təcrübə (KAP): Sosial-epidemioloji təhlil, 2006
- Azərbaycanda qeyri-infeksion xəstəliklərə dair vəziyyətin təhlili, 2009
- Azərbaycanda xroniki qeyri-infeksion xəstəliklərin risk amilləri üzrə milli araşdırma, 2011 və 2017
- "Məktəbyaşlı uşaqlar arasında sağlamlıq vərdişlərinin öyrənilməsinə dair sorğu" (HBSC), 2017

*Azərbaycan Respublikasının Çərçivə Konvensiyası qarşısında hesabatlılığı*

Çərçivə Konvensiyasının 21.1-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası vaxtaşırı olaraq Tərəflərin Konfransına Konvensiyanın həyata keçirilməsi məqsədi ilə yerinə yetirilmiş qanunverici, icra, inzibati və digər tədbirlər, həmin tədbirlər həyata keçirilərkən yaranmış çətinliklər və s. barədə hesabat təqdim edir. Azərbaycan Respublikası tərəfdən hesabatları Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İctimai İslahatlar Mərkəzi hazırlayıb təqdim edir. Azərbaycan Respublikası tərəfindən Tərəflərin Konfransına ən son hesabat 12 may 2020-ci il tarixində təqdim olunmuşdur.[99]

*Elmi-texniki və hüquqi sahələrdə əməkdaşlıq*

Səhiyyə Nazirliyinin tapşırığına əsasən İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən ÜST-nin dəstəyi ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulan Azərbaycanda qeyri-infeksion xəstəliklərin qarşısının alınması və nəzarəti üzrə Milli Strategiya və Fəaliyyət Planı hazırlanıb və aidiyyəti üzrə həyata keçirilib. Həmin sənəddə qeyri-infeksion xəstəliklərin yüksək risk faktorlarından biri olan tütünə qarşı mübarizə məsələləri çox geniş əhatə olunub. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən Tütünçəkmədən imtina etmə üzrə klinik protokol[100] hazırlanmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 27 fevral 2012-ci il tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmişdir. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən Tütündən imtinaya dair tibbi-konsultativ xidmətlər üzrə metodik tövsiyələr[101] hazırlanmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 26 fevral 2018-ci il tarixli 02 saylı qərarı ilə təsdiq edilmişdir. Müvafiq heyətə təlimlər keçirilməsi və onların maarifləndirilməsi istiqamətində maarifləndirmə tədbirlərinin keçirilməsi Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında, [102] 2008-2012-ci illərdə

---

[99] Hesabatın ingilis dilində tam mətni üçün bax: https://untobaccocontrol.org/impldb/wp-content/uploads/Azerbaijan_2020_WHOFCTCreport.pdf

[100] Tütünçəkmədən imtina etmə üzrə klinik protokol. Redaktor C. Məmmədov. Bakı, 2012, 44 səh.

[101] Tütündən imtinaya dair tibbi-konsultativ xidmətlər üzrə metodik tövsiyələr. Tərtibatçılar C. Məmmədov, N. Seyidov, T. Musayev, İ. Abbasova. Rəyçi T. Qafarov. Bakı, 2018, 43 səh.

[102] Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmişdur.

Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında,[103] eləcə də Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramında[104] və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə Strateji Planında[105] öz əksini tapmış olsa da, Çərçivə Konvensiayasına əsasən Azərbaycan Respublikasının daşıdığı öhdəlikləri yerinə yetirmək üçün bu sahədə daha spesifik proqramların işlənib hazırlanmasına / təsdiq olunmasına ehtiyac var.

***Tövsiyələr:***

- *Vahid milli epidemioloji nəzarət sisteminin yaradılmasına dair müvafiq sərəncam verilməlidir;*
- *ÜST-nin Qlobal Tütünə Nəzarət Sistemi (GTSS) çərçivəsində aparılan bütün tədqiqatlarda (Gənclər arasında Tütündən İstifadənin Qlobal Tədqiqatı (GYTS), Məktəb Heyəti arasında Qlobal Tədqiqat (GSPS), Tibb Tələbələri arasında Qlobal Tədqiqat (GHPSS) və Böyüklər arasında Tütündən İstifadənin Qlobal Tədqiqatı (GATS)) iştirak edilməlidir;*
- *Elmi tədqiqatların və məlumat mübadiləsinin aparılmasını da nəzərdə tutan Tütünlə mübarizə üzrə Milli Strategiya qəbil edilməlidir;*
- *Tütünə qarşı mübarizə sahəsində müvafiq milli strategiyalar, planlar və proqramlar işlənib hazırlanmalıdır.*

***(Eləcə də bax: Konvensiyanın 12, 14. 16 və 17-ci maddələrin şərhinə və tövsiyələrinə)***

[103] Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2008-ci il tarixli, 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
[104] Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli, 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
[105] Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 24 aprel 2014-cü il tarixli, 30 nömrəli Əmri ilə təsdiq edilmişdir.

**Xülasə**

Təqdim olunan tədqiqat işində tütün və tütün məmulatı ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyinin ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasına uyğunluğunun müqayisəli təhlili aparılır.

Aparılmış müqayisəli təhlil belə nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan Respublikasının tütün və tütün məmulatı ilə bağlı məsələləri tənzimləyən qanunvericiliyində bir sıra müddəalar Çərçivə Konvensiyasının tələblərinə uyğun gəlir. Həmin müddəalar sırasında tütün məmulatının istehsalı üçün lisenziya verilməsi, tütün məmulatlarının markalanması, tütün məmulatının tərkibinin nizamlanması kimi tələbləri göstərmək olar. Bununla yanaşı, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin bir çox müddəaları Çərçivə Konvensiyasının ayrı-ayrı tələblərinə qismən uyğun gəlir və ya uyğun gəlmir. Eləcə də Konvensiyasının bir sıra tələbləri qanunvericilikdə öz əksini tapmamış və bu sahədə müəyyən boşluqlar mövcuddur.

Tütünlə mübarizənin səmərəli şəkildə təmin olunması hərtərəfli və detallı qanunvericilik müddəalarının mövcudluğunu tələb edir ki, bu da bir çox hallarda eyni müddəanın özündə bir-neçə tələbi ehtiva etməsi nəticəsində mümkün olur. Müvafiq daxili qanunvericilikdə bəzi müddəalar vardır ki, Konvensiyasının bir tələbinə uyğun gəlsə də, onun digər tələbinə uyğun gəlmir. Məsələn, Vergi Məcəlləsinin tütün məmulatları üçün aksiz dərəcələri nəzərdə tutan 190.3.7 və 190.3.8-ci maddələri aksiz vergisinin tətbiqi tələbi baxımından Konvensiyaya qismən uyğun gəlsə də, aksiz vergi dərəcələrinin bütün növ tütün məmulatları üçün eyni olması tələbi baxımından uyğun deyil. Eləcə də “Tütün və tütün məmulatı haqqında” Qanunun 13.3-cü maddəsində “istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının hər qutusunun üstündə nikotin və tütün qatranının miqdarı göstərilməlidir” tələbi Konvensiyanın “tütün məmulatının müvafiq komponentləri barədə informasiya verilməlidir” tələbinə uyğun gəlsə də, komponentlərin miqdarının göstərilməsi tələbi Konvensiyaya uyğun deyil.

Tədqiqatdan məlum olur ki, qanunvericilikdə xüsusilə tütün məmulatının qablaşdırılmasını, eləcə də tütün məmulatının reklamı, satışının stimullaşdırılması və sponsorluğunu tənzimləyən müddəalarda bir çox boşluqlar və uyğunsuzluqlar vardır. Eləcə də yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış qanunvericilikdə Konvensiyanın tələblərinə uyğun şəkildə əks olunmuş olsa da, praktikada bu müddəaların düzgün tətbiqi istiqamətində bir çox işlər görülməlidir. Qanunvericilikdə Konvensiyanın tütünlə mübarizə sahəsində məsuliyyətlə əlaqədar məsələlərə dair tələblərinin əks olunması baxımından da çox boşluqlar mövcuddur.

Aparılmış tədqiqat belə deməyə imkan verir ki, Çərçivə Konvensiyasının 5-ci maddəsində dövlətlər üçün müəyyən edilmiş tütün sənayesinin inkişafını stimullaşdırmamaq, preferensial rejimin tətbiq olunmaması, korporativ sosial məsuliyyət kimi ümumi öhdəliklər

qanunvericilikdə bu tələblərə tamamilə zidd şəkildə təsbit olunmuş, maraqların münaqişəsinə yol verilməməsi, milli koordinasiya mexanizminin yaradılması kimi ümumi öhdəliklər qanunvericilikdə ümumiyyətlə öz əksini tapmamışdır.

Tədqiqat işində ayrı-ayrılıqda hər mövzu üzrə qanunvericiliyin Konvensiyaya uyğunluğu şərh edildikdən sonra hər bölmənin sonunda qismən uyğun gələn müddəaların tam uyğunluğunun təmin edilməsi üçün qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi və mövcud boşluqların aradan qaldırılması üçün yeni sənədlərin qəbul edilməsi üzrə tövsiyələr təqdim olunur. Onu da qeyd edək ki, tütünlə mübarizənin səmərəli şəkildə reallaşdırılmasının təmin edilməsi üçün görülməli olan tədbirlər bir-biri ilə sıx qarşılıqlı əlaqədə və asılılıqda olduğundan bu öhdəliklərin tam həyata keçirilməsi yalnız detallı bir sistem şəklində mümkün ola bilər.

Beləliklə, təqdim olunan tədqiqatda tütün epidemiyasının artan təhlükəsinə qarşı daha səmərəli mübarizə apara bilmək üçün zəruri məlumat və dəlillər əks etdirilir. Eləcə də Azərbaycan Respublikasının tütünə dair hazırkı siyasəti və spesifik qanunvericiliyi Çərçivə Konvensiyası ilə müqayisəli təhlil edilərək ölkəmiz üçün əhəmiyyətli olacaq tövsiyələr irəli sürülür.

**Summary**

This research deals with the comparative analysis of compliance of legislation of the Republic of Azerbaijan regarding tobacco and tobacco products with the WHO Framework Convention on Tobacco Control.

The main results of the research may be summarized as follows:

Some provisions of Azerbaijani legislation regulating issues related to tobacco and tobacco products comply with the requirements of the Framework Convention. The requirements on labeling of tobacco products, regulation of the contents of tobacco products are among those provisions. However, the majority provisions of the relevant legislation of the Republic of Azerbaijan partially comply with the requirements of the Framework Convention; or are not in compliance with them. Some requirements of the Convention are not reflected in the legislation at all; and there are several shortcomings existing in this field in legislation.

Ensuring effective tobacco control requires the existence of comprehensive and detailed provisions of law and sometimes it becomes possible when one provision reflects several requirements. That's why even although some provisions of the relevant national legislation comply with the one requirement of the Convention; they are not in compliance with the other requirement of it. For example, Articles 190.3.7 and 190.3.8 of the Tax Code of the Republic of Azerbaijan defining the excise tax for tobacco products partially comply with the relevant requirement of the Convention; however, they do not comply with the requirement of the Convention on the similar tax burden for different tobacco products. Besides, Article 13.3 of the Law on Tobacco and Tobacco Products, which requires "indicating the amount of nicotine and tobacco tar on each box for manufactured or produced in the circulation of tobacco products" complies with the requirement of the Convention on providing information on relevant components of tobacco products; however, it is not in compliance with the requirement of the Convention on not indicating quantitative statements on tobacco product packaging and labeling about tobacco constituents and emissions.

There are several shortcomings and inconsistencies in Azerbaijani legislation, especially in regards of the provisions regulating tobacco product packaging as well as tobacco advertising, promotion and sponsorship. Besides, although the provisions on sales to and by minors in legislation are in compliance with the Convention, those provisions still need proper implementation in practice. Not all questions related to liability in the field of tobacco control are reflected in Azerbaijani legislation.

The relevant provisions of Azerbaijani legislation are contradictory to general obligations on not granting incentives to development of the tobacco industry; not giving preferential

treatment to the tobacco industry; and corporate social responsibility defined under Article 5 of the WHO Convention. Such general obligations as avoiding conflict of interests, establishment of national coordination mechanism are not reflected in legislation at all.

The research consists of separate sections investigating relevant topics on compliance of Azerbaijani legislation with the WHO Convention; each section provides recommendations for bringing the relevant provisions of the legislation into compliance with the Convention at the end. It should be noted that the necessary measures for full and effective realization of the tobacco control are interrelated and interdependent; therefore, proper implementation of those obligations is possible through comprehensive and detailed provisions of legislation.

The research represents necessary information and arguments for ensuring effective tobacco control. It studies comparatively compliance of the current policy and legislation of the Republic of Azerbaijan on tobacco control with the WHO Framework Convention; and proposes recommendations, which would be significant for Azerbaijani legislation on tobacco control and its implementation, if adopted.

**Резюме**

В представленном исследовании проводится сравнительный анализ соответствия законодательства Азербайджанской Республики связанного с табаком и табачными изделиями Рамочной конвенции ВОЗ по борьбе против табака.

Проведённый сравнительный анализ, позволяет сделать вывод о том, что ряд положений в законодательстве Азербайджанской Республики, регулирующих вопросы табака и табачных изделий, совместим с требованиями Рамочной Конвенции. Среди этих положений можно выделить такие требования как выдача лицензии на изготовление табачных изделий, маркировка табачных изделий, регулирование состава табачных изделий. Вместе с тем, многие из положений определённого законодательства Азербайджанской Республики частично соответствуют или вовсе не совпадают с отдельными требованиями Рамочной конвенции. Также ряд требований Конвенции не нашли своего отражения в законодательстве, и в этой сфере существуют определённые недостатки.

Есть некоторые положения соответствующего национального законодательства, которые хотя и соответствуют одним, однако не соответствуют другим требованиями Конвенции; ведь обеспечение полной и эффективной борьбы с табаком возможно только с наличием детализированной законодательной системы. Например, статьи 190.3.7 и 190.3.8 Налогового Кодекса, которые предусматривают ставки акцизов на табачные изделия, хотя и частично соответствуют Конвенции с точки зрения требования применения акцизного налога, в то же время не согласуются с требованиями одинаковых ставок акцизов для всех видов табачных изделий. Также, требование статьи 13.3 Закона "О табаке и табачных изделиях" о том, что "на каждой коробке для производимых или выпускаемых в оборот табачных изделий должны быть указаны количество никотина и табачных смол" хотя и соответствует требованиям Конвенции о том, что "должна содержаться информация о соответствующих компонентах табачных изделий", требование об указании количества компонентов не соответствует Конвенции.

Из исследования видно, что в законодательстве, особенно касающейся упаковки табачных изделий, а также положений, регулирующих рекламу, стимулирование продажи и спонсорство есть ряд пробелов и несоответствий. Также вопросы продажи несовершеннолетними и с их стороны табачных изделий, хотя и отражаются в законодательстве соответственно Конвенции, предстоит ещё многое сделать для правильного применения этих положений на практике. Есть много пробелов, в плане отражения в законодательстве вопросов ответственности в области борьбы с табаком, как это показано в Конвенции.

Проведённое исследование даёт возможность сказать, что общие обязательства для государств по статье 5 Рамочной Конвенции о том, чтобы не стимулировалось развитие табачной промышленности, не применялся льготный режим, а также о корпоративной социальной ответственности отражены в законодательстве в совершенно противоположном виде, а такие общие обязательства как избегание конфликтов интересов и создание национального координационного механизма вообще не отражены в законодательстве.

В исследовании, после комментариев о соответствии национального законодательства Конвенции, по каждой теме в отдельности, для полного соответствия частично соответствующих положений, в конце каждой главы, с целью соответствующих изменений в законодательстве и устранения существующих пробелов, предлагаются рекомендации по принятию новых документов. Необходимо отметить, что для обеспечения эффективной реализации борьбы с табаком, учитывая взаимосвязанность и взаимозависимость проводимых мероприятий, полное претворение в жизнь этих обязательств возможно только в виде детализированной системы.

Итак, в представленном исследовании отражена важная информация и доказательства для проведения более эффективной борьбы против растущей опасности табачной эпидемии. Также показаны необходимые для страны рекомендации, сравнивающие сегодняшнюю политику и специфическое законодательство Азербайджанской Республики по табаку с Рамочной Конвенцией.

**İstifadə olunmuş sənədlərin siyahısı**


1. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin "Tütünə qarşı mübarizə haqqında" Ümumdünya Səhiyyə Təşkilatının Çərçivə Konvensiyasına uyğunluğunun müqayisəli təhlili, 2016 https://www.tobaccocontrol.az/upload/File/catalog/11-2016/catalog-29-file.pdf
2. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995.
3. "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu. № 989-IIQ, 20 sentyabr 2005-ci il.
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 11 iyul 2000-ci il tarixli 905-IQ nömrəli "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyəminməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.
5. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. № 266-VIQD, 23 fevral 2021-ci il.
6. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. "Azərbaycan Respublikasında Gömrük Məcəlləsinin təsdiq olunması haqqında" Azərbaycan Respublikasının Qanunu. № 164-IVQ, 24 iyun 2011-ci il.
7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.
9. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu. №138-IIQ, 8 iyun 2001-ci il.
10. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. № 573, 3 sentyabr 2001-ci il.
11. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu. № 887-VQ, 1 dekabr 2017-ci il.
12. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017 ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. № 1774, 29 dekabr 2017-ci il.
13. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. № 360-IQ, 26 iyun 1997-ci il.
14. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu. 1281-IVQ376-IQ, 15 may 2015 -ci il.

15. “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması” Qaydaları. Azərbaycan Respublikası Nazirlər Kabineti, Qərar № 144, 17 sentyabr 2009-cu il.
16. “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanunu. № 345-IIQ , 25 iyun 2002-ci il.
17. “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1328-VQD nömrəli Qanununun tətbiqi və “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. № 385, 10 dekabr 2018-ci il.
18. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu. № 1024-IIQ, 30 sentyabr 2005-ci il.
19. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. № 678-IQ, 8 iyun 1999-cu il.
20. “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu. № 216-IVQ, 22 noyabr 2013-cü ildə qəbul edilmiş və 1 iyun 2013-cü ildə qüvvəyə minmişdir.
21. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu. № 499-IQ, 19 may 1998-ci il.
22. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. № 1310-VQ, 30 oktyabr 2018-ci il.
23. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 11 aprel 2002-ci il tarixli, 61 nömrəli qərarı ilə təsdiq olunmuş Tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatın tərtibi və təqdim edilməsi Qaydaları.
24. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarı.
25. “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 aprel 2021-ci il tarixli 87 nömrəli Qərarı
26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 22 mart tarixli, 24 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası ərazisinə idxal olunan alkoqollu içkilərə, etil (yeyinti) spirtinə və tütün məmulatına aksiz markalarının tətbiq olunması Qaydaları.

27. “Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, idxalının və satışının tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1999-cu il, 90 nömrəli Fərmanı.
28. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı. Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
29. Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı. Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli, 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
30. AZS 335-2009 "Tütün məmulatları. Qablaşdırma və markalanma" Dövlət Standartı. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 29.04.2009-cu il tarixli 047 saylı əmri ilə təsdiq edilmişdir.
31. Tütünçəkmədən imtina etmə üzrə klinik protokol. Redaktor C. Məmmədov. Bakı, 2012, 44 səh.
32. Tütündən imtinaya dair tibbi-konsultativ xidmətlər üzrə metodik tövsiyələr. Tərtibatçılar C. Məmmədov, N. Seyidov, T. Musayev, İ. Abbasova. Rəyçi T. Qafarov. Bakı, 2018, 43 səh.
33. Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyasının 5.3; 6: 8: 9 və 10: 11: 12: 13: 14 maddələrinin həyata keçirilməsinin Rəhbər Prinsipləri. https://www.tobaccocontrol.az/upload/File/catalog/11-2018/catalog-66-file.pdf
34. Protocol to Eliminate İllicit Trade in Tobacco Products. http://apps.who.int/iris/bitstream/10665/80873/1/9789241505246_eng.pdf?ua=1
35. Guidelines for İmplementation of Article 5.3 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP3(7)). Available at http://www.who.int/fctc/guidelines/article_5_3.pdf
36. Guidelines for İmplementation of Article 6 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP 6(5)). Available at https://www.who.int/fctc/guidelines/adopted/Guidelines_article_6.pdf
37. Guidelines for implementation of Article 8 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP2(7)). Available at http://www.who.int/fctc/cop/art%208%20guidelines_english.pdf?ua=1
38. Partial guidelines for implementation of Article 9 and 10 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP5(6) and FCTC/COP5(19)). Available at http://www.who.int/fctc/guidelines/Guideliness_Articles_9_10_rev_240613.pdf?ua=1
39. Guidelines for Implementation of Article 11 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP3 (10). Available at http://www.who.int/fctc/guidelines/article_11.pdf?ua=1

40. Guidelines for Implementation of Article 12 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP4(7)). Available at: http://www.who.int/fctc/guidelines/Decision.pdf
41. Guidelines for Implementation of Article 13 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP3(12)). Available at: http://www.who.int/fctc/guidelines/article_13.pdf?ua=1
42. Guidelines for Implementation of Article 14 of the WHO Framework Convention on Tobacco Control (decision FCTC/COP4(8)). Available at: https://www.who.int/fctc/Guidelines.pdf
43. WHO Report on the Global Tobacco Epidemic 2019: offer help to quit tobacco use. Available at: https://www.who.int/publications/i/item/9789241516204
44. WHO Technical Manual on Tobacco Tax Administration. WHO, 2010, P. 53. http://whqlibdoc.who.int/publications/2010/9789241563994_eng.pdf?ua=1
45. Economically sustainable alternatives to tobacco growing (in relation to Article 17 and 18 of the WHO Framework Convention on Tobacco Control) Report by the working group. FCTC/COP/6/12. 18 July 2014. Available at: https://apps.who.int/iris/handle/10665/147113
46. İmplementation of Article 19 of the Convention: “Liability”. FCTC/COP/4/13, 24 September 2010. Available at: https://apps.who.int/gb/fctc/PDF/cop5/FCTC_COP5_11-en.pdf
47. WHO. Secretariat update on the WHO consultation on potential liability and compensation provisions for the framework convention on tobacco control. A/FCTC/INB2/5 Rev.1, 6 July 2001. Available at: https://apps.who.int/iris/handle/10665/75410?locale-attribute=ru&locale=zh&mode=full
48. T.C.Gida Tarim ve Hayvancilik Bakanliği. Tütün Kontrolü Çerçeve Sözleşmesi. Ümit Bayram KUTLU Genel Müdür Yardımcısı. 25 Haziran 2014, Ankara. http://www.tarim.gov.tr/ABDGM/Belgeler/%C4%B0DAR%C4%B0%20%C4%B0%C5%9EELER/2014haziran/2.pdf